RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 105 (10125) 18 iyun 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Bakıdan dünyaya ünvanlanan çağırışlar: əməkdaşlıq, həmrəylik və inkişaf

2026-cı ildə paytaxtımızda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) isə Bakının beynəlxalq statusuna yeni məzmun əlavə etdi. Bu forum artıq şəhərlərin gələcəyi haqqında qlobal müzakirələrin əsas platformalarından biri hesab olunur. XXI əsr urbanizasiya əsridir. BMT-nin proqnozlarına görə, yaxın onilliklərdə dünya əhalisinin böyük hissəsi şəhərlərdə yaşayacaq. Bu isə yeni problemlər yaradır: mənzil təminatı, nəqliyyat, ekoloji tarazlıq, rəqəmsal idarəetmə, sosial inklüzivlik və təhlükəsizlik.

WUF13 göstərdi ki, müasir şəhərlərə yalnız binalar və yollar toplusu kimi baxmamalıyıq; şəhər insanın rahat yaşadığı, işlədiyi və inkişaf etdiyi məkandır. Bu baxımdan Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi "ağıllı şəhər" və "ağıllı kənd" layihələri çox böyük beynəlxalq maraq doğurdu.

WUF kimi platformalarda formalaşan ideyalar zamanla "şəhər necə idarə olunmalıdır" sualına qlobal cavablar verir. Bu da şəhərsalma standartlarının, rəqəmsal idarəetmə modellərinin və davamlı inkişaf prinsiplərinin dəyişməsinə gətirib çıxarır. Belə qlobal tədbirlər startaplar, universitetlər və texnoloji şirkətlər üçün yeni imkanlar ortaya çıxarır ki, bu da ölkədə rəqəmsal həllərin inkişafını və yerli texnoloji məhsulların beynəlxalq bazara çıxışını sürətləndirir. Beləliklə, Bakıdan dünyaya səslənən növbəti çağırış insan yönümlü inkişaf konsepsiyası oldu.

"Bakı Enerji Həftəsi"ndə isə son 30 ildə Azərbaycanın keçdiyi inkişaf yolunun, reallaşdırılan strateji qərarların və formalaşdırılan dövlət modelinin beynəlxalq auditoriyaya təqdimatı oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbirdəki çıxışı ölkəmizin müasir inkişaf fəlsəfəsinin, milli maraqlara əsaslanan siyasətinin və praqmatik dövlət idarəçiliyinin konseptual izahı kimi tarixi əhəmiyyət kəsb etdi. Tədbirin məzmunu, burada səslənən fikirlər də bir daha göstərdi ki, Azərbaycanın enerji siyasəti, sadəcə, karbohidrogen hasilatı ilə məhdudlaşmır. Bu siyasət dövlət quruculuğu, iqtisadi inkişaf, sosial rifah, hərbi güc, beynəlxalq nüfuz və diplomatik uğurların vahid sistemidir.

8

# Azərbaycan-ABŞ əlaqələri genişlənir



Prezident İlham Əliyev ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvünü qəbul edib

2

# Bakı və Vaşinqton strateji tərəfdaşlıqda qərarlıdırlar

## Lobbi maraqları və ermənipərəst konqresmenlərin təxribatları Azərbaycan-ABŞ arasında yüksəksəviyyəli münasibətlərə kölgə sala bilməz



Azərbaycan ilə Ermənistanın sülhə və normallaşmaya doğru irəlilədiyi bir dövrdə bu müsbət impulsu sarsıdan təşəbbüslər yolverilməzdir. Cənubi Qafqazda uzun illərdən sonra Azərbaycanla Ermənistan arasında birbaşa, vasitəçisiz sülh müqaviləsinin imzalanması və sərhədlərin delimitasiyası istiqamətində real irəliləyişlər əldə olunub. Belə həssas dönəmdə Brad Şerman kimi ermənipərəst siyasətçilərin separatizmi, terrorçuluğu və müharibə canilərini reabilitasiya etmək cəhdləri, qərəzli düzəlişi qüvvədə saxlamaq təşəbbüsü bölgədə revanşizmi alovlandırır.

Bu cür qeyri-konstruktiv cəhdlər həm də iki ölkə arasında mövcud əlaqələrə kölgə salır. Şermanın təxribatları ABŞ Prezidenti Donald Tramp və onun administrasiyasının Azərbaycanla yüksəksəviyyəli əlaqələrinə, strateji tərəfdaşlıq münasibətlərinin ruhuna ziddir. Prezident Donald Tramp və onun komandası Azərbaycanla enerji təhlükəsizliyi, terrorizmlə mübarizə və regionun sabitliyi kimi məsələlərdə praqmatik, qarşılıqlı maraqlara əsaslanan yüksəksəviyyəli siyasət yürüdür.

İki ölkə arasındakı yüksək etimad və müsbət dinamika dövlət başçıları səviyyəsində mütəmadi olaraq qarşılıqlı şəkildə təqdir edilir. Prezident İlham Əliyevin iyunun 15-də 80 illik yubileyi münasibətilə ABŞ Prezidenti Donald Trampa təbrik məktubu ünvanlaması bunun bariz nümunəsidir. Dövlətimizin başçısı ABŞ-nin Vitse-prezidenti Ceyms Devid Vensin ölkəmizə səfəri çərçivəsində Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasının Azərbaycan-ABŞ münasibətlərini keyfiyyətcə yeni səviyyəyə qaldırdığını bildirib. Bütün bu faktlar fonunda aydın görünür ki, Vaşinqton və Bakı strateji tərəfdaşlıqda qərarlıdır. Bu mənada bəzi konqresmenlərin lobbi və ya maliyyə xatirinə atdığı addımlar, əslində, ABŞ-nin özünün regiondakı milli-strateji maraqlarına və Ağ Evin rəsmi xəttinə ziyan vurur.

9

# Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdərə şəhərində keçirilib



"Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası yekunlaşmaq üzrədir və hazırda "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması istiqamətində intensiv iş aparılır.

Samir Nuriyev işğaldan azad edilmiş ərazilərin aqrar potensialının Böyük qayıdış prosesinin iqtisadi dayanıqlılığının təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, torpaq və su ehtiyatlarından səmərəli istifadə, aqrar istehsalın genişləndirilməsi, istehsal və emal imkanlarının yaradılması, eləcə də kənd təsərrüfatı sahəsində dayanıqlı məşğulluğun təmin olunması qarşıdakı dövrün əsas vəzifələrindəndir. Bu baxımdan "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan tədbirlərin Böyük qayıdış üzrə həyata keçirilən fəaliyyətlərlə əlaqələndirilməsi vacibdir.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma əhalinin məşğulluğunun təmin edilməsindən, iş yerlərinin yaradılmasından və iqtisadi fəaliyyət imkanlarının genişləndirilməsindən asılıdır. Bu baxımdan kənd təsərrüfatı da daxil olmaqla müxtəlif sahələrdə məşğulluq imkanlarının artırılması, peşə bacarıqlarının inkişaf etdirilməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və iqtisadi fəallığın yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

4

# Haylar ağıllanaraq real düşünməyə başlayıblar

Hər bir milləti digərlərindən fərqləndirən fərdi xüsusiyyətlər olur.

Bu xüsusiyyətlər onların mayasında yerləşir və nəsildən-nəslə ötürülür.

Hayların fərdi və fərqli xüsusiyyətləri onların xəyanətə meyilliliyidir.

Zaman-zaman bu xüsusiyyətin şahidinə çevrilmişik.

Türkiyədə yerləşərək uzun müddət burada yaşayan və dövlətin yaratdığı bütün imkanlardan lazımınca bəhrələnən haylar xalqın ən ağır günündə - müharibə apardığı bir vaxtda ona xəyanət edərək üsyana qalxdılar.

Öz təhlükəsizliyini qorumaq üçün düşmənlə əlbir olaraq arxadan onların kürəyinə bıçaq saplayan erməniləri köçürmək barədə qərar qəbul edən Türkiyə dövləti bununla öz təhlükəsizliyini təmin etmiş oldu!

Ermənilərin hamisi sayılan Rusiya dostlarını çətinlikdə qoymamaq üçün onları Cənubi Qafqazda, Azərbaycana məxsus torpaqlarda yerləşdirməyə başladı.

"Kürəkçay" (1805-ci il), "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələri əsasında baş tutan bu yerləşdirmə nəticəsində əvvəlcə 40 min erməni, I Dünya müharibəsi dövründə isə daha 250 mindən çox erməni bu əraziyə gətirildi.

Sovet Rusiyası da çar Rusiyasının "yerləşdirmə" planını davam etdirdi.

SSRİ Nazirlər Sovetinin qəbul etdiyi qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı dədə-baba yurdlarından Azərbaycan SSR ərazisinə deportasiya edildi.

Onların yerinə isə xaricdə yaşayan ermənilər gətirildi.

7 iyul 1923-cü ildə heç bir zərurət olmadan Azərbaycan ərazisində DQMV adlı saxta bir qurum yaradıldı.

Bununla da ölkəmiz ərazisində sonralar sürətlə cücərərək artan separatçılıq toxumu basdırılmış oldu!

Ermənilər öz ağalarının bu yaxşılıqlarının əvəzini çıxmaqdan ötrü daim canfəşanlıq etdilər, əslində, bütün bunlarla forpost dövlətə və "əlaltı xalqa" çevrilmiş oldular.

Rusiyanın məqsədi isə "maşa millət" vasitəsilə daim Azərbaycanı təzyiq altında saxlamaq və onun karbohidrogen ehtiyatlarına sahiblik etmək idi.

Hər dəfə Azərbaycan müstəqilliyə nail olmaq, müstəqil dövlət yaratmaq fikrinə düşəndə Rusiya "erməni kartı"ndan istifadə edir, "Qarabağ problemi"ni yenidən qızışdıraraq Azərbaycana təzyiq və təsir göstərirdi.

Ötən əsrin 90-cı illərində qırmızı imperiya laxlayaraq dağılmağa başlayanda Azərbaycan xalqı dövlət müstəqilliyini yenidən bərpa etmək niyyətinə düşdü.

Yenə köhnə ssenari işə salındı, "Qarabağ problemi" gündəmə gətirildi.

Bu dəfə məsələ daha ciddi idi...

Çünki Azərbaycan tam müstəqil siyasət yeritmək, yeraltı və yerüstü sərvətlərinə sahiblik etmək fikrində qətiyyətli görünürdü.

Rusiya da qətiyyətli hərəkət etdi!

Ermənistan ərazisində yerləşən 102-ci bazası vasitəsilə hayları silahlandıraraq Azərbaycan ərazilərinin işğalına təhrik etdi.

Hərbi əməliyyatlarda Rusiyaya məxsus 366-cı hərbi alayla bərabər 102-ci bazanın hərbi kontingenti də yaxından iştirak edirdi.

Beləliklə, ermənilər dinc azərbaycanlıları doğma yurdlarından zorakılıqla, vəhşiliklər və soyqırımları törətməklə qovaraq Dağlıq Qarabağla bərabər həmin quruma daxil olmayan yeddi rayonu da ələ keçirərək 27 il ərzində işğalda saxladılar.

Həmin dövrdə Azərbaycan xalqının həqiqi rəhbərindən, Ulu Öndər Heydər Əliyevdən ayrı düşməsi, ölkəyə maymaq, qorxaq, səriştəsiz və təcrübəsiz insanların başçılıq etməsi torpaqların müdafiəsinin təşkilinə imkan vermədi, müxtəlif xəyanət əməlləri xalqımıza baha başa gəldi!

6

# Hüquq və azadlıqların etibarlı müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir




Müasir dövrdə Azərbaycanda insan hüquqlarının təmin olunması sahəsində əldə edilmiş nailiyyətlər, ilk növbədə dövlət siyasətinin ardıcıl, sistemli və insan mərkəzli xarakter daşıması ilə bağlıdır. Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarının, eləcə də vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən olunmuşdur. Bu konstitusion yanaşma insan hüquqlarının ölkəmizdə qanunvericilik siyasətinin, dövlət idarəçiliyinin və sosial inkişaf strategiyasının əsas istiqamətlərindən birinə çevrilməsini şərtləndirmişdir.

Bu sahədə mühüm nailiyyətlərdən biri insan hüquqları üzrə normativ hüquqi və institusional bazanın davamlı təkmilləşdirilməsidir. Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizdə bu sahədə sistemli dövlət siyasətinin əsasını qoymuşdur. Sonrakı dövrdə qəbul edilmiş milli fəaliyyət planları, dövlət proqramları, strategiyalar, konsepsiyalar və digər strateji sənədlər insan hüquqlarının müdafiəsi mexanizmlərinin gücləndirilməsinə, qanunvericiliyin beynəlxalq standartlara uyğun inkişafına və hüquq mədəniyyətinin formalaşmasına mühüm töhfə vermişdir.

7

# Azərbaycan-ABŞ əlaqələri genişlənir

## Prezident İlham Əliyev ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvünü qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeni qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini vurğuladı.

ABŞ Prezidenti ilə şəxsi münasibətlərinin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı Birləşmiş Ştatlara səfərlərini və Donald Trampla görüşlərini, həmçinin Vitse-prezident Cey. Di. Vensin ölkəmizə səfərini məmnunluqla xatırladı, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasını münasibətlərimizin genişləndirilməsi baxımından tarixi rola malik olduğunu qeyd etdi.

Söhbət zamanı Abraham Hamadenin ABŞ Konqresində "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinə həmmüəllif olmasının əhəmiyyətinə toxunuldu.

Prezident İlham Əliyev Abraham Hamadenin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən qonaq ölkəmizin coğrafi baxımdan çox nadir bir məkanda yerləşdiyini dedi.

O, həmçinin Azərbaycanda UFC və "Formula-1" kimi mötəbər idman yarışlarının keçirildiyini də vurğuladı.

Söhbət zamanı Azərbaycan və ABŞ prezidentlərinin strateji tərəfdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərinə toxunularaq, hər iki liderin dövlətlərarası münasibətlərimizin inkişafına böyük önəm verdikləri qeyd olundu.

Donald Trampın Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında rolu xüsusi vurğulandı, regional nəqliyyat bağlantılarının inkişafı baxımından TRIPP dəhlizinin yaradacağı imkanlara toxunuldu.

Görüşdə ölkəmizlə ABŞ Konqresi arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, Azərbaycan-ABŞ tərəfdaşlığının perspektivləri müzakirə olundu.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi, sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

# Məhəmməd Süleyman Əl-Casirin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Məhəmməd Süleyman Əl-Casir "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2026-cı il*

# Azərbaycan Respublikasının səhiyyə işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Cavadov Emin Ağacavad oğlu
Cəmilov Rüfət Rüstəm oğlu
Ələkbərov Cəbrayıl Ələkbər oğlu
Hacıyeva Adilə Sabir qızı
İslamzadə Fuad İslam oğlu
Kosayev Cəmaləddin Vahid oğlu
Nəbiyev Nizami Nəbi oğlu

**"Tərəqqi" medalı ilə**

Abuşov Nəsrəddin Sədrəddin oğlu
Ağayev Elşən Ələm oğlu
Ağayeva Naidə Rüstəm qızı
Əhmədova Çiçək Məmməd qızı
Əlicabarova Ulduz İsrafil qızı
Əliyev Eyub Məmmədrza oğlu
Əliyeva Kifayət Hüseyn qızı
Əlləmova Firəngiz Aşur qızı
Əzimov Nazim Kərim oğlu
Hacıyev Elxan Sərxan oğlu
Hüseynov Sahib Əhməd oğlu
Xasiyev Arif İsfəndiyar oğlu
İbadov Samir Əlixas oğlu
Kazımi Mircəlal Mirkazım oğlu
Qafarova Ellada Bəxtiyar qızı
Qarayeva Yaqut Fəxrəddin qızı
Quliyeva Yeganə Yadulla qızı
Qurbanova Züleyxa Hacıbaba qızı
Mahalov İslam Şərif oğlu
Məmmədova Sevda Faxrət qızı
Muradov Nəsir Şadı oğlu
Seyidova Leyla Miryasin qızı
Şəbiyeva Gülnarə Daməd qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2026-cı il*

# Daşkənd forumunda Azərbaycanın "yaşıl enerji" və investisiya potensialı təqdim olunub

**İyunun 17-də Özbəkistanın paytaxtında V Daşkənd Beynəlxalq İnvestisiya Forumu açılıb.**




AZƏRTAC xəbər verir ki, Azərbaycanın Baş naziri Əli Əsədov forumun plenar iclasında iştirak edib.

Tədbirdə çıxış edən Ə.Əsədov vurğulayıb ki, Özbəkistanın investisiya cəlbediciliyinin möhkəmlənməsi öz əksini ölkəyə artan beynəlxalq maraqda tapır və Daşkənd Beynəlxalq İnvestisiya Forumunda iştirakçıların sayının hər il artması bunun parlaq sübutudur.

Baş nazir qeyd edib ki, öz növbəsində Azərbaycan da bu cür təşəbbüslərə beynəlxalq investisiya əməkdaşlığının gücləndirilməsində vacib alət kimi baxır.

Hökumət başçısı bildirib ki, ötən il I Beynəlxalq İnvestisiya Forumu keçirən Azərbaycan investisiya dialoqu üçün öz beynəlxalq platformasını yaradıb.

Onun sözlərinə görə, forum investorların, biznes nümayəndələrinin və beynəlxalq maliyyə qurumlarının yüksək səviyyədə marağını nümayiş etdirib. Qeyd edilib ki, bu ilin sentyabr ayında keçiriləcək İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu həmin uğurun məntiqi davamı olacaq.

Ə.Əsədov Azərbaycanın investisiyaların cəlb edilməsi, özəl sektorun inkişafı və investisiya mühitinin yaxşılaşdırılması sahəsindəki təcrübəsini bölüşüb. Vurğulanıb ki, Azərbaycan ardıcıl olaraq iqtisadiyyatın açıqlığı və sahibkarlıq təşəbbüsünün dəstəklənməsi siyasətini həyata keçirir.

Qeyd edilib ki, son iyirmi ildə Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da təxminən yarısı xarici investisiyaların payına düşür. Ölkədə investorların hüquqlarının etibarlı qorunmasını, investisiya təhlükəsizliyinə zəmanət verilməsini, kapitalın sərbəst hərəkətini və bütün bazar iştirakçıları üçün bərabər şəraitin yaradılmasını təmin edən müasir qanunvericilik bazası formalaşdırılıb.

Azərbaycanın Avrasiyada əsas nəqliyyat yollarının kəsişməsində yerləşən unikal coğrafi mövqeyindən irəli gələn rəqabət üstünlüklərinə xüsusi diqqət yetirilib. Hazırda Azərbaycan müasir nəqliyyat infrastrukturunun, dəniz limanlarının, dəmir yollarının və avtomobil yollarının inkişafına əhəmiyyətli dərəcədə investisiya qoymaqda davam edir, bununla da regional əlaqələrin gücləndirilməsinə və biznes imkanlarının genişləndirilməsinə şərait yaradır.

Baş nazir, həmçinin "yaşıl enerji" sahəsində əməkdaşlığın yüksək potensialını vurğulayıb. Qeyd edib ki, Azərbaycan öz qarşısına milli enerji balansında bərpaolunan enerji mənbələrinin payını artırmaq kimi iddialı məqsədlər qoyub. Ölkədə miqyaslı günəş və külək enerjisi layihələri həyata keçirilir, aparıcı beynəlxalq şirkətlər cəlb edilir və investorlar üçün yeni imkanlar yaradılır.

Ə.Əsədov, həmçinin beynəlxalq investisiya əməkdaşlığının genişləndirilməsinin artan əhəmiyyətini vurğulayıb. Maliyyə resurslarını birləşdirən və strateji əhəmiyyətli layihələrin həyata keçirilməsinə əlverişli şərait yaradan birgə investisiya fondlarının bu sahədə effektiv mexanizm olduğu qeyd edib. Vurğulayıb ki, Azərbaycan dost dövlətlərlə birgə investisiya platformaları yaratmaq təcrübəsini ardıcıl olaraq inkişaf etdirir.

Xüsusilə Özbəkistan, Qazaxıstan və Qırğızıstanla birlikdə yaradılmış investisiya fondları bu gün artıq iqtisadi tərəfdaşlığın dərinləşdirilməsinin və perspektivli sektorlara investisiyaların cəlb edilməsinin hərəkətverici vasitəsi kimi xidmət edir.

Baş nazir çıxışının sonunda beynəlxalq investisiya əməkdaşlığının daha da gücləndirilməsinin dayanıqlı inkişaf və milli rifah kimi ortaq məqsədlərə nail olmağa töhfə verəcəyinə əminliyini ifadə edib.

# Baş nazir Əli Əsədov Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub



**Özbəkistan paytaxtında keçirilən V Beynəlxalq İnvestisiya Forumunda iştirak edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, həmçinin Belarus, Tacikistan, Qırğızıstanın hökumət başçıları Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olublar.**

AZƏRTAC rəsmi UZA agentliyinə istinadla xəbər verir ki, Özbəkistanın Baş naziri Abdulla Aripov qonaqlara İslam Sivilizasiyası Mərkəzi haqqında müfəssəl məlumat verib. Qeyd olunub ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qərarı ilə təsis edilən İslam Sivilizasiyası Mərkəzinin təməli 2018-ci ildə qoyulub. Layihənin həyata keçirilməsində yüzlərlə alim, ekspert, həmçinin dini və ictimai xadim iştirak edib.

Bildirilib ki, Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda hazırlanmış mərkəz 10 hektardan çox ərazini əhatə edir. Buraya tədqiqat, nadir əlyazmaların milli reyestrinin aparılması, əlyazmalar fondu, kitabxana və arxivlər, nəşriyyat şöbələri daxildir. Mərkəzdəki sərgi qalereyasında müxtəlif tarixi dövrlərə aid əşyalar və əsərlər təqdim olunur, əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir. Onun muzey ekspozisiyası "İslamdan əvvəl sivilizasiyalar", "Birinci İntibah dövrü", "İkinci İntibah dövrü", "XX əsrdə Özbəkistan", "Yeni Özbəkistan - Üçüncü İntibahın əsası" və "Müqəddəs Quran" adlı zallardan ibarətdir.

# Baş nazir Əli Əsədova "Bright Uzbekistan" layihəsi təqdim olunub



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova Özbəkistana işgüzar səfəri çərçivəsində beynəlxalq media layihəsi olan "Bright Uzbekistan" jurnalının xüsusi buraxılışı təqdim edilib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Qeyd olunub ki, jurnalın Azərbaycanla bağlı nəşr edilən 3-cü və 4-cü xüsusi buraxılışları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin dövlətçilik irsinə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin əldə etdiyi uğurlara həsr olunub.

# ABŞ konqresmeni Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırılıb

**İyunun 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeylə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin hazırkı vəziyyəti və inkişaf perspektivləri, regional və beynəlxalq təhlükəsizlik məsələləri, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiya əlaqələri, eləcə də Cənubi Qafqazda postmünaqişə dövründə mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov ötən ilin avqustunda Vaşinqtonda keçirilmiş sammitin ikitərəfli və regional əlaqələrdə əhəmiyyətini vurğulayaraq, sammit çərçivəsində əldə olunmuş tarixi razılaşmaların iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə xidmət etdiyini qeyd edib. Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, təhlükəsizlik kimi sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün mühüm əsas yaratdığı bildirilib.

Bununla yanaşı, ilk dəfə olaraq Azərbaycan-ABŞ İqtisadi Əməkdaşlıq Dialoqunun keçirildiyi, ticarət, investisiyalar, enerji, nəqliyyat, rəqəmsal inkişaf və digər sahələri əhatə edən 10 əməkdaşlıq sənədinin imzalandığı diqqətə çatdırılıb.

Görüşdə regionda nəqliyyat-kommunikasiya əlaqələrinin gücləndirilməsinə və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantıların yaradılmasına xidmət edəcək TRIPP layihəsinin reallaşdırılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Görüş zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişaf perspektivləri müzakirə olunarkən ikitərəfli əməkdaşlıqda məhdudiyyətlərin aradan qaldırılmasının əhəmiyyəti vurğulanıb. Bu çərçivədə ABŞ-nin Azərbaycana dövlət yardımını məhdudlaşdıran 907-ci düzəlişin tamamilə ləğvinin iki ölkə arasında strateji tərəfdaşlığın ruhuna uyğun olacağı, təhlükəsizlik, enerji, nəqliyyat, iqtisadiyyat və regional sabitlik sahələrində əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyi qeyd edilib. Bildirilib ki, sözügedən düzəliş öz mahiyyətinə görə köhnəlmiş yanaşmanı əks etdirir və mövcud geosiyasi reallıqlar, eləcə də Azərbaycan-ABŞ tərəfdaşlığının səviyyəsi ilə uzlaşmır.

Nazir Azərbaycanın uzun illərdir Avropanın və daha geniş coğrafiyanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən bəhs edərək, ölkəmizin ənənəvi enerji resursları ilə yanaşı, "yaşıl enerji" sahəsində həyata keçirdiyi layihələr barədə məlumat verib. Bu istiqamətdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq imkanlarının geniş olduğu vurğulanıb.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin və ölkəmizin Mərkəzi Asiya Məşvərət Görüşünə tamhüquqlu üzv qəbul edilməsinin strateji əhəmiyyəti vurğulanaraq, C6 formatında əməkdaşlıq üçün geniş imkanların mövcud olduğu qeyd edilib.

Söhbət zamanı Azərbaycan-Ermənistan normallaşma prosesi də müzakirə olunub. Nazir Azərbaycan-Ermənistan normallaşma prosesi, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri barədə qarşı tərəfə ətraflı məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamade ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 17-də ölkəmizdə səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamade ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ABŞ-Azərbaycan münasibətlərinə dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, iki ölkə arasında əlaqələr son dövrlərdə yüksək səviyyədə inkişaf edir. Bu münasibətlər qarşılıqlı hörmət, ortaq maraqlar, sülh, təhlükəsizlik və tərəqqiyə xidmət edən əsaslar üzərində qurulub.

Milli Məclisin Sədri Birləşmiş Ştatlar və Prezident Donald Trampın regionumuzda sülh və sabitliyin dəstəklənməsindəki roluna toxunaraq, bu çərçivədə Vaşinqton sammiti və onun uğurlu nəticələrini qeyd edib. Bildirilib ki, Azərbaycan Milli Məclisində bununla bağlı xüsusi sessiya təşkil olunub. Söhbət zamanı Vaşinqtonda sülh sazişinin paraflanmasının və üçtərəfli Birgə Bəyannamənin imzalanmasının regionda sülh və sabitliyin bərpa olunması baxımından mühüm əhəmiyyəti vurğulanıb. Eyni zamanda TRIPP dəhlizinin regional nəqliyyat bağlantılarının inkişafı, regionda sülh və əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfə verəcəyi bildirilib.

Milli Məclisin Sədri Prezident İlham Əliyevin Vaşinqtona son səfərlərinin, Azərbaycan dövlət başçısının Prezident Donald Trampla görüşlərinin ikitərəfli əlaqələrin inkişafı baxımından tarixi əhəmiyyətini diqqətə çatdırıb. Həmçinin Vitse-prezident Cey. Di. Vensin ölkəmizə səfəri zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının münasibətlərimizin daha da genişləndirilməsi baxımından mühüm rolu qeyd olunub.

ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamade göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycan parlamentinin spikerini ABŞ Konqresində görmək arzusunu dilə gətirib. Söhbət zamanı Abraham Hamade ABŞ-Azərbaycan əlaqələrinin əhəmiyyətinə toxunaraq, hazırda münasibətlərin müxtəlif istiqamətlər üzrə inkişafını qeyd edib. O, Azərbaycanın həm coğrafi mövqeyi, həm də beynəlxalq əməkdaşlıqda oynadığı rol baxımından xüsusi əhəmiyyət kəsb edən ölkə olduğunu söyləyib. Qonaq həmçinin regionda sülhün möhkəmləndiyini vurğulayıb və Azərbaycanla Ermənistan arasında sülhün əhəmiyyətinə toxunub.

Spiker Sahibə Qafarova söhbət zamanı Prezident Donald Tramp tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması ilə bağlı memorandumun imzalanmasını yüksək qiymətləndirərək deyib ki, bu, ölkələrimiz arasında qarşılıqlı maraq doğuran sahələr üzrə praktiki əməkdaşlığın asanlaşdırılmasına xidmət edir. Milli Məclisin Sədri ikitərəfli əlaqələrin gücləndirilməsinə və hazırda ölkələrimiz arasında tərəfdaşlığın reallıqlarını əks etdirməyən maneələrin aradan qaldırılması istiqamətində təşəbbüs göstərən Konqres üzvlərinin fəaliyyətini yüksək qiymətləndirərək, bu çərçivədə Abraham Hamadenin ABŞ Konqresində "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinin həmmüəllifi olmasının əhəmiyyətini vurğulayıb. O, həmçinin Azərbaycan və Ermənistan arasında sülh gündəliyinə toxunaraq, özünün Ermənistan parlamentinin sədri ilə keçirdiyi dörd görüşü qeyd edib.

Söhbət zamanı spiker Sahibə Qafarova qonağa ölkəmizin demokratik inkişaf tarixi, Azərbaycanda mövcud olan multikultural mühit və tolerantlıq ənənələri, o cümlədən Milli Məclisin fəaliyyəti, xarici ölkələrin parlamentləri və beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığı və digər maraq kəsb edən mövzular barədə də məlumat verib.

Görüşdə Azərbaycan Milli Məclisi ilə ABŞ Konqresi arasında münasibətlərin inkişafına da toxunulub.

*"Azərbaycan"*

# ABŞ Konqresinin nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib

**Azərbaycanda səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadenin başçılıq etdiyi nümayəndə heyəti iyunun 17-də Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər güllər düzüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib. Ziyarət zamanı nümayəndə heyətini protokol əməkdaşları və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# İnnovasiya əsaslı iqtisadiyyata keçidin hüquqi, iqtisadi və institusional əsasları formalaşdırılır

**İyunun 17-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Azər Əmiraslanov iclasda birinci oxunuşda beş məsələnin müzakirəyə təqdim ediləcəyini bildirib.**



O qeyd edib ki, gündəliyin 1-ci məsələsi "Kraudfandinq haqqında" Azərbaycan Respublikası qanun layihəsidir. 2-ci məsələnin - Mülki Məcəllədə, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lisenziyalar və icazələr haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu deyən komitə sədri bu sənəddə "Kraudfandinq haqqında" qanun layihəsindən irəli gələn uyğunlaşdırma xarakterli dəyişikliklərin təklif olunduğunu söyləyib. O, 3-cü məsələnin Əmək Məcəlləsində, Mülki Məcəllədə, "Valyuta tənzimi haqqında", "Banklar haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu və mahiyyətcə vençur kapitalı fondları ilə bağlı olduğunu bildirib. 4-cü məsələnin - Vergi Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin innovativ fəaliyyətin dəstəklənməsi və bu sahədə nəzərdə tutulan güzəştlərlə bağlı olduğunu, 5-ci məsələnin isə "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu qeyd edib.

Komitə sədri vurğulayıb ki, təqdim olunan layihələr Azərbaycanda yeni iqtisadi inkişaf modelinə keçirilməsini səciyyələndirən mühüm qanunvericilik təşəbbüsləridir. Layihələrin ümumi məqsədi innovasiya fəaliyyətinin təkmilləşdirilməsi üzrə müasir, beynəlxalq təcrübədə geniş tətbiq olunan hüquqi və maliyyə alətlərinin milli qanunvericilikdə təmin edilməsidir. Burada əsas hədəflər Azərbaycan iqtisadiyyatının daha innovativ, texnologiya yönümlü, investisiyaya açıq və rəqabətqabiliyyətli etməkdir. Eyni zamanda innovasiyanın iqtisadi məhsula çevrilməsi üçün maliyyə mexanizmlərinə ehtiyac olduğu və təqdim olunan qanun layihələrinin məhz bu mexanizmlərinin yaradılmasına xidmət etdiyi bildirilib. Qeyd edilib ki, innovativ fəaliyyətin dəstəklənməsi dövlət siyasətidir və mühüm strateji sənədlərdə öz əksini tapıb, habelə milli prioritetlərimizdən biri məhz innovativ inkişafla bağlıdır.

Sonra iclasda rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov çıxış edərək ilk dörd layihə barədə fikirlərini açıqlayıb. O, bu gün dünyada süni intellekt, məlumat mərkəzləri, rəqəmsal platformaların rolunun artdığı və iqtisadiyyatın hərəkətverici qüvvələrindən birinə çevrildiyini deyib. Bildirilib ki, bu baxımdan Azərbaycanın qarşısına qoyduğu əsas strateji hədəflərdən biri ölkəmizin regionun aparıcı texnologiya mərkəzlərindən birinə çevrilməsidir və bu istiqamətdə zəruri addımlar atılıb. Eyni zamanda rəqəmsal infrastrukturla yanaşı, bu innovasiyaları dəstəkləyən institusional mühitin daim inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Azərbaycana investisiyanın cəlb edilməsi üçün hüquqi və iqtisadi mexanizmlərin təkmilləşdirilməsinin zəruriliyindən bəhs edilib. Bildirilib ki, bu gün təqdim olunan layihələri məhz bu məqsədə - innovasiya əsaslı iqtisadiyyata keçidin hüquqi, iqtisadi və institusional əsaslarını formalaşdırmağa xidmət edir. Nəzərə çatdırılıb ki, qanun layihələrində 3 istiqamətdə - startapların maliyyələşdirilməsi, innovativ maliyyə alətləri üçün əsasların yaradılması, innovasiya fəaliyyətinin təşviqi ilə bağlı dəyişikliklər təklif olunur.

Tədbirdə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri Fərid Osmanov və agentliyin Hüquq departamentinin müdiri Kaul Məmmədov slaydlar vasitəsilə qanun layihələrini təqdim ediblər.

Əvvəlcə "Kraudfandinq haqqında" qanun layihəsi barədə məlumat verilib. Bildirilib ki, layihənin məqsədi ölkədə innovasiya ekosisteminin qurulması istiqamətində təməl prinsiplərin və hüquqi çərçivənin formalaşdırılmasıdır. Sənəddə səhm və borc əsaslı kraudfandinqin həyata keçirilməsinin hüquqi, təşkilati və iqtisadi əsasları müəyyən edilir. Kraudfandinq platformasının operatorunun hüquqi statusu və fəaliyyət şərtləri müəyyən edilir. Operatorun məhdud məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradılması, Mərkəzi Bank tərəfindən aparılan reyestrə daxil edildikdən sonra fəaliyyət göstərə bilməsi, platformanın etibarlı, təhlükəsiz və davamlı fəaliyyətini təmin etməsi, maraqlar münaqişəsinin qarşısını alması və investorlarla layihə sahiblərinin hüquqlarını qoruyan daxili siyasət və prosedurlara malik olması nəzərdə tutulur.

Qeyd olunub ki, layihə investorların müdafiəsi üçün xüsusi mexanizmlər formalaşdırır. Platformada hər bir kraudfandinq layihəsi üzrə əsas məlumat vərəqəsinin açıqlanması, layihənin məqsədi, hədəflənən maliyyələşmə məbləği, layihə sahibinin məlumatları, risklər, xərclər, qiymətli kağızlarla bağlı hüquq və məhdudiyyətlər barədə investorların əvvəlcədən məlumatlandırılması nəzərdə tutulur. Layihəyə əsasən, kraudfandinq sahəsində dövlət tənzimlənməsi və nəzarəti Mərkəzi Bank tərəfindən həyata keçirilir.

Diqqətə çatdırılıb ki, kraudfandinq layihəsi ilə bağlı bir sıra qanunlarda uyğunlaşdırma məqsədilə müvafiq dəyişikliklər təklif olunur.

Bununla yanaşı, bildirilib ki, digər qanun layihələrində vençur kapitalı fondlarının hüquqi bazasının formalaşdırılması, lisenziyalaşdırılan vençur kapitalı, vergi güzəştlərinin tətbiqi, işçilərin pay və səhm iştirakı planı haqqında müqavilə (ESOP), konvertasiya edilən maliyyə alətləri ilə bağlı müddəalar öz əksini tapıb. Qeyd olunub ki, sənədlərdə eyni zamanda güzəşt mexanizmləri, o cümlədən investisiyanın cəlbediciliyini təmin etmək üçün torpaq və əmlakla bağlı, habelə vergi inzibatçılığına dair, startapların və innovativ layihələrin maliyyələşdirilməsi üçün vergi stimulları, həmçinin dövlət satınalmalarında innovasiya və startaplara dəstəklə bağlı və digər mühüm dəyişikliklər nəzərdə tutulur.

Təqdim olunan məsələlər ətrafında aparılan müzakirələrdə komitənin sədr müavini Azər Badamov, komitə üzvləri Əlibala Məhərrəmzadə, Əli Məsimli, Rövşən Muradov, Vüqar Bayramov, Aydın Hüseynov, Müşfiq Cəfərov çıxış edərək, öz fikir və qeydlərini bildiriblər. Deputatların qaldırdığı məsələlərə aydınlıq gətirilib.

Sonra İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin müdiri Bəxtiyar Əliyev gündəliyin sonuncu məsələsi - "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunun layihəsinə dair məlumat verib.

Bildirilib ki, qanun layihəsində edilən dəyişikliklərin əsas məqsədi Ələt Azad İqtisadi Zonasında istehsal və ya kifayət qədər emal olunmuş malların ixracını təşviq etmək və ixracyönümlü istehsalı artırmaqdır.

Diqqətə çatdırılıb ki, dəyişikliyə əsasən, Ələt Azad İqtisadi Zonasında fəaliyyət göstərən hüquqi şəxslər istehsal etdikləri məhsulların ən azı 50 faizini xarici bazarlara ixrac etdikləri halda, həmin məhsulların 15 il müddətində əsas iqtisadiyyata müəyyən güzəştlərlə gətirilməsi nəzərdə tutulur.

Sənədlə bağlı müzakirədə komitənin üzvü Tahir Mirkişili çıxış edib.

İclasda təqdim edilən hər beş qanun layihəsi baxılmaq üçün birinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

Tədbirdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Heydər Əsədov, Məşhur Məmmədov, Zaur Şükürov, Parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov, Milli Məclis Sədrinin köməkçisi Rauf Məmmədov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Novruz Orucov, İqtiisadiyyat Nazirliyinin Ticarət və xarici investisiya siyasəti şöbəsinin müdir müavini Kamran Əhmədov, Ələt Azad İqtisadi Zonası səlahiyyətli qurumunun hüquq meneceri Əsmər İsmayılova və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Psixiatriya yardımının göstərilməsi qaydaları təkmilləşdirilir

**İyunun 17-də Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Əhliman Əmiraslanov gündəliyə "Psixiatriya yardımı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.**



Qanun layihəsi barədə danışan komitə sədri bildirib ki, psixiatriya sahəsində tibb elminin inkişafı, yeni müalicə üsullarının tətbiqi və tibbi texnologiyaların imkanlarının genişlənməsi qanunvericilik bazasının da müasir tələblərə uyğun təkmilləşdirilməsini zəruri edir. Əhliman Əmiraslanov qeyd edib ki, müzakirəyə təqdim olunan layihədə psixiatriya yardımının göstərilməsi prosedurlarının təkmilləşdirilməsi, psixi pozuntusu olan şəxslərin diaqnostikası və müalicəsi ilə bağlı məsələlərin, eləcə də bu sahədə mövcud münasibətlərin daha dəqiq tənzimlənməsi məqsədilə bir sıra dəyişikliklər nəzərdə tutulur.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsi barədə ətraflı məlumat verib. O bildirib ki, layihədə nəzərdə tutulan dəyişikliklər mahiyyət etibarilə geniş xarakter daşıyır və qanunun 14 maddəsi üzrə 16 əlavə və dəyişikliyi əhatə edir. Layihənin əsas məzmununu psixiatriya yardımının göstərilməsi qaydalarının təkmilləşdirilməsi təşkil edir.

Diqqətə çatdırılıb ki, layihədə psixi pozuntusu olan şəxsin sağlamlıq vəziyyəti və ona göstərilən psixiatriya yardımı tədbirləri, habelə müalicədən imtina ilə bağlı məlumatların elektron sağlamlıq kartı sisteminə daxil edilməsi və həmin məlumatların əldə olunması ilə bağlı tənzimləmələr nəzərdə tutulur.

Adil Vəliyev qeyd edib ki, layihədə həmçinin qeyri-könüllü psixiatriya yardımı və psixiatriya müayinəsinin aparılması prosedurlarının təkmilləşdirilməsi, səlahiyyətli orqanların qərarları əsasında təxirəsalınmaz hallarda müayinənin həyata keçirilməsi, aidiyyəti şəxslərin məlumatlandırılması mexanizmlərinin dəqiqləşdirilməsi və digər məsələlər öz əksini tapıb.

Komitə üzvləri Məlahət İbrahimqızı və Müşfiq Məmmədli çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər. Sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin iclasına tövsiyə edilib.

Daha sonra cari məsələlərin müzakirəsi keçirilib. Komitə sədri Əhliman Əmiraslanov, üzvləri Soltan Məmmədov və İlham Məmmədov çıxış ediblər, səhiyyə sahəsində mövcud olan bəzi aktual məsələlər barədə fikirlərini bölüşüblər.

*"Azərbaycan"*

# AHİK İnsan Hüquqları Gününə həsr olunan tədbir keçirib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) "İnsan hüquqlarının müdafiəsində həmkarlar ittifaqlarının rolu" mövzusunda tədbir keçirib. Tədbirdə dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri, hüquqşünaslar, vəkillər, mediatorlar, AHİK-in və üzv təşkilatlarının əməkdaşları iştirak ediblər.**





Tədbiri giriş nitqi ilə açan AHİK-in sədr müavini Musa Mirzəyev Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə hüquqi dövlət quruculuğu və insan hüquqlarının etibarlı müdafiəsi istiqamətində ardıcıl siyasət həyata keçirilir. Bu sahədə formalaşdırılmış institusional və hüquqi mexanizmlərin insan hüquqlarının təminində mühüm rol oynadığı qeyd edilib.

Çıxışda həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən humanitar və sosial layihələrin insan hüquqlarının qorunması, sosial müdafiə hüququnun gücləndirilməsi və humanizm dəyərlərinin qorunması baxımından əhəmiyyəti vurğulanıb.

Qeyd olunub ki, həmkarlar ittifaqları layiqli əməyin və insan hüquqlarının əmək münasibətləri müstəvisində təmin edilməsinin mühüm ictimai institutlarından biridir. AHİK və onun üzv təşkilatları tərəfindən işçilərin əmək, sosial-iqtisadi hüquqlarının müdafiəsi, hüquqi yardımın göstərilməsi, kollektiv müqavilələrin təşviqi, təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi, habelə hüquqi maarifləndirmə işinin gücləndirilməsi istiqamətində sistemli fəaliyyət aparılır.

Tədbirdə çıxış edən AHİK təmsilçiləri və Vəkillər Kollegiyasının üzvləri insan hüquqlarının müdafiəsi, əmək hüquqlarının qorunmasında həmkarlar ittifaqlarının əhəmiyyəti və hüquqi maarifləndirmə barədə fikirlərini bölüşüblər.

Tədbir çərçivəsində həmçinin insan hüquqlarının müdafiəsi sahəsində mövcud hüquqi çağırışlar, əmək münasibətlərinin tənzimlənməsinin aktual məsələləri müzakirə olunub. İştirakçılar insan hüquqlarının, xüsusilə əmək hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və sosial tərəfdaşlar arasında əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

***B.MİRZƏYEV,***
***"Azərbaycan"***

# Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdərə şəhərində keçirilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə iyunun 17-də Ağdərə şəhərində qərargahın növbəti iclası keçirilib.**





AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ölkənin hərtərəfli inkişafının əsasını təşkil etdiyini bildirib. O vurğulayıb ki, son dövrlərdə müxtəlif sahələr, o cümlədən kənd təsərrüfatı üzrə qəbul edilən strateji sənədlər, dövlət proqramları və həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi inkişafının vahid yanaşma əsasında təmin olunduğunu bir daha təsdiqləyir.

Qərargah rəhbəri vurğulayıb ki, Böyük qayıdış prosesi milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi, sosial və institusional sisteminə tam inteqrasiyasını nəzərdə tutur. Ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində zəruri infrastruktur qurulub. Hazırda əsas prioritet yaradılmış infrastruktur bazası üzərində dayanıqlı iqtisadi inkişafın təmin olunması, məskunlaşmanın iqtisadi və sosial dayaqlarının gücləndirilməsidir.

Qeyd olunub ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası yekunlaşmaq üzrədir və hazırda "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması istiqamətində intensiv iş aparılır.

Samir Nuriyev işğaldan azad edilmiş ərazilərin aqrar potensialının Böyük qayıdış prosesinin iqtisadi dayanıqlılığının təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, torpaq və su ehtiyatlarından səmərəli istifadə, aqrar istehsalın genişləndirilməsi, istehsal və emal imkanlarının yaradılması, eləcə də kənd təsərrüfatı sahəsində dayanıqlı məşğulluğun təmin olunması qarşıdakı dövrün əsas vəzifələrindəndir. Bu baxımdan "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan tədbirlərin Böyük qayıdış üzrə həyata keçirilən fəaliyyətlərlə əlaqələndirilməsi vacibdir.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma əhalinin məşğulluğunun təmin edilməsindən, iş yerlərinin yaradılmasından və iqtisadi fəaliyyət imkanlarının genişləndirilməsindən asılıdır. Bu baxımdan kənd təsərrüfatı da daxil olmaqla, müxtəlif sahələrdə məşğulluq imkanlarının artırılması, peşə bacarıqlarının inkişaf etdirilməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və iqtisadi fəallığın yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

İclasda həmçinin ekoloji dayanıqlılığın təmin edilməsi və su ehtiyatlarının idarə olunması məsələlərinə toxunulub. Bildirilib ki, təbii ehtiyatlardan səmərəli istifadə, ekosistemlərin bərpası və torpaq ehtiyatlarının qorunması uzunmüddətli inkişafın mühüm şərtlərindəndir. İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı obyektlərinin bərpası ilə yanaşı, su ehtiyatlarının müasir səviyyədə və qənaətli idarə olunması, müxtəlif sahələrin suya olan tələbatının balanslı şəkildə ödənilməsi və ölkənin su təhlükəsizliyinin möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələr sırasındadır.























Daha sonra iclasın gündəliyinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə və aqrar istehsalın təşkili, əhalinin məşğulluğunun təmin edilməsi, ekoloji dayanıqlılığın gücləndirilməsi və su ehtiyatlarının idarə olunması istiqamətində görülən işlər barədə məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji hədəflərə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi sosial-iqtisadi inkişaf prosesinə inteqrasiyasının sürətləndirilməsinin, Böyük qayıdış prosesinin dayanıqlılığının təmin olunmasının və əhalinin rifahının yüksəldilməsi istiqamətində fəaliyyətin ardıcıl şəkildə davam etdirilməsinin vacibliyi bir daha iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Sonra iclas iştirakçıları Ağdərə şəhərinin Baş planı ilə tanış olublar. Onlara şəhərin inkişaf perspektivləri və nəzərdə tutulan layihələr barədə məlumat verilib.

Eyni zamanda Ağdərə və Xocalı rayonlarında həyata keçirilən aqrar və sənaye layihələrinə baxış keçirilib.

Səfər çərçivəsində Ağdərə rayonunun Çaylı kəndində "Frutti Aqro" MMC tərəfindən salınmış intensiv meyvə bağında və "Dəmirli" Filiz Emalı Kompleksində görülən işlər və layihələrin bölgənin sosial-iqtisadi inkişafına töhfəsi barədə məlumatlar təqdim olunub.

Daha sonra Xocalı rayonunun Daşbulaq kəndində yerləşən tut bağına və baramaçılığın inkişafı üçün yaradılmış infrastruktura baxış keçirilib. Həmçinin Xanabad kəndi ərazisində fəaliyyət göstərən "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin heyvandarlıq kompleksi, eləcə də müxtəlif özəl təsərrüfat subyektləri tərəfindən salınmış intensiv meyvə bağları ilə tanışlıq olub.

Məlumatlandırma zamanı bildirilib ki, aqrar və sənaye sahələrində həyata keçirilən layihələr işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəallığın genişlənməsinə, yeni iş yerlərinin yaradılmasına, sahibkarlığın inkişafına və Böyük qayıdış prosesinin iqtisadi dayaqlarının möhkəmləndirilməsinə xidmət edir.

# Azərbaycan-Kamboca münasibətləri dostluq və əməkdaşlıq prinsiplərinə əsaslanır

**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Kamboca Xalq Partiyası Mərkəzi Komitəsi Daimi Komitəsinin üzvü, Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti Tun Vathananın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**





Görüşdə Azərbaycan ilə Kamboca arasında münasibətlərin dostluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığı, fəal siyasi dialoq şəraitində müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün mühüm potensialın olduğu qeyd edilib, dövlət başçılarının siyasi iradəsi nəticəsində iki ölkənin beynəlxalq müstəvidə, o cümlədən BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində bir-birinin maraqlarını müdafiə etdikləri, ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək verdikləri, Azərbaycan-Kamboca əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlığın, həmçinin qanunverici orqanlarda dostluq qruplarının fəaliyyətinin önəmi vurğulanıb.

Görüş zamanı həmçinin YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin 2023-cü ilin iyul ayında Kambocaya səfəri çərçivəsində Baş nazir, Kamboca Xalq Partiyasının Prezidenti Hun Sen ilə görüşü və parlament seçkilərini müşahidə etməsi, həmçinin bu ölkənin nümayəndə heyətinin ötən ilin oktyabr ayında Bakıda keçirilən ICAPP Mədəniyyət Şurasının 4-cü iclasında iştirakı xatırlanıb.

Tun Vathana YAP nümayəndə heyətinin gələn il Kambocada keçiriləcək yerli seçkilərdə müşahidəçi qismində iştirakından məmnun olacaqlarını diqqətə çatdırıb. Qarşılıqlı səfərlərin önəminə toxunularaq cari ilin iyun ayının 15-də YAP-ın təşkilatçılığı ilə "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşa şəhərində keçirilmiş beynəlxalq konfransın həm qlobal gündəliyin aktual məsələlərinin müzakirəsi, həm də partiyalarımız və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğu bildirilib.

Tun Vathana ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sürətli inkişafının və işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işlərinin şahidi olduğunu söyləyib. O, beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür məktubunu təqdim edib.

Tahir Budaqov isə dəvəti qəbul edərək konfransda iştirakına və ölkəmiz haqqında xoş sözlərinə görə qarşı tərəfə minnətdarlığını ifadə edib. O, YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə və ölkələrarası münasibətlərin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlıq sazişinin imzalanması perspektivlərinin də müzakirə olunduğu görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

İlk növbədə "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda konfransında iştirak etmək imkanına görə Sizə, həmkarlarınıza və Yeni Azərbaycan Partiyasına Kamboca nümayəndə heyəti adından dərin minnətdarlığımızı bildirmək istəyirəm. Konfrans sülh quruculuğu, transsərhəd iqtisadi əməkdaşlıq və Kamboca ilə Tailand arasında xmer məbədləri və sərhədyanı ərazilərə sahibliklə bağlı mübahisələrə dair fikir mübadiləsi aparmaq üçün dəyərli fürsət yaratdı. Həmçinin konfransın rahat və yüksək səmərəliliklə keçməsini təmin edən komandanızın nümayiş etdirdiyi peşəkarlığı və koordinasiyanı da qeyd etmək istərdim.

Azərbaycanda olduğum müddətdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin dayanıqlı inkişafını heyranlıqla müşahidə etdim. Qarabağda qısa müddət ərzində əldə olunmuş sürətli irəliləyişi xüsusilə qeyd etmək lazımdır. Son illərdə sülhə nail olunması təkcə Qarabağ əhalisi və bütövlükdə Azərbaycan xalqı üçün deyil, həm də daha geniş region və beynəlxalq ictimaiyyət üçün əhəmiyyətlidir.

Kamboca Xalq Partiyasının Sədri Samdek Hun Sen Azərbaycanla Kamboca arasında dostluq və tərəfdaşlığa böyük dəyər verir və işbirliyimizi, xüsusən də Yeni Azərbaycan Partiyası ilə Kamboca Xalq Partiyası arasında daha sıx əməkdaşlıq yolu ilə gücləndirmək üçün əlimdən gələni edəcəyəm. Partiyalarımız arasında daha böyük siyasi etimad və qarşılıqlı dəstəyin təşviqi üçün sizinlə və həmkarlarınızla sıx işləməyi səbirsizliklə gözləyirəm. İnanıram ki, Azərbaycan və Kamboca sülhün müdafiəsi və beynəlxalq hüquqa tam hörmətlə yanaşılması məsələlərində həmrəyliyi davam etdirəcəkdir.

Dəstəyinizə və nümayəndə heyətimizə ayırdığınız vaxta görə səmimi təşəkkürümü bildirirəm. Xalqlarımızın əmin-amanlığı və rifahı naminə dostluq və tərəfdaşlığın davam etdirilməsini və möhkəmlənməsini səmimi-qəlbdən arzulayıram.

*Hörmətlə,*

***Tun VATHANA,***
***Kamboca Xalq Partiyası Mərkəzi Komitəsinin Daimi Komitəsinin üzvü, Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti***

# Qarşılıqlı Anlaşma və Əməkdaşlıq Memorandumu imzalanıb

**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşa şəhərində keçirilən beynəlxalq konfransda iştirak məqsədilə ölkəmizə səfər edən Belarusun "Belaya Rus" Partiyasının sədri Olqa Çemodanovanın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**





Görüşdə Prezident İlham Əliyev ilə Prezident Aleksandr Lukaşenkonun iki ölkə arasında bərabərhüquqlu tərəfdaşlıq prinsipinə əsaslanan münasibətlərin inkişafına böyük önəm verdikləri, siyasi dialoq şəraitində iqtisadi-ticari, turizm, səhiyyə, elm, təhsil, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyi qeyd olunub.

İki dost ölkənin hazırda mürəkkəb geosiyasi şəraitdə - yeni dünya nizamına transformasiya ərəfəsində konstruktiv siyasət yürüdərək regional və qlobal təhlükəsizliyin təmini ilə bağlı prinsipial mövqe nümayiş etdirdikləri bildirilib. Milli maraqların qorunması və ortaq strateji hədəflərin gerçəkləşdirilməsi üçün beynəlxalq platformalarda qarşılıqlı dəstəyin önəmi vurğulanıb.

Görüşdə dövlətlərarası münasibətlərin inkişafında Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında əlaqələrin rolu diqqətə çatdırılıb. Cari ilin may ayında YAP nümayəndə heyətinin Belarusa səfəri məmnunluqla xatırlanaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin əhəmiyyəti qeyd edilib.

2022-ci ildən etibarən hər il iyunun 15-də Şuşa şəhərində Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransların ölkələr və partiyalar arasında münasibətlərin inkişafına təkan verdiyi vurğulanıb. Builki konfransın da mötəbər beynəlxalq tədbir kimi bütün iştirakçı tərəflər üçün faydalı olacağına və səmərəli nəticələr verəcəyinə əminlik ifadə olunub.

Sonra Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında Qarşılıqlı Anlaşma və Əməkdaşlıq Memorandumunun imzalanması mərasimi olub. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və "Belaya Rus" Partiyasının sədri Olqa Çemodanova imzalayıblar.

Memorandumdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin ölkələrimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi-hüquqi əsaslarını möhkəmləndirməklə partiyalar arasında əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəldəcəyinə və dövlətlərarası münasibətlərin inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib



**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstelin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında ortaq dəyərlərə və müştərək maraqlara əsaslanan əlaqələrin gücləndirilməsi istiqamətində səmərəli fəaliyyətin həyata keçirildiyi qeyd olunub.

Prezident İlham Əliyevin "Bizim ailəmiz türk dünyasıdır" fikri xatırladılaraq Azərbaycanın türk dövlətləri arasında işbirliyinin dərinləşdirilməsinə önəmli töhfələr verdiyi vurğulanıb.

Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına (TDT) müşahidəçi üzv statusunda qəbul olunmasında Azərbaycan Prezidentinin müstəsna rolu vurğulanaraq TDT-nin müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi istiqamətində atılan addımların strateji önəmi nəzərə çatdırılıb.

Görüş əsnasında 2023-cü il noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Türkiyənin Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumundan irəli gələn vəzifələrin indiyədək uğurla icra olunduğu məmnunluqla qeyd olunub.

Hakim siyasi partiyalar arasında əməkdaşlığın inkişaf perspektivlərinin müzakirə olunduğu görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərə dair fikir mübadiləsi aparılıb.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Baş prokuror İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri ilə görüşüb

**İyunun 17-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini Yousef Aldobeayinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qonaqları salamlayan baş prokuror bildirib ki, müstəqil Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi, islam ölkələri arasında elm, mədəniyyət, sosial, iqtisadi və digər müxtəlif sahələrdə əməkdaşlığın dəstəklənməsi missiyası daşıyan İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətinə hər zaman mühüm töhfələr verib.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət kursunda islam dünyası ilə əməkdaşlığın inkişafı xüsusi yer tutur.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən çoxsaylı beynəlxalq layihələr, ölkəmizdə təşkil olunan mötəbər tədbirlər və irəli sürülən təşəbbüslər islam həmrəyliyinin möhkəmlənməsinə, müsəlman ölkələri arasında qarşılıqlı etimad və əməkdaşlığın genişlənməsinə mühüm töhfələr verib.

Vurğulanıb ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikasının ərazi bütövlüyünü daima dəstəkləyib.

Qeyd edilib ki, dövlətimiz İƏT çərçivəsində islam dünyasının problemlərinə dair aparılan diskussiyalarda, qərar və qətnamələrin qəbul edilməsində qəti mövqe nümayiş etdirir, təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində təşəbbüskarlıq göstərir.

İslam Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən biri olan ölkəmiz təşkilatın müxtəlif qurumları - ICESCO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə də sıx əməkdaşlıq edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ICESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva islam ölkələri ərazilərindəki mədəni və tarixi dəyərlərin müdafiəsinə böyük töhfə verib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) müxtəlif tədbirlərində aktiv iştirak edib.

Bundan başqa, baş prokuror 27-28 oktyabr 2026-cı il tarixlərində İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanları rəhbərlərinin Bakı şəhərində keçiriləcək üçüncü yüksəksəviyyəli görüşə hazırlıq işləri barədə məlumat verib.



İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini Yousef Aldobeay səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Tahanın salamını çatdırıb.

Bildirib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında aktivliyi ilə fərqlənir, müsəlman ölkələrinin birliyinə, islam həmrəyliyinə mühüm töhfələr verir.

Baş katibin müavini vurğulayıb ki, Azərbaycan təşkilatın üzvləri sırasında ən fəal, təşəbbüskar və nüfuzlu dövlətlərdən biri kimi tanınır. Ölkəmizin İƏT çərçivəsində irəli sürdüyü təşəbbüslər, təşkilatın məqsəd və prinsiplərinin təşviqi istiqamətində gördüyü işlər üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilir.

Qeyd olunub ki, İslam Əməkdaşlıq Təşkilatı Ermənistanın Azərbaycana qarşı təcavüzü və keçmiş münaqişə dövründə ölkəmizin haqlı mövqeyini ardıcıl şəkildə dəstəkləyib, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpasına yönəlmiş səylərinə daim dəstək verib.

Baş katibin müavini Vətən müharibəsi zamanı və sonrakı dövrdə İƏT-in Azərbaycanın yanında olduğunu, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma proseslərinin təşkilat tərəfindən böyük maraq və rəğbətlə izlənildiyini bildirib. O, Azərbaycanın regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində atdığı addımları yüksək qiymətləndirib.

Yousef Aldobeay həmçinin qeyd edib ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı etibarlı tərəfdaş və islam həmrəyliyinin gücləndirilməsi istiqamətində aparıcı üzv dövlətlərdən biri hesab edir. Azərbaycanın təşkilatın fəaliyyətinə göstərdiyi davamlı dəstək yüksək qiymətləndirilir və İƏT də öz növbəsində ölkəmizlə əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır.

Xüsusi vurğulanıb ki, İƏT-in 16-cı İslam Sammitinə 2027-ci ildə Azərbaycan evsahibliyi edəcəkdir.

Baş katibin müavini əminliyini ifadə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın evsahibliyi edəcəyi 16-cı İslam Sammiti təşkilatın tarixində mühüm hadisələrdən biri olacaq, üzv dövlətlər arasında həmrəyliyin daha da möhkəmlənməsinə, qarşılıqlı əməkdaşlığın inkişafına və islam dünyasının qarşısında duran aktual məsələlərin müzakirəsinə mühüm töhfə verəcəkdir.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

## MSK-nın nümayəndə heyəti Gürcüstanda beynəlxalq tədbirdə iştirak edəcək

**Mərkəzi Seçki Komissiyasının nümayəndə heyəti Seçki İdarəetmə Orqanlarının 13-cü illik görüşündə iştirak etmək məqsədilə Gürcüstana səfər edib.**

AZƏRTAC xəbər verir ki, Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri Giorgi Kalandarişvilinin Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədrinə ünvanladığı dəvətə əsasən tədbirdə sədr müavini Rövzət Qasımov və Katibliyin Ümumi şöbəsinin müdiri Elşən Əsgərov iştirak edirlər.

Müxtəlif ölkələrin ali seçki qurumlarının rəhbərlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin, müstəqil ekspertlərin və seçki texnoloqlarının iştirakı ilə iyunun 17-18-də Batumi şəhərində təşkil olunan budəfəki illik görüş "Dezinformasiya strategiyaları, süni intellekt və sosial şəbəkələrin informasiya bütövlüyündə rolu" mövzusuna həsr olunub. Beynəlxalq tədbirin gündəliyinə uyğun olaraq, Seçki İdarəetmə Orqanlarının 13-cü illik görüşündə sözügedən mövzu ilə bağlı R.Qasımovun çıxışı da nəzərdə tutulur.

Səfər çərçivəsində Azərbaycan Mərkəzi Seçki Komissiyası nümayəndələrinin tədbirin iştirakçısı olan müxtəlif ölkələrin ali seçki administrasiyalarının, eləcə də beynəlxalq və xarici təşkilatların təmsilçiləri ilə görüşlər keçirməsi, qurumlararası əlaqələr, seçkilərlə bağlı müxtəlif sahələrdə təcrübə mübadiləsinin daha da genişləndirilməsi və yeni əməkdaşlıq imkanları istiqamətində müzakirələr aparılması planlaşdırılır.



# Haylar ağıllanaraq real düşünməyə başlayıblar

Nağıllar həmişə şirin və maraqlı olurlar.

Çünki onlar reallığa yox, istək və arzulara söykənirlər.

MƏSƏLƏN:

* Nağıllarda keçəl şaha qalib gəlir, hətta onun qızını alır.

* Bir nəfər igid yeddibaşlı əjdahanın başlarının hamısını kəsərək çayın qabağını açır, insanları susuzluqdan qurtarır.

* Məlikməmməd divə qalib gələrək onun boynunu vurur və s.

*Lakin bunların hamısı nağıldır!*

*Həyat isə reallıqlardan, gerçək hadisələrdən ibarətdir!*

**Nağılla həyatın, reallıqla xülyanın yerlə göy qədər fərqi olur!**

*Odur ki, röyalar aləmində deyil, əsl gerçəklikdə baş verənlərin mahiyyətini dərk etməyənlərin acınacaqlı məğlubiyyətlərə düçar olacaqları qaçılmazdır!*

Adətən, nağıllara uşaqlar inanırlar, maraqla qulaq asırlar...

Böyüklər isə ağılla düşünməyi, öz güclərini və imkanlarını doğru-düzgün qiymətləndirməyi bacarmalıdırlar!

**Xüsusən dəyişən dünyadakı yenilikləri dərk və qəbul etməyin zərurətini də anlamalıdırlar!**

❖ ❖ ❖

*Hər bir milləti digərlərindən fərqləndirən fərdi xüsusiyyətlər olur.*

*Bu xüsusiyyətlər onların mayasında yerləşir və nəsildən-nəslə ötürülür.*

**Hayların fərdi və fərqli xüsusiyyətləri onların xəyanətə meyilliliyidir.**

Zaman-zaman bu xüsusiyyətin şahidinə çevrilmişik.

*Türkiyədə yerləşərək uzun müddət burada yaşayan və dövlətin yaratdığı bütün imkanlardan lazımınca bəhrələnən haylar xalqın ən ağır günündə - müharibə apardığı bir vaxtda ona xəyanət edərək üsyana qalxdılar.*

**Öz təhlükəsizliyini qorumaq üçün düşmənlə əlbir olaraq arxadan onların kürəyinə bıçaq saplayan erməniləri köçürmək barədə qərar qəbul edən Türkiyə dövləti bununla öz təhlükəsizliyini təmin etmiş oldu!**

Ermənilərin hamisi sayılan Rusiya dostlarını çətinlikdə qoymamaq üçün onları Cənubi Qafqazda, Azərbaycana məxsus torpaqlarda yerləşdirməyə başladı.

"Kürəkçay" (1805-ci il), "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələri əsasında baş tutan bu yerləşdirmə nəticəsində əvvəlcə 40 min erməni, I Dünya müharibəsi dövründə isə daha 250 mindən çox erməni bu əraziyə gətirildi.

Sovet Rusiyası da çar Rusiyasının "yerləşdirmə" planını davam etdirdi.

SSRİ Nazirlər Sovetinin qəbul etdiyi qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı dədə-baba yurdlarından Azərbaycan SSR ərazisinə deportasiya edildi.

Onların yerinə isə xaricdə yaşayan ermənilər gətirildi.

*7 iyul 1923-cü ildə heç bir zərurət olmadan Azərbaycan ərazisində DQMV adlı saxta bir qurum yaradıldı.*

**Bununla da ölkəmiz ərazisində sonralar sürətlə cücərərək artan separatçılıq toxumu basdırılmış oldu!**

Ermənilər öz ağalarının bu yaxşılıqlarının əvəzini çıxmaqdan ötrü daim canfəşanlıq etdilər, əslində, bütün bunlarla forpost dövlətə və "əlaltı xalqa" çevrilmiş oldular.

*Rusiyanın məqsədi isə "maşa millət" vasitəsilə daim Azərbaycanı təzyiq altında saxlamaq və onun karbohidrogen ehtiyatlarına sahiblik etmək idi.*

**Hər dəfə Azərbaycan müstəqilliyə nail olmaq, müstəqil dövlət yaratmaq fikrinə düşəndə Rusiya "erməni kartı"ndan istifadə edir, "Qarabağ problemi"ni yenidən qızışdıraraq Azərbaycana təzyiq və təsir göstərirdi.**

Ötən əsrin 90-cı illərində qırmızı imperiya laxlayaraq dağılmağa başlayanda Azərbaycan xalqı dövlət müstəqilliyini yenidən bərpa etmək niyyətinə düşdü.

Yenə köhnə ssenari işə salındı, "Qarabağ problemi" gündəmə gətirildi.

Bu dəfə məsələ daha ciddi idi...

Çünki Azərbaycan tam müstəqil siyasət yeritmək, yeraltı və yerüstü sərvətlərinə sahiblik etmək fikrində qətiyyətli görünürdü.

Rusiya da qətiyyətli hərəkət etdi!

Ermənistan ərazisində yerləşən 102-ci bazası vasitəsilə hayları silahlandıraraq Azərbaycan ərazilərinin işğalına təhrik etdi.

Hərbi əməliyyatlarda Rusiyaya məxsus 366-cı hərbi alayla bərabər 102-ci bazanın hərbi kontingenti də yaxından iştirak edirdi.

Beləliklə, ermənilər dinc azərbaycanlıları doğma yurdlarından zorakılıqla, vəhşiliklər və soyqırımları törətməklə qovaraq Dağlıq Qarabağla bərabər həmin quruma daxil olmayan yeddi rayonu da ələ keçirərək 27 il ərzində işğalda saxladılar.

**Həmin dövrdə Azərbaycan xalqının həqiqi rəhbərindən, Ulu Öndər Heydər Əliyevdən ayrı düşməsi, ölkəyə maymaq, qorxaq, səriştəsiz və təcrübəsiz insanların başçılıq etməsi torpaqların müdafiəsinin təşkilinə imkan vermədi, müxtəlif xəyanət əməlləri xalqımıza baha başa gəldi!**

*Daim özgə ağzı ilə hürən ermənilər isə Azərbaycan ərazilərinin 20 faizini ələ keçirmələrindən eyforiyaya düşdülər...*

Özlərini "məğlubedilməz xalq", "məğlubedilməz dövlət", ordularını isə "məğlubedilməz ordu" adlandıraraq işğal etdikləri ərazilərdə olmazın vəhşiliklərini və vandallıqlarını törətdilər.

**Evləri dağıdaraq tikinti materialları kimi İran bazarlarında satıb pula çevirdilər, meşələri, bağları qıraraq ekosid törətdilər, mədəni və dini abidələri dağıtdılar, məscidlərimizi təhqir etdilər, qəbiristanlıqlarımızı şumlayaraq başdaşlarını oğurlayıb apardılar, işğal ərazilərini xarabalıqlara, "ruhlar şəhəri"nə çevirdilər...**

Erməni azğınlığı o səviyyə çatdı ki, bu millətdə bir özünəvurğunluq yarandı.

*"Artsax" adlı qondarma qurum, saxta parlament yaratdılar, Azərbaycandan qoparaq "müstəqil dövlət" olmaq, sonra isə Ermənistana birləşmək fikrinə düşdülər...*

**Münaqişənin sülh yolu ilə həlli üçün yaradılan ATƏT-in Minsk qrupunun saxta və riyakar fəaliyyəti, həmsədr dövlətlərin işğalı əbədiliyə çevirmək niyyəti ermənilərə qol-qanad verirdi, onlar sülhə gəlmək, torpaqlarımızı dinc yolla qaytarmaq istəmirdilər, hətta bizi "yeni ərazilərin işğalı" ilə hədələyirdilər...**

*Haylar müvəqqəti uğurlardan eyforiyaya qapılsalar da, əslində, acınacaqlı duruma düşmüşdülər:*

* Qonşularına qarşı ərazi iddiaları ilə çıxış edən Ermənistan blokadaya salınmış, iqtisadiyyatı pozulmuş, işsizlik və yoxsulluq əhalini dilənçi vəziyyətinə gətirmiş, əmək qabiliyyətli insanların böyük hissəsi iş dalınca başqa ölkələrə getmişdilər.

* Dağlıq Qarabağı heç kəs müstəqil dövlət kimi tanımadı...

* "Qalib dövlət" iqtisadi cəhətdən acınacaqlı duruma yuvarlandı...

* Vassala çevrilən Ermənistan isə müstəqil dövlət ola bilmədi!

**Azərbaycan isə güclənməkdə, özünə qüdrətli ordu yaratmaqda, dünyada siyasi çəkisi artmaqda və mövqeyi güclənməkdə idi!**

*"Qarabağ Ermənistandır və nöqtə" söyləyən, sülhə gəlmək istəməyən Ermənistanın cəzalandırılması zamanı çatdı!*

**Dövlət başçısı cənab İlham Əliyev hamının çoxdan həsrətlə gözlədiyi "İrəli!" əmrini verdi!**

❖ ❖ ❖

*Otuz ilədək davam edən işğala 44 gündə son qoyuldu!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə düşmənə bir-birinin ardınca ağır və sarsıdıcı zərbələr endirildi!**



*Hər gün televiziya vasitəsilə xalqa müraciət edən cənab İlham Əliyev yeni yaşayış məntəqələrinin azad edildiyi, Azərbaycan Ordusunun növbəti zəfəri barədə müjdə verirdi.*

**"Məğlubedilməz" erməni ordusu fərarilər yığnağına çevrilirdi, İlham Əliyevin tətbiq etdiyi yeni taktika və strategiya təkcə hayları deyil, onların havadarlarını da çaş-baş vəziyyətə salmışdı!**

*Ermənistan ordusunu xilas etmək üçün göstərilən bütün diplomatik səylər puça çıxdı!*

**Düşmən qoşunlarının ərazilərimizdən çıxarılma qrafiki təqdim edilməyənədək Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi əməliyyatları dayandırmadı!**

*İnformasiya müharibəsi də bu cəbhədə təkbaşına döyüşən İlham Əliyevin şanlı qələbəsi ilə başa çatdı!*

Üçtərəfli Bəyanatın bütün şərtlərinə əməl etmək istəməyən düşmən daha iki dəfə cəzalandırıldı.

**2023-cü ildə hərb tariximizə düşən daha iki hərbi əməliyyat keçirildi:**

* 23 apreldə Həkəri çayı üzərindəki post ələ keçirilərək Laçın dəhlizi əbədilik qapadıldı;

* 19-20 sentyabrda cəmi 23 saat davam edən tədbirlər nəticəsində düşmən ordusunun tör-töküntüləri və terrorçu dəstələri ağ bayraq qaldıraraq təslim oldular!

* Nəticədə, Azərbaycan qanunları ilə yaşamaq istəməyən Ermənistan vətəndaşları ölkə ərazisini dinc şəkildə tərk etdilər!

* Bir il sonra isə Rusiya sülhməramlı qüvvələri mahnı oxuya-oxuya Qarabağdan çıxıb getdilər!

**Beləliklə, Azərbaycan öz ərazisində bir nəfər belə separatçının və əcnəbi əsgərin olmadığı dövlətə çevrildi!**

44 günlük Zəfər müharibəsinin yaratdığı digər möhtəşəm dəyişikliklər isə Ermənistanda baş verdi!

❖ ❖ ❖

*Hərbi qüdrətini və diplomatik imkanlarını 44 gün ərzində bütün parlaqlığı ilə göstərən qalib Azərbaycan sonrakı addımlarını sülh şəraitində atdı.*

* Ermənistanı qarşısında diz çökdürərək ona kapitulyasiya aktını imzalatdıran bir dövlət sülh təşəbbüsü ilə çıxış edərək sülhün şərtlərini irəli sürdü.

* Xüsusi komissiya yaradaraq delimitasiya və demarkasiya prosesinə başladı.

* Vasitəçilərin tərəf tutduqlarını görərək onlardan imtina edib birbaşa danışıqlara üstünlük verdi.

* 8 avqust 2025-ci ildə ABŞ prezidenti D.Trampın iştirakı ilə Vaşinqtonda keçirilən görüşdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsi paraflandı.

* Ən fərsiz və bacarıqsız bir qurum kimi ATƏT-in Minsk qrupu tarixin qara arxivinə verildi.

* Zəngəzur dəhlizinin TRIPP adı ilə yaradılaraq fəaliyyətə başlaması barədə qərar qəbul olundu.

**"Dəmir yumruğ"un sarsıdıcı zərbəsi, 44 günlük müharibədən sonra baş verən proseslər, Ermənistanın daha KTMT-dən və Rusiyadan hərbi dəstək ala bilməyəcəyini dərk etməsi, qonşularla müharibə vəziyyətində olmağın və blokadada qalmağın faciəvi sonluğa gətirəcəyini gözəl anlayan baş nazir Paşinyan, nəhayət, real vəziyyəti dərk etdi!**

*Xalqına əsl həqiqəti anlatmaq üçün ona başa düşəcəyi tərzdə müraciət etdi:*

*- Biz "böyük Ermənistan" xülyası ilə yaşamaqda davam etsək, "real Ermənistanı" da itirəcəyik!*

**Əgər Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi əməliyyatları davam etdirərək onu Ermənistan ərazisinə keçirsəydi, artıq bu proses baş verəcəkdi...**

*Lakin cənab İlham Əliyev açıq şəkildə bəyan etdi:*

*- Bizim özgə torpaqlarda gözümüz yoxdur!*

Və "dəmir yumruğ"u əvvəlkindən də güclü vəziyyətə gətirərək hazır vəziyyətdə saxladı!

**Bu gün Ermənistanda yaşayan və ağlı başında olan hər kəs Azərbaycanın gücünü də, imkanlarını da, habelə Cənubi Qafqazda yaranmış yeni reallıqları da qədərincə başa düşür.**

Habelə Ermənistanın alət millət, forpost dövlət olduğunu da dərindən anlayır!

*Çıxış yolu Azərbaycanla sülhdə, Türkiyə ilə sərhədlərin açılmasında, bölgədə yeni əməkdaşlığa başlanılmasındadır.*

**Ermənistanda keçirilən sonuncu seçkilər bu mənada bir sınaq oldu!**

7 iyun seçkilərində rusiyapərəstlər də, revanşistlər də, Azərbaycanla sülh tərəfdarları da təmsil olunurdular.

Sülh tərəfdarları Paşinyana səs verdilər.

Bu isə təqribən seçicilərin yarısı deməkdir!

*Deməli, erməni xalqının xeyli hissəsi ağıllanıb və sülhün qədrini bilməyə başlayıb.*

**Yaxud, başqa cür desək, artıq ermənilərin yarısı anlayıb ki, Azərbaycanla qarşıdurma, yeni müharibə onlar üçün fəlakətli olar!**

Ya zəlzələdən, ya da vəlvələdən: deməli, Qarabağı uzun illər özlərininki hesab edənlər artıq anlayıblar ki, Qarabağın əsl sahibi kimdir!

Ən nəhayət, qisas niyyətinə düşsələr, təkcə ordularını yox, dövlətlərini də itirə bilərlər!

*Uzun müddət "hazırına nazir olanlar", özgələrinin əli ilə başqalarının torpaqlarına sahib çıxmaq istəyənlər artıq görürlər ki, daha kimsə onların yerinə döyüşmək istəmir və döyüşməyəcəkdir!*

*Təkbətək müharibədə isə Azərbaycana gücləri çatmayacaqdır!*

Nə qədər revanşist çağırışlar eşidilsə də, məsələ qarşı-qarşıya döyüşdə həll olunmalıdır!

Silahları bol olsa da, onları işlədən əsgərləri çatmır.

Üstəlik, 44 günlük Zəfər müharibəsində Azərbaycan əsgərinin və silahının qüdrətindən qorxaraq fərariyə çevrilən ordu ilə hansısa uğur qazanmaq boş ümiddir.

**Revanşistlər dayanmadan hürsələr də, quyruqlarını da bulayırlar!**

**Çünki Azərbaycandan qorxurlar!**

Bu qorxu onları ayıq başla düşünməyə vadar edir.

Bu qorxu həm də seçkilərin nəticəsinə də təsir göstərir!

❖ ❖ ❖

*Ermənistanda keçirilən 7 iyun seçkiləri hayların sürətlə ağıllanmağa, mövcud reallıqları dərk və qəbul etməyə başladıqlarının sübutu oldu.*

Bu, Cənubi Qafqazda sülh və əməkdaşlıq qurmaq təklifi ilə çıxış edən N.Paşinyanın partiyasının topladığı səsdən aydın görünür.

Doğrudur, hələlik bu səslər seçkilərdə iştirak edənlərin 50 faizini təşkil edir.

**Lakin nəzərə alsaq ki, yaxın keçmişdə həm Ermənistanda, həm də Azərbaycan ərazisində yaşayan ermənilər "miatsum" deyə bağırırdılar və bu bağırtıların arxasında isə Azərbaycan ərazisində yaradılmış qondarma "respublika"nın və onun ərazisinin Ermənistana birləşdirilməsi istəyi dururdu, onda əlli faizlik dəyişikliyin heç də kiçik rəqəm olmadığını görərik.**

*Əvvəla, hayları düz yola İlham Əliyevin "dəmir yumruğ"u gətirdi!*

44 günlük müharibədə və ondan sonrakı dövrdə baş verənlər aydın şəkildə göstərdi ki, Azərbaycan hərbi, siyasi və diplomatik cəhətdən o qədər güclənib ki, nəinki ondan torpaq qoparmaq, hətta təhdid dili ilə danışmaq belə təhlükəlidir!

*İkincisi,* ermənilər daha kiminsə onların yerinə döyüşərək özgə torpaqlarını alıb ərazilərini genişləndirəcəklərinə ümid bəsləməməlidirlər.

Çünki heç bir dövlət Azərbaycanla açıq münaqişəyə və müharibəyə girişməyəcək, həm də özü "hərbi bataqlığa" batdığından başı hayındadır.

*Üçüncüsü,* dərk ediblər ki, bu torpaq oyunlarında dövlətə başçılıq edənlər və generallar var - dövlət və sərvət toplayırlar, sadə camaat isə oğlanlarını qurban verir!

Belədə, əsgərlik yaşına çatanları götürüb xaricə qaçmağı üstün tuturlar.

*Sonda ən böyük həqiqəti onlara hazırkı rəhbərləri N.Paşinyan başa saldı.*

*Beş il bundan qabaq Xankəndidə sərxoş olaraq "Qarabağ Ermənistandır və nöqtə" deyən Paşinyan "dəmir yumruğ"un zərbəsindən ayılaraq və ağıllanaraq "Artıq Ermənistan üçün "Qarabağ hərəkatı" səhifəsi bağlanmışdır" söyləyir.*

*"Biz "böyük Ermənistan" xülyası ilə yaşasaq, "real Ermənistan"ı da itirəcəyik" - deyir!*

**Əslində, "Qarabağ hərəkatı səhifəsini" Müzəffər Ali Baş Komandan İlham Əliyev bağlamışdır, özü də həmişəlik!**

Bu gün sülh təklifi ilə çıxış edən Azərbaycan Prezidenti həm də daim xatırladır:

**"Dəmir yumruq" hazır vəziyyətdədir!**

Hadisələrin gedişi göstərir ki, növbəti dəfəki seçkidə ağıllanan hayların sayı 50 faizi keçərək yüzə çatacaqdır!

Bunu həm də mövcud reallıq və dünyada gedən proseslər zəruri edir!

**Bəxtiyar SADIQOV**

# 18 İyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günüdür

**İnsan hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və səmərəli təmin olunması Azərbaycan dövlətinin əsas prioritet istiqamətlərindən biridir. Bu sahədə sistemli və ardıcıl dövlət siyasətinin möhkəm təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1998-ci il 18 iyun tarixində Ulu Öndər tərəfindən Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiqlənmiş, bununla da insan hüquqlarının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunmuşdur.**

# Hüquq və azadlıqların etibarlı müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir

Ulu Öndərin müəyyən etdiyi bu strateji xətti Azərbaycan Prezidenti İlham Əliyev müasir dövrün tələblərinə uyğun uğurla davam və inkişaf etdirmişdir. Dövlət başçısının 2007-ci il 18 iyun tarixli sərəncamı ilə iyunun 18-nin Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi təsis edilməsi insan hüquqlarına verilən yüksək siyasi və hüquqi önəmin, bu sahədə dövlət siyasətinin davamlığının göstəricisidir. Məhz bu əlamətdar gün ərəfəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən hər il 18 may - 18 iyun tarixləri "İnsan Hüquqları Aylığı" elan edilir. Artıq ənənə halını almış bu təşəbbüsün əsas məqsədi insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, hüquqi maarifləndirmənin genişləndirilməsi, cəmiyyətdə hüquqi düşüncənin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, eləcə də insan hüquqları sahəsində mövcud mexanizmlər barədə ictimai məlumatlılığın yüksəldilməsidir.

"İnsan Hüquqları Aylığı" həm də ölkəmizin qoşulduğu beynəlxalq müqavilələrdən, Dayanıqlı İnkişaf Məqsədlərindən, qüvvədə olan qanunvericilik aktlarından, dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar və digər strateji sənədlərdən irəli gələn vəzifələrin icrasına ictimai dəstəyin gücləndirilməsinə xidmət edir. Bu baxımdan aylıq yalnız maarifləndirici tədbirlər silsiləsi deyil, həm də dövlət qurumları, yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları, media, elm və təhsil müəssisələri və digər tərəfdaşlar arasında insan hüquqları mövzusunda geniş əməkdaşlıq platformasıdır.

Aylığın cəmiyyətimizdə nail olmağı hədəflədiyi əsas dəyişikliklərdən biri hüquqi bilikdən hüquqi davranışa keçidin təmin edilməsidir. Məqsəd yalnız insanların öz hüquqlarını bilməsi deyil, həm də bu biliklərin gündəlik həyatda, ailədə, təhsil və əmək münasibətlərində, ictimai davranışda, dövlət orqanları ilə təmaslarda real tətbiq olunmasıdır. İnsan hüquqları mədəniyyəti hüquqların tələb edilməsi ilə yanaşı, başqalarının hüquqlarına hörmət, qanunlara riayət, sosial məsuliyyət, tolerantlıq və ədalət prinsiplərinə əsaslanır. Bu mənada "İnsan Hüquqları Aylığı" cəmiyyətdə insan ləyaqətinə hörmət, bərabərlik, ədalət, məsuliyyət və həmrəylik kimi dəyərlərin daha da möhkəmlənməsinə xidmət edir. Onun əsas hədəfi hüquqlarını bilən, başqalarının hüquqlarına hörmət edən, məsuliyyətli, fəal və hüquqi düşüncəyə malik cəmiyyətin inkişafına töhfə verməkdir.

Müasir dövrdə Azərbaycanda insan hüquqlarının təmin olunması sahəsində əldə edilmiş nailiyyətlər, ilk növbədə, dövlət siyasətinin ardıcıl, sistemli və insan mərkəzli xarakter daşıması ilə bağlıdır. Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarının, eləcə də vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən olunmuşdur. Bu konstitusion yanaşma insan hüquqlarının ölkəmizdə qanunvericilik siyasətinin, dövlət idarəçiliyinin və sosial inkişaf strategiyasının əsas istiqamətlərindən birinə çevrilməsini şərtləndirmişdir.

Bu sahədə mühüm nailiyyətlərdən biri insan hüquqları üzrə normativ hüquqi və institusional bazanın davamlı təkmilləşdirilməsidir. Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizdə bu sahədə sistemli dövlət siyasətinin əsasını qoymuşdur. Sonrakı dövrdə qəbul edilmiş milli fəaliyyət planları, dövlət proqramları, strategiyalar, konsepsiyalar və digər strateji sənədlər insan hüquqlarının müdafiəsi mexanizmlərinin gücləndirilməsinə, qanunvericiliyin beynəlxalq standartlara uyğun inkişafına və hüquq mədəniyyətinin formalaşmasına mühüm töhfə vermişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının yaradılması və fəaliyyətinin inkişafı da bu sahədə əsas institusional nailiyyətlərdən biridir. Ombudsman institutu vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, müraciətlərinə baxılması, pozulmuş hüquqların bərpasına kömək göstərilməsi, hüquqi maarifləndirmə, qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin verilməsi və dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında əməkdaşlığın genişləndirilməsi baxımından mühüm hüquq müdafiə mexanizminə çevrilmişdir.



Son illər həyata keçirilən məhkəmə-hüquq islahatları, dövlət xidmətlərinin şəffaflığının və əlçatanlığının artırılması, sosial müdafiə sisteminin gücləndirilməsi, "ASAN xidmət", DOST və digər innovativ idarəçilik modellərinin tətbiqi insan hüquqlarının praktik müstəvidə daha səmərəli təmin olunmasına şərait yaratmışdır. Bu islahatlar vətəndaşların dövlət xidmətlərinə çıxışını sadələşdirməklə yanaşı, bürokratik maneələrin azaldılmasında, sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsində və dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimadın möhkəmləndirilməsində mühüm rol oynamışdır.

Eyni zamanda şəhid ailələri, müharibə veteranları, əlilliyi olan şəxslər, uşaqlar, qadınlar, ahıllar, qaçqınlar, keçmiş məcburi köçkünlər və digər həssas qrupların hüquqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi daim diqqətdə saxlanılır. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışı, işğaldan azad edilmiş ərazilərdə yaşayış, sosial və inzibati infrastrukturun bərpası insan hüquqları baxımından xüsusi tarixi əhəmiyyət daşıyan prosesdir.

Ümumilikdə bu nailiyyətləri insan hüquqlarının ölkəmizdə yalnız normativ hüquqi müstəvidə deyil, həm də dövlət idarəçiliyində, sosial siyasətdə, ictimai münasibətlərdə və vətəndaş məmnunluğuna əsaslanan xidmət modelində daha möhkəm yer tutması kimi qiymətləndirmək olar. Ən başlıcası isə insan hüquqları Azərbaycanda dövlət siyasətinin strateji prioriteti kimi davamlı şəkildə inkişaf etdirilir və müasir çağırışlara uyğun olaraq yeni məzmunla zənginləşdirilir.

Ombudsman təsisatına daxil olan müraciətlər cəmiyyətdə insan hüquqları sahəsində mövcud vəziyyəti, vətəndaşların gözləntilərini və ayrı-ayrı sahələrdə həllini gözləyən məsələləri təhlil etmək baxımından mühüm informasiya mənbəyidir. 2025-ci ildə Ombudsmanın ünvanına 42 mindən çox müraciətin daxil olması, minlərlə vətəndaşın Ombudsman, Aparat və regional mərkəzlər tərəfindən qəbul edilməsi, həmçinin "916" Çağrı Mərkəzinə daxil olan çoxsaylı zənglər vətəndaşların bu təsisata etimadının və hüquqlarının müdafiəsi mexanizmlərindən istifadə fəallığının artdığını göstərir.

Müraciətlərin məzmununa nəzər saldıqda, son illər sosial təminat, əmək, sağlamlığın qorunması, mənzil, təhsil, istehlakçı hüquqları, məhkəmə qərarlarının icrası, informasiya əldə etmək, hərbi qulluqçuların və müharibə iştirakçılarının hüquqları, uşaqların, qadınların, ahılların və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı məsələlərin daha çox aktuallıq kəsb etdiyi görünür. Sosial təminatla bağlı müraciətlərdə əsasən ünvanlı dövlət sosial yardımının təyin edilməsi, özünüməşğulluq proqramına cəlb olunma, pensiya və sosial müavinətlərin təyin edilməsi və ya yenidən hesablanması kimi məsələlər önə çıxır.

Əmək hüquqları sahəsində əməkhaqqının və son haqq-hesabın vaxtında ödənilməməsi, əmək müqaviləsinə xitam verilməsi zamanı qanunvericiliyin tələblərinə əməl olunmaması, sağlamlığın qorunması sahəsində tibbi xidmətlərə əlçatanlıq, regionlarda ixtisaslaşmış tibbi yardımın təşkili, əlilliyin qiymətləndirilməsi üçün müvafiq sənədləşmənin aparılması kimi məsələlər müraciətlərdə əksini tapır. Uşaq hüquqları ilə bağlı müraciətlərdə isə alimentin ödənilməsi, uşaqla ünsiyyət hüququ, qəyyumluq və himayə məsələləri, ailədə və təhsil müəssisələrində zorakılıq halları, təhsil, sosial təminat və sağlamlıq hüquqlarının müdafiəsi xüsusi yer tutur.

Bu müraciətlər bir neçə mühüm tendensiyanı göstərir. Birincisi, vətəndaşların hüquqi məlumatlığı və hüquq müdafiə mexanizmlərinə müraciət etmək fəallığı artır. İkincisi, sosial hüquqlar, keyfiyyətli xidmətlərə çıxış və inzibati prosedurların şəffaflığı ilə bağlı gözləntilər daha da yüksəlir. Üçüncüsü, həssas əhali qruplarının hüquqlarının müdafiəsi, sosial xidmətlərə bərabər çıxış və fərdi yanaşma ehtiyacı aktuallığını qoruyur. Dördüncüsü, vətəndaşlar yalnız pozulmuş hüquqlarının bərpasını deyil, həm də dövlət qurumları tərəfindən çevik, əsaslandırılmış və insan yönümlü yanaşmanı gözləyirlər.

Daxil olan müraciətlər Ombudsman tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırılır, aidiyyəti qurumlar qarşısında məsələlər qaldırılır, zəruri hallarda təklif və tövsiyələr verilir, bir çox hallarda nöqsanların aradan qaldırılmasına və pozulmuş hüquqların bərpasına nail olunur. Ümumilikdə müraciətlərin təhlili göstərir ki, Ombudsman təsisatı vətəndaşla dövlət qurumları arasında etimad və hüquqi dialoq platforması kimi mühüm rol oynayır. Bu müraciətlər yalnız fərdi şikayətlərin araşdırılması baxımından deyil, həm də qanunvericiliyin, inzibati praktikanın və sosial xidmət mexanizmlərinin təkmilləşdirilməsi üçün mühüm analitik baza kimi qiymətləndirilməlidir.

Rəqəmsallaşma müasir dövrdə insan hüquqlarının həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Dövlət xidmətlərinin elektronlaşdırılması, məlumatlara çıxışın sadələşdirilməsi, vətəndaş müraciətlərinin daha operativ cavablandırılması, sosial, təhsil, səhiyyə və digər sahələrdə rəqəmsal həllərin tətbiqi insan mərkəzli idarəçiliyin mühüm istiqamətlərindəndir. Lakin rəqəmsal imkanların genişlənməsi ilə yanaşı, şəxsi həyatın toxunulmazlığı, fərdi məlumatların qorunması, informasiya təhlükəsizliyi və rəqəmsal mühitdə hüquqların müdafiəsi ilə bağlı yeni çağırışlar da meydana çıxır.

Bu sahədə əsas çağırışlardan biri fərdi məlumatların qanunvericiliyin tələblərinə uyğun, təhlükəsiz və məqsədli şəkildə toplanılması, işlənilməsi və mühafizə olunmasıdır. Vətəndaşların şəxsi məlumatları yalnız qanuni əsaslarla və zəruri həcmdə emal edilməli, həmin məlumatların icazəsiz yayılması, sui-istifadəsi və ya kommersiya məqsədilə qanunsuz dövriyyəyə buraxılması hallarının qarşısı alınmalıdır. Rəqəmsal mühitdə insan hüquqlarının qorunması ilk növbədə şəxsin öz məlumatları üzərində nəzarət imkanlarının gücləndirilməsini tələb edir.

Digər mühüm məsələ kibertəhlükəsizlikdir. Dövlət informasiya sistemlərinin, kritik informasiya infrastrukturunun, elektron xidmət platformalarının və vətəndaşların istifadə etdiyi rəqəmsal resursların etibarlı qorunması insan hüquqları baxımından da xüsusi əhəmiyyət daşıyır. Çünki kibertəhdidlər yalnız texniki təhlükəsizlik problemi deyil, eyni zamanda şəxsi məlumatların pozulması, sosial xidmətlərə çıxışın məhdudlaşması, maliyyə və əmlak maraqlarına zərər dəyməsi, hətta insanların dövlət xidmətlərinə etimadının azalması kimi nəticələr doğura bilər.

Rəqəmsal hüquqlar sahəsində başqa bir çağırış rəqəmsal bərabərliyin təmin olunmasıdır. Müasir dövrdə informasiya əldə etmək, elektron xidmətlərdən istifadə etmək, onlayn təhsil, səhiyyə və sosial xidmətlərə çıxış imkanları insan hüquqlarının həyata keçirilməsi ilə sıx bağlıdır. Bu baxımdan regionlarda, kənd yerlərində, ahıllar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün rəqəmsal xidmətlərə çıxışın əlçatanlığı, rəqəmsal savadlılığın artırılması və istifadəçi yönümlü xidmətlərin inkişafı xüsusi önəm daşıyır.

Süni intellekt texnologiyalarının sürətli inkişafı da yeni hüquqi və etik suallar yaradır. Bu texnologiyalar dövlət idarəçiliyi, səhiyyə, təhsil, sosial müdafiə və digər sahələrdə səmərəliliyi artıra bilər. Lakin alqoritmik qərəz, ayrı-seçkilik riski, şəffaflıq, insan nəzarəti, qərarların izah edilə bilməsi və məsuliyyət mexanizmləri daim diqqətdə saxlanılmalıdır. Texnoloji inkişaf insan hüquqlarının məhdudlaşdırılmasına deyil, onların daha səmərəli təmin olunmasına xidmət etməlidir. Bu səbəbdən rəqəmsal hüquqların müdafiəsində əsas yanaşma balanslı olmalıdır: bir tərəfdən, innovasiya və rəqəmsal inkişaf dəstəklənməli, digər tərəfdən, insan ləyaqəti, şəxsi həyatın toxunulmazlığı, məlumatların təhlükəsizliyi, ifadə və informasiya azadlığı, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsipləri qorunmalıdır. Ombudsman təsisatı üçün də bu sahə müasir insan hüquqları gündəliyinin mühüm istiqamətlərindən biridir və rəqəmsal transformasiya proseslərində insan hüquqlarına əsaslanan yanaşmanın təşviqi xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə media və sosial şəbəkələr insan hüquqlarının təşviqi və müdafiəsində mühüm rol oynayır. Media cəmiyyətin məlumatlandırılması, ictimai nəzarətin həyata keçirilməsi, hüquq pozuntuları ilə bağlı məsələlərin gündəmə gətirilməsi, həssas qrupların problemlərinə diqqətin artırılması və dövlət qurumları ilə vətəndaşlar arasında açıq kommunikasiya mühitinin formalaşdırılması baxımından əhəmiyyətli platformadır. Sosial şəbəkələr isə vətəndaşların daha operativ şəkildə fikir bildirməsinə, məlumat paylaşmasına və hüquqlarının müdafiəsi üçün müxtəlif mexanizmlərə çıxış əldə etməsinə imkan yaradır.

Azərbaycan Respublikasının Konstitusiyasında fikir və söz, eləcə də məlumat azadlıqları, şəxsi toxunulmazlıq və insan ləyaqətinin qorunması ilə bağlı mühüm təminatlar təsbit olunmuşdur. Bu baxımdan media azadlığı demokratik cəmiyyətin vacib elementi olmaqla yanaşı, həm də insan hüquqları mədəniyyətinin inkişafına xidmət edən mühüm vasitədir. "Media haqqında" qanun da media subyektlərinin fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir və media mühitində peşəkarlıq, obyektivlik və məsuliyyət prinsiplərinin əhəmiyyətini önə çıxarır. Eyni zamanda media və sosial şəbəkələrin geniş imkanları müəyyən riskləri də aktuallaşdırır. Şəxsi həyatın toxunulmazlığının pozulması, fərdi məlumatların icazəsiz yayılması, uşaqlar və digər həssas qruplarla bağlı məlumatların etik qaydalara uyğun təqdim edilməməsi, dezinformasiya, nifrət nitqi, təhqir və ayrı-seçkiliyi təşviq edən məzmun insan hüquqları baxımından ciddi narahatlıq doğuran hallardır. Ona görə də informasiya azadlığı insan ləyaqətinə, şəxsi həyata, uşaqların mənafeyinə, ictimai təhlükəsizliyə və başqalarının hüquqlarına hörmət prinsipləri ilə uzlaşdırılmalıdır.

Bu sahədə azadlıq və məsuliyyət balansı ilk növbədə hüquqi çərçivəyə, peşə etikası normalarına və ictimai maraq meyarına əsaslanmalıdır. Jurnalist və media subyektləri ictimai əhəmiyyət daşıyan məlumatları yayarkən dəqiqlik, qərəzsizlik, mənbələrin yoxlanılması, şəxsi və ailə həyatına müdaxiləyə yol verilməməsi, uşaqların və həssas şəxslərin hüquqlarının qorunması kimi prinsiplərə xüsusi diqqət yetirməlidirlər. Sosial şəbəkə istifadəçiləri də ifadə azadlığından istifadə edərkən bunun başqalarının hüquq və azadlıqlarına zərər vurmamalı olduğunu nəzərə almalıdırlar.

Ombudsman təsisatı media və sosial şəbəkələri həm ictimai məlumatlandırma, həm də insan hüquqları sahəsində maarifləndirmə baxımından mühüm tərəfdaş kimi qiymətləndirir. Ombudsmanın fəaliyyəti, hüquqi maarifləndirmə təşəbbüsləri, müraciət mexanizmləri, insan hüquqları ilə bağlı çağırış və tövsiyələr media və rəqəmsal platformalar vasitəsilə geniş ictimaiyyətə çatdırılır. Bu, vətəndaşların hüquqi məlumatlılığının artırılmasına və hüquq müdafiə mexanizmlərinə çıxış imkanlarının genişlənməsinə xidmət edir.

Ümumilikdə media azadlığı ilə sosial məsuliyyət bir-birinə zidd anlayışlar deyil. Əksinə, peşəkar, obyektiv və məsuliyyətli media insan hüquqlarının müdafiəsinə, hüquq mədəniyyətinin inkişafına, ictimai etimadın möhkəmlənməsinə və demokratik dəyərlərin təşviqinə mühüm töhfə verir. Əsas məqsəd azad informasiya mühitini qorumaqla yanaşı, bu mühitdə insan ləyaqətinin, şəxsi həyatın toxunulmazlığının, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinin təmin edilməsidir.

Uşaqların və gənclərin insan hüquqları sahəsində maarifləndirilməsi Ombudsman təsisatının fəaliyyətində xüsusi yer tutur. Çünki hüquq mədəniyyətinin formalaşması erkən yaşlardan başlanmalı, uşaqlar və gənclər yalnız öz hüquqlarını deyil, həm də başqalarının hüquqlarına hörmət, məsuliyyət, bərabərlik, ayrı-seçkiliyə yol verilməməsi və qanunlara riayət etmə kimi dəyərləri mənimsəməlidirlər. Bu baxımdan maarifləndirmə fəaliyyəti yalnız məlumat vermək məqsədi daşımır, həm də gələcək nəsildə hüquqi düşüncənin və fəal vətəndaş mövqeyinin inkişafına xidmət edir.

Ombudsman tərəfindən hər il 18 may - 18 iyun tarixlərində "İnsan Hüquqları Aylığı", BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbulunun ildönümü ilə əlaqədar isə 20 oktyabr - 20 noyabr tarixlərində "Uşaq Hüquqları Aylığı" elan olunur. Bu aylıqlar çərçivəsində paytaxtda və regionlarda məktəblilər, tələbələr, müəllimlər, valideynlər, sosial xidmət müəssisələrinin əməkdaşları, yerli icra hakimiyyəti orqanları, vətəndaş cəmiyyəti institutları və digər hədəf qruplar üçün silsilə hüquqi maarifləndirmə tədbirləri keçirilir. 2025-ci ildə "Uşaq Hüquqları Aylığı" çərçivəsində uşaq hüquqlarının müdafiəsi sahəsində ictimai məlumatlılığın artırılması, aidiyyəti qurumların səfərbər edilməsi və cəmiyyətin diqqətinin uşaqların müdafiəsinə yönəldilməsi əsas məqsədlərdən olmuşdur.

Bu istiqamətdə Ombudsman Aparatı və regional mərkəzlər tərəfindən ümumtəhsil müəssisələrində, internat tipli məktəblərdə, uşaq evlərində, gənclər evlərində, idman klublarında, sosial xidmət müəssisələrində, habelə işğaldan azad edilmiş ərazilərdə fəaliyyətə başlayan təhsil müəssisələrində maarifləndirici görüşlər təşkil edilmişdir. Həmin tədbirlərdə uşaqlara hüquq və vəzifələri, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının prinsipləri, zorakılıqdan müdafiə, təhsil hüququ, sağlam həyat tərzi, erkən nikahların və uşaq əməyinin qarşısının alınması, rəqəmsal mühitdə təhlükəsizlik, ayrı-seçkilikdən müdafiə və müraciət mexanizmləri barədə məlumat verilmişdir.

Maarifləndirmə fəaliyyətində interaktiv yanaşmalara da xüsusi önəm verilir. Uşaqların və gənclərin daha fəal iştirakı üçün təlimlər, seminarlar, intellektual bilik yarışları, rəsm və yazı müsabiqələri, sosial videoçarxlar, maarifləndirici nəşrlər və rəqəmsal materiallar hazırlanır. "Hüquqlarınla parla!" kimi təşəbbüslər, uşaqların rəqəmsal mühitdə zərərli informasiyadan qorunmasına dair maarifləndirmə, eləcə də uşaq müəssisələrində monitorinqlərlə müşayiət olunan hüquqi izahlar bu sahədə praktiki əhəmiyyət daşıyır.

Ombudsman təsisatı uşaqların və gənclərin hüquqları sahəsində beynəlxalq əməkdaşlığa da xüsusi diqqət yetirir. Azərbaycan Ombudsman təsisatının Avropa Uşaq Ombudsmanları Şəbəkəsində fəaliyyəti, beynəlxalq təcrübə mübadiləsi, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının prinsiplərinin təşviqi bu istiqamətdə institusional potensialın gücləndirilməsinə xidmət edir.

Gələcək təşəbbüslər baxımından əsas prioritetlər uşaqlar və gənclər üçün insan hüquqları üzrə daha interaktiv, rəqəmsal və inklüziv maarifləndirmə formatlarının genişləndirilməsi, regionlarda və işğaldan azad edilmiş ərazilərdə təhsil müəssisələri ilə əməkdaşlığın davam etdirilməsi, rəqəmsal təhlükəsizlik və media savadlılığı mövzularının daha geniş auditoriyalara çatdırılması, eləcə də uşaqların öz hüquqları ilə bağlı qərarvermə və müzakirə proseslərində iştirak imkanlarının artırılmasıdır. Məqsəd hüquqlarını bilən, məsuliyyətli, sosial cəhətdən fəal, vətənpərvər və insan ləyaqətinə hörmət edən gənc nəslin formalaşmasına töhfə verməkdir.

"İnsan Hüquqları Aylığı" münasibətilə vətəndaşlarımıza, xüsusilə gənc nəslə əsas mesajımız ondan ibarətdir ki, insan hüquqları hər birimizin gündəlik həyatının ayrılmaz hissəsidir. Hüquqlarımızı bilmək, onlardan düzgün istifadə etmək, eyni zamanda başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmaq hüquqi dövlətin və sağlam cəmiyyətin əsas şərtlərindəndir.

Azərbaycan dövləti insan hüquq və azadlıqlarının təmin edilməsini özünün ali məqsədlərindən biri kimi müəyyən etmişdir. Bu yanaşma hər bir vətəndaş üçün həm hüquqlarını müdafiə etmək imkanı, həm də ictimai məsuliyyət yaradır. Çünki insan hüquqları yalnız dövlət institutlarının fəaliyyəti ilə deyil, həm də insanların bir-birinə münasibətində, ailədə, məktəbdə, iş yerində, ictimai həyatda və rəqəmsal mühitdə davranış mədəniyyətində öz real ifadəsini tapır.

"İnsan Hüquqları Aylığı" cəmiyyətin bütün üzvlərinə bir daha xatırladır ki, ədalət, bərabərlik, insan ləyaqətinə hörmət, tolerantlıq, həmrəylik və qanunçuluq dəyərləri hər birimizin gündəlik davranışında yaşamalıdır. Bu dəyərlərin qorunması ailədən, məktəbdən, sosial münasibətlərdən, ictimai müzakirələrdən və rəqəmsal platformalardakı davranışlardan başlayır.

Əsas çağırışımız budur: hüquqlarınızı bilin, vəzifələrinizi unutmayın, başqalarının hüquqlarına hörmət edin və cəmiyyətimizin daha ədalətli, məsuliyyətli, inklüziv və insan ləyaqətinə əsaslanan inkişafına öz töhfənizi verin. İnsan hüquqları mədəniyyətinin güclənməsi hər birimizin fəal vətəndaşlıq mövqeyindən, hüquqi düşüncəsindən və gündəlik davranışından asılıdır.

İnsan hüquqlarının qorunması, şübhəsiz ki, ilk növbədə. dövlətin mühüm konstitusion vəzifələrindən biridir. Dövlət insan hüquq və azadlıqlarının təmin olunması üçün qanunvericilik bazasını formalaşdırır, hüquqi müdafiə mexanizmlərini yaradır, ədalət mühakiməsini, sosial müdafiə sistemini, təhsil, səhiyyə və digər ictimai xidmətləri təşkil edir. Bu baxımdan dövlət institutlarının fəaliyyəti insan hüquqlarının qorunmasında əsas təminat mexanizmi kimi çıxış edir.

Lakin insan hüquqlarının real müdafiəsi yalnız dövlət qurumlarının fəaliyyəti ilə məhdudlaşmır. İnsan hüquqları cəmiyyətin gündəlik həyatında, insanların bir-biri ilə münasibətində, ailədə, məktəbdə, iş yerində, ictimai məkanda, media və rəqəmsal platformalarda davranış mədəniyyətində özünü göstərir. Başqasının ləyaqətinə hörmət etmək, ayrı-seçkiliyə yol verməmək, zorakılığı, təhqiri və nifrət nitqini rədd etmək, həssas vəziyyətdə olan insanlara diqqətlə yanaşmaq hər bir vətəndaşın sosial məsuliyyətidir. Bu mənada insan hüquqları həm hüquqi, həm də mənəvi-ictimai dəyərdir. Qanunlar hüquqları təsbit edir və müdafiə mexanizmlərini müəyyənləşdirir, lakin həmin hüquqların cəmiyyətdə real şəkildə yaşaması insanların davranışından, münasibətindən və məsuliyyət hissindən asılıdır. Hüquqlarını bilən, eyni zamanda başqalarının hüquqlarına hörmət edən vətəndaş cəmiyyətin sağlam inkişafının əsas dayaqlarından biridir. Ona görə də insan hüquqlarının qorunmasına yalnız "dövlətin işi" kimi baxmaq düzgün olmazdı. Dövlət, vətəndaş cəmiyyəti, media, təhsil müəssisələri, ailə və hər bir vətəndaş bu prosesin iştirakçısıdır. İnsan hüquqları mədəniyyəti məhz bu ümumi məsuliyyətin dərk edildiyi, hüquq və vəzifələrin balanslı şəkildə qəbul olunduğu, qarşılıqlı hörmət və ədalət prinsiplərinin gündəlik davranış normasına çevrildiyi cəmiyyətdə daha da güclənir.

*Bu baxımdan əsas məqsədimiz insan hüquqlarına hörmətin yalnız hüquqi tələb kimi deyil, həm də ictimai həyat tərzi, davranış mədəniyyəti və vətəndaş mövqeyi kimi formalaşmasına nail olmaqdır. Hər bir insan öz ailəsində, işində, təhsil aldığı mühitdə, ictimai münasibətlərində və rəqəmsal davranışında başqalarının hüquqlarına hörmətlə yanaşarsa, bu, bütövlükdə cəmiyyətdə hüquq mədəniyyətinin, sosial həmrəyliyin və ədalət duyğusunun daha da möhkəmlənməsinə xidmət edər.*

***Səbinə ƏLİYEVA,***
***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), hüquq üzrə fəlsəfə doktoru***



# Bakıdan dünyaya ünvanlanan çağırışlar: əməkdaşlıq, həmrəylik və inkişaf

**Müasir beynəlxalq münasibətlər sisteminin əsas xüsusiyyətlərindən biri qlobal problemlərin sürətlə artması və onların həlli üçün yeni əməkdaşlıq platformalarına olan ehtiyacın yaranmasıdır. Bəli, təəssüf ki, dünyanın müxtəlif regionlarında müharibələr və silahlı münaqişələr davam edir, enerji təhlükəsizliyi məsələləri yeni məzmun qazanır, iqlim dəyişiklikləri artıq ayrı-ayrı dövlətlərin deyil, bütün bəşəriyyətin gələcəyini təhdid edən məsələ kimi aktuallaşır.**

Belə bir dövrdə dövlətlərin və şəhərlərin beynəlxalq nüfuzu yalnız iqtisadi gücü və ya hərbi potensialı ilə ölçülmür. Onların qlobal dialoqa, beynəlxalq əməkdaşlığa və bəşəri problemlərin həllinə verdiyi töhfə də mühüm əhəmiyyət daşıyır. Son illər Bakı məhz bu baxımdan dünyanın diqqətini cəlb edən ünvana çevrilib. Əgər bir zamanlar Azərbaycanın paytaxtı əsasən enerji layihələri və geostrateji mövqeyi ilə tanınırdısa, bu gün Bakı qlobal ideyaların, beynəlxalq təşəbbüslərin və mühüm siyasi müzakirələrin aparıldığı nüfuzlu mərkəz kimi qəbul olunur. Şəhərimizdə keçirilən beynəlxalq forumlar, sammitlər və konfranslar göstərir ki, Azərbaycan artıq regional proseslərin iştirakçısından daha çox, qlobal gündəliyin formalaşmasına təsir göstərən ölkələr sırasındadır. Bu gün Bakıdan dünyaya ünvanlanan çağırışlar isə təkcə Azərbaycanın baxışını yox, eyni zamanda müasir dövrün ən vacib problemlərinə dair alternativ yanaşmaları əks etdirir və bu çağırışların mərkəzində dialoq, əməkdaşlıq, dayanıqlı inkişaf, qarşılıqlı hörmət və insan amili durur.

### Yeni dövrün diplomatik paytaxtı

Tarix boyu dünyanın müəyyən şəhərləri qlobal siyasətin istiqamətini müəyyənləşdirən mərkəzlər kimi tanınıb. Vyana, Cenevrə, Nyu York, Brüssel kimi şəhərlər beynəlxalq diplomatiyanın simvolları hesab olunur. Son illər Bakı da bu sırada özünəməxsus yer tutmağa başlayıb.

Bunun əsas səbəblərindən biri Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursudur. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində ölkəmiz müxtəlif siyasi sistemlərə, fərqli maraqlara və müxtəlif geosiyasi mövqelərə malik dövlətlərlə etibarlı münasibətlər qurmağa nail olub. Məhz bu amil Bakını müxtəlif baxışların toqquşduğu deyil, uzlaşdırıldığı platformaya çevirib. Bu gün Bakıda Qərb və Şərqin, Şimal və Cənubun nümayəndələri eyni masa arxasında əyləşə bilirlər. Bu isə müasir dünyamızda nadir hadisədir. Qlobal parçalanmaların artdığı, beynəlxalq təşkilatların effektivliyinin sual altına düşdüyü bir vaxtda belə platformalara ehtiyac daha da güclənir.

Son illərin ən mühüm beynəlxalq tədbirlərindən biri Qlobal Bakı forumlarıdır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi bu forumlar artıq beynəlxalq ekspertlər tərəfindən dünyanın ən nüfuzlu siyasi dialoq platformalarından biri kimi qiymətləndirilir.

Qlobal Bakı forumlarının əhəmiyyəti onların iştirakçı tərkibi ilə də ölçülür. Keçmiş və hazırkı dövlət başçıları, hökumət rəhbərləri, Nobel mükafatı laureatları, BMT rəsmiləri, aparıcı analitik mərkəzlərin nümayəndələri və beynəlxalq ekspertlər hər il Bakıda keçirilən müxtəlif tədbirlərdə bir araya gəlirlər. Bu tədbirlərdə müzakirə olunan məsələlər isə bütün bəşəriyyəti narahat edən problemləri əhatə edir: beynəlxalq təhlükəsizlik, yeni dünya nizamı, süni intellekt, enerji keçidi, ərzaq təhlükəsizliyi, miqrasiya, iqlim dəyişiklikləri, qlobal idarəetmənin gələcəyi və s. Dünyaya ünvanlanan ilk böyük çağırış da məhz Bakıdan səslənib: dialoq qarşıdurmadan üstündür. Müasir dünyada güc amilinin ön plana çıxmasına baxmayaraq, Bakı forumlarının əsas fəlsəfəsi əməkdaşlıq və qarşılıqlı anlaşma ideyasına söykənir.

### Azərbaycanın qlobal gündəliyə töhfəsi

2024-cü ildə Bakının evsahibliyi etdiyi COP29 Azərbaycanın beynəlxalq nüfuzunun yeni mərhələsini formalaşdırdı. Dünyanın ən böyük iqlim tədbirinin ölkəmizdə keçirilməsi əsla təsadüfi deyildi. Bir tərəfdən, respublikamız enerji istehsalçısı ölkəsi kimi tanınır, digər tərəfdən isə son illərdə "yaşıl enerji" keçidi istiqamətində mühüm addımlar atır. Xəzər dənizinin böyük külək potensialı, günəş enerjisi layihələri və Qarabağla Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan olunması bu siyasətin tərkib hissəsidir.

COP29 həm də Bakını qlobal iqlim diplomatiyasının mərkəzinə çevirdi. Burada səsləndirilən əsas mesaj ondan ibarət idi ki, inkişaf və ekoloji məsuliyyət bir-birinə zidd anlayışlar deyil, əksinə, gələcəyin inkişaf modeli məhz bu iki istiqamətin vəhdəti üzərində qurulmalıdır. Bu forum vasitəsilə Bakı dünyaya daha bir çağırış ünvanladı: iqlim dəyişiklikləri ilə mübarizə yalnız inkişaf etmiş ölkələrin məsuliyyəti sayılmamalıdır, bu, bütün bəşəriyyətin ortaq məsuliyyətidir.

2026-cı ildə paytaxtımızda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) isə Bakının beynəlxalq statusuna yeni məzmun əlavə etdi. Bu forum artıq şəhərlərin gələcəyi haqqında qlobal müzakirələrin əsas platformalarından biri hesab olunur. XXI əsr urbanizasiya əsridir. BMT-nin proqnozlarına görə, yaxın onilliklərdə dünya əhalisinin böyük hissəsi şəhərlərdə yaşayacaq. Bu isə yeni problemlər yaradır: mənzil təminatı, nəqliyyat, ekoloji tarazlıq, rəqəmsal idarəetmə, sosial inklüzivlik və təhlükəsizlik.

WUF13 göstərdi ki, müasir şəhərlərə yalnız binalar və yollar toplusu kimi baxmamalıyıq; şəhər insanın rahat yaşadığı, işlədiyi və inkişaf etdiyi məkandır. Bu baxımdan Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi "ağıllı şəhər" və "ağıllı kənd" layihələri çox böyük beynəlxalq maraq doğurdu.

WUF kimi platformalarda formalaşan ideyalar zamanla "şəhər necə idarə olunmalıdır" sualına qlobal cavablar verir. Bu da şəhərsalma standartlarının, rəqəmsal idarəetmə modellərinin və davamlı inkişaf prinsiplərinin dəyişməsinə gətirib çıxarır. Belə qlobal tədbirlər startaplar, universitetlər və texnoloji şirkətlər üçün yeni imkanlar ortaya çıxarır ki, bu da ölkədə rəqəmsal həllərin inkişafını və yerli texnoloji məhsulların beynəlxalq bazara çıxışını sürətləndirir. Beləliklə, Bakıdan dünyaya səslənən növbəti çağırış insan yönümlü inkişaf konsepsiyası oldu.

"Bakı Enerji Həftəsi"ndə isə son 30 ildə Azərbaycanın keçdiyi inkişaf yolunun, reallaşdırılan strateji qərarların və formalaşdırılan dövlət modelinin beynəlxalq auditoriyaya təqdimatı oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbirdəki çıxışı ölkəmizin müasir inkişaf fəlsəfəsinin, milli maraqlara əsaslanan siyasətinin və praqmatik dövlət idarəçiliyinin konseptual izahı kimi tarixi əhəmiyyət kəsb etdi. Tədbirin məzmunu, burada səslənən fikirlər də bir daha göstərdi ki, Azərbaycanın enerji siyasəti, sadəcə, karbohidrogen hasilatı ilə məhdudlaşmır. Bu siyasət dövlət quruculuğu, iqtisadi inkişaf, sosial rifah, hərbi güc, beynəlxalq nüfuz və diplomatik uğurların vahid sistemidir.

Xüsusi qeyd olunmalıdır ki, dünyanın ən nüfuzlu siyasi liderləri "Bakı Enerji Həftəsi"nə xüsusi diqqət göstərirlər. ABŞ Prezidenti Donald Trampın, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Böyük Britaniyanın Baş naziri Kir Starmerin tədbir iştirakçılarına ünvanladıqları məktublar Azərbaycanın enerji sahəsində qazandığı beynəlxalq nüfuzun göstəricisidir. Həmin məktublar həm də respublikamızın qlobal enerji siyasətinin mühüm subyektlərindən biri kimi rolunu nümayiş etdirirdi.

Bu dün qlobal iqlim dəyişikliyi fonunda ekoloji təhlükəsizliyin təmin edilməsi müasir beynəlxalq münasibətlər sisteminin strateji prioritetinə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə tərəfdaşlıq çərçivəsində bu günlərdə ölkəmiz Ümumdünya Ətraf Mühit Gününə (WED) uğurla evsahibliyi etdi. Belə bir tədbirə evsahibliyi ölkəmizin qlobal ekoloji təşəbbüslərdə fəal iştirakının və "yaşıl inkişaf" strategiyasına sadiqliyinin növbəti təzahürü oldu. Bu, ətraf mühitin qorunması, iqlim dəyişiklikləri ilə mübarizə və davamlı inkişaf məqsədləri istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xidmət etməklə yanaşı, Azərbaycanın ekoloji məsələlərin həllinə verdiyi töhfələrin dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini də nümayiş etdirdi.

### Qarşıdurma əvəzinə əməkdaşlıq

Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan olub. Həmin xüsusiyyət bu gün də ölkənin beynəlxalq fəaliyyətində mühüm rol oynayır. 2008-ci ildən start verilmiş və BMT-nin ali rəhbərliyi tərəfindən də təqdir olunan "Bakı Prosesi", bu proses çərçivəsində paytaxtımızda təşkil olunan Mədəniyyətlərarası Dialoq forumları, o cümlədən müxtəlif humanitar tədbirlər ayrı-ayrı xalqlar arasında anlaşmanı möhkəmləndirir. Dünyada dini və etnik zəmində qarşıdurmaların artdığı bir dövrdə Azərbaycanın təqdim etdiyi model fərqliliklərin qarşıdurma deyil, əməkdaşlıq mənbəyi ola biləcəyini aydın göstərir ki, bu da Bakının dünyaya ünvanladığı daha bir mühüm mesajdır: sivilizasiyalararası dialoq bəşəriyyətin təhlükəsiz gələcəyinin vacib şərtidir.

Bu tədbirlərin uğurla təşkilində və məqsədinə çatmasında, Bakıdan dünyaya ünvanlanan çağırışların öz hədəf kütlələrinə çatmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri müstəsnadır. Mehriban xanımın yüksək təşkilatçılıq bacarığı, irəli sürdüyü təşəbbüslər sayəsində belə beynəlxalq tədbirlər yüksək təsirlər yaradır, eyni zamanda bu tədbirlərdən sonra da davam etdirilən mütəmadi layihələrlə davamlı şəkildə dəstəklənir. Bütün bu tədbirlərin arxasında Azərbaycanın son illərdə əldə etdiyi siyasi, iqtisadi və diplomatik uğurlar durur.

Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkənin beynəlxalq təşəbbüslərdə fəal iştirakı, enerji təhlükəsizliyinə verdiyi töhfə, nəqliyyat-kommunikasiya layihələrində oynadığı rol və balanslaşdırılmış xarici siyasəti onun beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. Bu gün Bakı artıq təkcə Azərbaycanın paytaxtı deyil. O, qlobal ideyaların müzakirə olunduğu, müxtəlif baxışların yaxınlaşdığı və beynəlxalq əməkdaşlığın təşviq edildiyi mərkəz kimi çıxış edir.

Dünyamız çox mürəkkəb, ziddiyyətli dövr yaşayır. Müharibələr, siyasi qarşıdurmalar, iqtisadi qeyri-müəyyənliklər və iqlim problemləri beynəlxalq münasibətlərin gündəliyini müəyyənləşdirir. Belə bir şəraitdə dialoq və əməkdaşlıq platformalarının əhəmiyyəti daha da artır.

Son illər Bakıda keçirilən forumlar və digər beynəlxalq tədbirlər yeni ideyaların formalaşdığı, qlobal problemlərin həll yollarının axtarıldığı platformalardır. Bakıdan dünyaya ünvanlanan çağırışların əsas mahiyyəti aydındır: qarşıdurma əvəzinə əməkdaşlıq, parçalanma əvəzinə həmrəylik, qeyri-müəyyənlik əvəzinə dayanıqlı inkişaf və insan amilini hər şeydən üstün tutan gələcək.

Məhz bu çağırışlar Azərbaycanın beynəlxalq nüfuzunu möhkəmləndirir, Bakını isə qlobal dialoqun ən mühüm mərkəzlərindən birinə çevirir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# B.Şermanın mövqeyi sülh prosesi ilə uzlaşmır

**Konqresmen Brad Şermanın Ruben Vardanyan və digər müharibə cinayətkarlarının azad edilməsi, 907-ci düzəlişin qüvvədə saxlanması tələbi ilə ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinə ünvanladığı məktub obyektivlikdən uzaq və tamamilə qərəzlidir.**



Azərbaycanın bir qrup QHT rəhbərinin və hüquq müdafiəçilərinin ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinə ünvanlandığı məktubda da qeyd edildiyi kimi, Şermanın azadlığa buraxılmasını tələb etdiyi şəxslər Azərbaycan xalqına qarşı insanlıq əleyhinə cinayətlər törətmiş, yüz minlərlə insanın köçkün vəziyyətinə düşməsinə səbəb olmuş, mülki infrastrukturun və mədəni irsin dağıdılmasında, soyqırımı, ekosid, urbisid və mədəni qırğın aktlarında birbaşa rol oynamış müharibə cinayətkarlarıdır.

**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, yerli qanunvericiliyə və beynəlxalq hüquqa uyğun olaraq, Azərbaycanın bu cinayətləri araşdırmağa, günahkarları məhkum etməyə tam ixtiyarı var: "Bu səbəbdən müharibə cinayətkarları ilə bağlı məsələyə yanaşmada əsas olan hansısa siyasi bəyanat və ya lobbiçilik fəaliyyəti deyil, məhkəmə prosesləri və qanunun aliliyi prinsipidir. Azərbaycan və Ermənistan arasında davamlı sülhün qurulması, münasibətlərin normallaşdırılması və regionda yeni əməkdaşlıq mühitinin formalaşdırılması istiqamətində mühüm addımların atıldığı bir dövrdə belə təşəbbüslərin irəli sürülməsi təəssüf doğurur. Belə təşəbbüslər etimadın möhkəmlənməsinə deyil, əksinə, keçmiş qarşıdurma narrativlərinin yenidən canlandırılmasına xidmət edir. Regionda davamlı sülhün təmin olunması üçün beynəlxalq hüquqa hörmət, ədalət prinsipləri və dövlətlərin suveren hüquqlarının tanınması əsas götürülməlidir".

V.Rəhimzadə diqqətə çatdırıb ki, ABŞ Prezidenti Donald Tramp və onun administrasiyası Azərbaycanla Ermənistan arasında dialoqu və normallaşmanı dəstəkləsə də, Şermanın təşəbbüsü bu səylərə ziddir. Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa 80 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubunda qeyd edib ki, keçən ilin avqustunda Ağ Evdə tarixi görüş zamanı əsası qoyulmuş Strateji Tərəfdaşlıq Xartiyasının ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri çərçivəsində imzalanması Azərbaycan-ABŞ əlaqələrini keyfiyyətcə yeni pilləyə qaldırıb. Sözügedən tədbirdə deyilir: "Vaşinqtonda şahidliyiniz ilə imzaladığımız üçtərəfli birgə bəyannamə, habelə Ermənistanla paraflanan Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş sülh quruculuğu yolunda Sizin ardıcıl səylərinizin nəticəsidir. Eyni zamanda biz Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edəcək və Orta dəhlizin bir hissəsinə çevriləcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu (TRIPP) regionda dayanıqlı sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olaraq görürük".

V.Rəhimzadə onu da vurğulayıb ki, Prezident Donald Tramp və onun administrasiyası Cənubi Qafqazda sülh prosesinin irəliləməsini, Azərbaycan ilə Ermənistan arasında dialoq və normallaşma səylərini dəstəklədiyi halda, konqresmen Brad Şermanın ortaya qoyduğu ədalətsiz və qərəzli mövqe bu məqsədlərlə uzlaşmır: "Belə yanaşma regionda əldə olunmuş müsbət dinamikanın gücləndirilməsinə deyil, əksinə, sülh prosesinə və qarşılıqlı etimadın formalaşmasına mənfi təsir göstərə biləcək addım kimi qiymətləndirilə bilər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Fransa XXI əsrin geosiyasi reallıqlarını müstəmləkəçilik təfəkkürü ilə qavrayır"

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin xarici siyasəti çox vaxt onların daxili siyasətinin güzgüsü rolunu oynayır. Güclü dövlətlər öz daxili problemlərini islahatlar, institusional dəyişikliklər və strateji planlaşdırma vasitəsilə həll etməyə çalışdıqları halda, siyasi böhran yaşayan ölkələr bəzən cəmiyyətin diqqətini real problemlərdən yayındırmaq üçün xarici təhlükə və ya "xarici düşmən" obrazı formalaşdırmağa üstünlük verirlər. Son illər Fransanın Azərbaycana münasibətdə nümayiş etdirdiyi davranışlar da məhz bu kontekstdə təhlil edilməlidir.**



**Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın müstəqil siyasət yürütməsi, ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, regional güc mərkəzinə çevrilməsi bəzi beynəlxalq dairələrin planlarını pozub, xüsusən də uzun illər Cənubi Qafqazda özünü təsir sahibi kimi təqdim etməyə çalışan Fransa üçün yeni geosiyasi reallıqların yaranması ciddi siyasi narahatlıq mənbəyinə çevrilib. "Rəsmi Parisin son illər Azərbaycana qarşı irəli sürdüyü ittihamların mahiyyətinə diqqət yetirdikdə aydın görünür ki, burada obyektiv siyasi yanaşmadan daha çox emosional və siyasi motivlər üstünlük təşkil edir. Fransa Senatında və Milli Assambleyasında qəbul edilən qərəzli qətnamələr, Avropa Parlamentində Azərbaycana qarşı təşkil olunan kampaniyalar, Ermənistanın mövqeyini müdafiə edən birtərəfli bəyanatlar bunun ən açıq nümunələridir. Bu siyasətin kökündə duran səbəbləri yalnız Ermənistan amili ilə izah etmək mümkün deyil. Şübhəsiz ki, Fransadakı güclü erməni diasporu və lobbi şəbəkələrinin təsiri mühüm rol oynayır, lakin məsələ bundan daha dərindir. Əslində, Fransa özünün qlobal təsir imkanlarının zəiflədiyi bir dövrdə yeni geosiyasi dayaqlar axtarır və Cənubi Qafqazı həmin istiqamətlərdən biri kimi görür", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Parisin qarşılaşdığı əsas problem XXI əsrin geosiyasi reallıqlarını keçmiş müstəmləkəçilik dövrünün təfəkkürü ilə qavramasıdır: "Bu gün Azərbaycan öz milli maraqlarını müdafiə etmək iqtidarında olan, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan, Avrasiya üçün həyati əhəmiyyət daşıyan nəqliyyat-kommunikasiya layihələrinin əsas iştirakçılarından biri kimi çıxış edən dövlətdir. Belə bir potensiala və əhəmiyyətə malik ölkəyə təzyiq dili ilə yanaşmaq nə siyasi nəticə verə, nə də diplomatik uğur qazandıra bilər".

E.Mirzəbəyli vurğulayıb ki, Fransanın Azərbaycana qarşı sərgilədiyi aqressiv ritorikanın digər mühüm səbəbi onun öz daxilində yaşadığı dərin siyasi və sosial böhrandır: "Son illər Fransa cəmiyyətində hakimiyyət institutlarına inamın azalması artıq sistemli xarakter alıb. Pensiya islahatlarına qarşı milyonlarla insanın iştirak etdiyi etiraz aksiyaları, polis zorakılığı ilə bağlı qalmaqallar, miqrasiya problemləri, sosial bərabərsizliyin dərinləşməsi və iqtisadi çətinliklər ölkədə ciddi narazılıq mühiti formalaşdırıb. Prezident Emmanuel Makronun siyasi kursu cəmiyyətin əhəmiyyətli hissəsi tərəfindən qəbul edilmir və bu vəziyyət Fransanın daxili siyasi sabitliyinə mənfi təsir göstərir. Belə bir şəraitdə xarici siyasət gündəmində "Azərbaycan təhlükəsi", "Azərbaycanın təsiri" və ya "Azərbaycanın müdaxiləsi" kimi tezislərin dövriyyəyə buraxılması təsadüfi görünmür. Çünki tarix boyu daxili problemlərlə üzləşən siyasi elitalar diqqəti başqa istiqamətə yönəltmək üçün xarici amilləri hədəf göstərməyə çalışıblar. Əslində isə, Fransa bu gün diqqətini Azərbaycana deyil, özünün sürətlə zəifləyən beynəlxalq mövqelərinə yönəltməlidir".

Deputat qeyd edib ki, bir neçə il ərzində Fransanın Afrikadakı təsir sistemi faktiki olaraq çökməyə başlayıb. Mali, Burkina Faso, Niger və Çadda baş verən hadisələr Parisin onilliklər ərzində qurduğu geosiyasi arxitekturanın ciddi zərbə aldığını göstərdi. Fransa qoşunlarının bu ölkələrdən çıxarılması, yerli ictimai rəydə anti-Fransa ovqatının güclənməsi və yeni siyasi baxış bucağının formalaşması Parisin ənənəvi təsir mexanizmlərinin artıq işləmədiyini ortaya qoyub. "Bir vaxtlar Fransa Afrikada siyasi, hərbi və iqtisadi proseslərə həlledici təsir göstərən aktor hesab olunurdu. Bu gün isə həmin təsir imkanları sürətlə daralır. Bu mənzərə fonunda Azərbaycanın hədəfə çevrilməsi, əslində, daha çox siyasi psixologiya məsələsini xatırladır. Çünki öz təsir imkanlarını itirən güclər çox vaxt uğursuzluqlarının səbəbini kənarda axtarmağa başlayırlar. Azərbaycan isə tam əksinə, son illər beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq öz suverenliyini təmin edib, regionda yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edib və çoxtərəfli diplomatiya vasitəsilə mövqelərini gücləndirib. Xüsusilə 2020-ci ildən sonra yaranmış reallıqlar göstərdi ki, Cənubi Qafqazın gələcəyi region ölkələrinin iştirakı ilə müəyyənləşəcək. Kənardan geosiyasi mühəndislik cəhdləri isə əvvəlki kimi nəticə vermir", - deyə E.Mirzəbəyli əlavə edib.

Deputat bildirib ki, Fransa siyasi dairələrinin Azərbaycana qarşı apardığı kampaniyalar, əslində, Bakıdan daha çox Parisin öz geosiyasi narahatlıqlarını əks etdirir: "Bütün bunlara baxmayaraq, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Azərbaycan xalqı Fransa xalqına qarşı heç vaxt düşmən münasibət bəsləməyib və bu gün də bəsləmir. İki xalq arasında mədəni əməkdaşlıq, humanitar əlaqələr və qarşılıqlı hörmət ənənələri mövcuddur. Problem Fransa xalqı ilə deyil, geosiyasi reallıqları qəbul etmək istəməyən, Ermənistan amilini regional siyasətin mərkəzinə çevirməyə çalışan və öz daxili uğursuzluqlarını xarici düşmən obrazı yaratmaqla kompensasiya etməyə çalışan siyasi dairələrlə bağlıdır. Tarix göstərir ki, beynəlxalq nüfuz qərəzli qətnamələrlə, siyasi kampaniyalarla və ya informasiya hücumları ilə deyil, ardıcıl siyasət, etibarlılıq və beynəlxalq hüquqa hörmətlə qazanılır".

E.Mirzəbəyli sonda qeyd edib ki, Fransa əgər qlobal aktor statusunu qorumaq istəyirsə, ilk növbədə Azərbaycanın deyil, öz siyasətinin yaratdığı problemlərə obyektiv qiymət verməlidir. Əks halda "xarici düşmən" axtarışı Fransanın nə daxili böhranlarını həll edəcək, nə də ona itirilmiş geosiyasi mövqelərini qaytaracaq.

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*



# Bakı və Vaşinqton strateji tərəfdaşlıqda qərarlıdırlar

## Lobbi maraqları və ermənipərəst konqresmenlərin təxribatları Azərbaycan-ABŞ arasında yüksəksəviyyəli münasibətlərə kölgə sala bilməz

**ABŞ Konqresindəki bəzi ermənipərəst şəxslərin regional reallıqları təhrif etmək və ədaləti siyasi maraqlara qurban vermək cəhdləri Azərbaycan vətəndaş cəmiyyətinin kəskin etirazına səbəb olub. Bir qrup QHT rəhbəri, hüquq müdafiəçisi ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinə məktub ünvanlayıb.**

Məktubda konqresmen Brad Şermanın Ruben Vardanyan və digər müharibə cinayətkarlarının azad edilməsi, 907-ci düzəlişin qüvvədə saxlanması tələbi ilə bu komitəyə təqdim etdiyi layihəyə kəskin etiraz bildirilib. Müraciət müəllifləri haqlı olaraq vurğulayıblar ki, erməni lobbisinin təsiri altında olan konqresmen Brad Şermanın azadlığa buraxılmasını tələb etdiyi şəxslər Azərbaycan xalqına qarşı ağır cinayətlər törətmiş, yüz minlərlə insanın köçkün vəziyyətinə düşməsinə səbəb olmuş, mülki infrastrukturun və mədəni irsin dağıdılmasında, soyqırımı, ekosid, urbisid və mədəni qırğın aktlarında birbaşa rol oynamış cinayətkarlardır.

Konqresmenin "siyasi məhbus" kimi qələmə verməyə çalışdığı Ruben Vardanyan Azərbaycanda terroru və separatizmi aşkar formada dəstəkləyən, maliyyələşdirən fiqur olub. Digər separatçı ünsürlər Azərbaycan ərazilərinin 30 illik işğalı dövründə törədilən ağır cinayətlərə birbaşa rəhbərlik etmiş şəxslərdir. Bu şəxslərin müdafiəsi, əslində, terrorun və kütləvi insan hüquqları pozuntularının müdafiəsi deməkdir.

Beynəlxalq hüquqa görə, cinayət hansı ölkənin ərazisində törədilibsə, həmin dövlətin cinayətkarları mühakimə etmək üçün müstəsna hüququ var. Yəni yerli qanunvericiliyə və beynəlxalq hüquqa uyğun olaraq, Azərbaycan tərəfi bu cinayətləri araşdırmaqda və günahkarları mühakimə etməkdə tam ixtiyar sahibidir. Bu mənada Bakıda keçirilmiş məhkəmələr beynəlxalq standartlara tam cavab verən şəffaf proseslərdir. Həmçinin bununla bağlı məhkəmə prosesləri açıq formada aparılıb və təqsirləndirilən şəxslərə vəkil, tərcüməçi və hüquqlarını müdafiə etmək üçün bütün imkanlar yaradılıb.

Məktubda diqqət çəkilən digər qərəzli məqam erməni diasporunun illərdir Azərbaycana qarşı iqtisadi və siyasi alət kimi istifadə etməyə çalışdığı 907-ci düzəlişlə bağlıdır. Ümumiyyətlə, bu mənfur düzəliş beynəlxalq hüququn və tarixi faktların təhrif olunmasının əyani nümunəsidir. ABŞ Konqresi tərəfindən 1992-ci ildə qəbul edilən həmin düzəliş Azərbaycanı Ermənistanı "blokadada saxlamaqda" ittiham edirdi. Əslində isə, təcavüzə məruz qalan Azərbaycana sanksiya tətbiq edərək, işğalçı Ermənistana geniş maliyyə yardımı ayırmaq Qərbin ikili standartlarının təsdiqi idi.

Digər məqam odur ki, bu düzəliş artıq hüquqi və faktiki qüvvəsini itirmiş sayılır. Çünki Azərbaycan 2020-ci ildə öz torpaqlarını işğaldan azad və 2023-cü ildə suverenliyini tam bərpa etməklə regionda tamamilə yeni reallıqların əsasını qoyub. ABŞ-nin keçmiş prezidentləri hər il bu düzəlişin qüvvəsini müvəqqəti dayandıraraq Azərbaycanla təhlükəsizlik və enerji sahəsində əməkdaşlıq ediblər. O üzdən Şermanın bu qadağanı bərpa etmək cəhdi ABŞ-nin regiondakı maraqlarına, tərəfdaşlıq imicinə zərbə vurur.

Konqresin bəzi üzvlərinin qərəzli mövqeyinə rəğmən, rəsmi Vaşinqton Bakı ilə münasibətlərin strateji əhəmiyyətini anlayır. Təsadüfi deyil ki, Prezident Donald Tramp da 907-ci düzəlişin ləğv müddətinin uzadılması haqqında memorandum imzalayıb və dövlətimizin başçısı İlham Əliyev bununla bağlı ABŞ Prezidentinə təşəkkürünü bildirib. Hazırda ədalətsiz düzəlişin tamamilə ləğvi məsələsi Konqresin gündəmindədir. 2025-ci ilin dekabrında ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna 907-ci düzəlişi tam ləğv etməyə yönəlmiş qanun layihəsini təqdim edib. Çünki mövcud regional və qlobal geosiyasi reallıqlar bu qeyri-obyektiv düzəlişin ləğvini tələb edir. Konqres bu qərəzli düzəlişi ləğv etməklə ilk növbədə öz yanlışını aradan qaldıracaq, digər yandan Cənubi Qafqazda sülhə və sabitliyə töhfə vermiş olacaq.

Ən əsası isə Azərbaycan ilə Ermənistanın sülhə və normallaşmaya doğru irəlilədiyi bir dövrdə bu müsbət impulsu sarsıdan təşəbbüslər yolverilməzdir. Cənubi Qafqazda uzun illərdən sonra Azərbaycanla Ermənistan arasında birbaşa, vasitəçisiz sülh müqaviləsinin imzalanması və sərhədlərin delimitasiyası istiqamətində real irəliləyişlər əldə olunub. Belə həssas dönəmdə Brad Şerman kimi ermənipərəst siyasətçilərin separatizmi, terrorçuluğu və müharibə canilərini reabilitasiya etmək cəhdləri, qərəzli düzəlişi qüvvədə saxlamaq təşəbbüsü bölgədə revanşizmi alovlandırır.

Bu cür qeyri-konstruktiv cəhdlər həm də iki ölkə arasında mövcud əlaqələrə kölgə salır. Şermanın təxribatları ABŞ Prezidenti Donald Tramp və onun administrasiyasının Azərbaycanla yüksəksəviyyəli əlaqələrinə, strateji tərəfdaşlıq münasibətlərinin ruhuna ziddir. Prezident Donald Tramp və onun komandası Azərbaycanla enerji təhlükəsizliyi, terrorizmlə mübarizə və regionun sabitliyi kimi məsələlərdə praqmatik, qarşılıqlı maraqlara əsaslanan yüksəksəviyyəli siyasət yürüdür.

İki ölkə arasındakı yüksək etimad və müsbət dinamika dövlət başçıları səviyyəsində mütəmadi olaraq qarşılıqlı şəkildə təqdir edilir. Prezident İlham Əliyevin iyunun 15-də 80 illik yubileyi münasibətilə ABŞ Prezidenti Donald Trampa təbrik məktubu ünvanlaması bunun bariz nümunəsidir. Dövlətimizin başçısı ABŞ-nin Vitse-prezidenti Ceyms Devid Vensin ölkəmizə səfəri çərçivəsində Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasının Azərbaycan-ABŞ münasibətlərini keyfiyyətcə yeni səviyyəyə qaldırdığını bildirib. Bütün bu faktlar fonunda aydın görünür ki, Vaşinqton və Bakı strateji tərəfdaşlıqda qərarlıdır. Bu mənada bəzi konqresmenlərin lobbi və ya maliyyə xatirinə atdığı addımlar, əslində, ABŞ-nin özünün regiondakı milli-strateji maraqlarına və Ağ Evin rəsmi xəttinə ziyan vurur.

Nəticə etibarilə Brad Şerman kimi siyasətçilərin köhnəlmiş alətləri yenidən gündəmə daşıması beynəlxalq hüquqa zidd olmaqla yanaşı, həm də regionda qan tökülməsində maraqlı olan revanşist qüvvələrə verilən təhlükəli dəstək mahiyyəti daşıyır. Lakin təxribatçılar dərk etməlidirlər ki, bu gün Bakı və Vaşinqton arasında qurulan strateji tərəfdaşlıq dərindir və qlobal təhlükəsizliyə xidmət edir. Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyi təmin etməyin yolu regional reallıqları qəbul etməkdən və ədalətli tərəfdaşlıqdan keçir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Azərbaycan ABŞ ilə münasibətlərə qlobal və regional proseslər fonunda mühüm əhəmiyyət verir"

**Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa 80 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubu iki ölkə arasındakı münasibətlərin hazırkı vəziyyəti və gələcək perspektivləri baxımından xüsusi əhəmiyyət kəsb edir. Məktub Azərbaycan-ABŞ münasibətlərinin bugünkü mərhələsinin mahiyyətini dolğun əks etdirir. Burada strateji tərəfdaşlıq, regional sülh, nəqliyyat bağlantıları, iqtisadi əməkdaşlıq və qarşılıqlı etimad kimi vacib istiqamətlər ön plana çıxarılır.**

**Milli Məclisin deputatı Nigar MƏMMƏDOVA** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyev Donald Trampın Bakı-Vaşinqton əlaqələrinin inkişafındakı rolunu xüsusi vurğulayıb və məktubda Azərbaycan-ABŞ əlaqələrinin artıq ənənəvi enerji əməkdaşlığı çərçivəsini aşaraq daha geniş strateji məzmun qazanması önə çəkilir: "Cənab Prezident qeyd edir ki, Ağ Evdə keçirilmiş görüş zamanı əsası qoyulan Strateji Tərəfdaşlıq Xartiyasının ABŞ-nin Vitse-prezidentinin ölkəmizə səfəri çərçivəsində imzalanması münasibətləri keyfiyyətcə yeni pilləyə qaldırıb. Bu isə onu deməyə əsas verir ki, tərəflər əməkdaşlığı iqtisadi və enerji sahələri ilə məhdudlaşdırmaq niyyətində deyil. Təhlükəsizlik, nəqliyyat-logistika, texnologiyalar və investisiyalar da artıq ikitərəfli gündəliyin mühüm elementlərinə çevrilib".

Deputat qeyd edib ki, məktubda regional təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir. Prezident İlham Əliyev ABŞ rəhbərliyinin Azərbaycan-Ermənistan normallaşma prosesinə verdiyi dəstəyi yüksək qiymətləndirib. "Biz Sizə Cənubi Qafqazda sülh gündəliyinin təşviqi naminə göstərdiyiniz qətiyyətə görə də minnətdarıq", - deyən dövlətimizin başçısı Vaşinqtonun regionda daha fəal vasitəçi və tərəfdaş rolunu xüsusi qeyd edib. Məktubda üçtərəfli bəyannamənin və sülh sazişi üzrə əldə olunmuş razılaşmaların Donald Trampın "ardıcıl səylərinin nəticəsi" kimi təqdim edilməsi də diqqət çəkir.



N.Məmmədova bildirib ki, xüsusi yer ayrılan məsələlərdən biri də Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında bağlantının təmin olunması və onun Orta dəhlizin tərkib hissəsinə çevrilməsidir: "Prezident İlham Əliyev bu layihəni regionda sülh və əməkdaşlığa xidmət edən təşəbbüs kimi təqdim edir. Bu yanaşma Azərbaycanın son illər həyata keçirdiyi nəqliyyat və logistika siyasətinin beynəlxalq dəstək qazandığını göstərir. Bu, həm də o deməkdir ki, Şərqlə Qərbi birləşdirən əsas tranzit mərkəzlərindən biri kimi rəsmi Bakının mövqeyi daha da möhkəmlənməkdədir. ABŞ ilə əməkdaşlıq isə bu prosesə töhfə verir. Məktubda dövlət başçıları arasındakı şəxsi münasibətlərə də xüsusi toxunulur. Məlum olduğu kimi, müasir beynəlxalq münasibətlər sistemində liderlər arasında şəxsi etimadın dövlətlərarası əlaqələrin inkişafına böyük təsiri var. Bu məqamın vurğulanması Bakı ilə Vaşinqton arasında siyasi dialoqun həm də liderlərin münasibəti nöqteyi-nəzərindən yüksək səviyyədə olduğunu göstərir".

Deputat vurğulayıb ki, Azərbaycan ABŞ ilə münasibətlərə qlobal və regional proseslər fonunda mühüm əhəmiyyət verir: "Eyni zamanda Vaşinqton da Cənubi Qafqazda sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat-kommunikasiya layihələri baxımından Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir. Bu əməkdaşlığın eyni templə davam etməsi hər iki tərəfin marağındadır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Dönüşü olmayan qəhrəmanlıq yolu

## Mübarizəmizin nümunəsi olan Mübariz 16 il öncə özünə əbədiyyət qazanıb

**Zaman-zaman cəsur oğullarımız Vətən uğrunda böyük cəsarət və hünər göstərmişlər. Ölümün gözünün içinə dik baxa-baxa şəhidlik zirvəsinə yüksəlmişlər. Qəhrəmanlıqları ilə onu tanıyan və tanımayanları heyran qoymuşlar. Belə cəsur, igid oğullarımızdan biri də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovdur. Onu uşaqdan tutmuş böyüyə qədər hamı tanıyır, xatirəsi qarşısında baş əyir. Mübarizin ılıq bir yaz gecəsində cəbhədə göstərdiyi qəhrəmanlıq zaman durduqca yaşayacaq. Xalqımız belə cəsur oğulları ilə həmişə fəxr edib qürur duyacaq.**



Mübariz İbrahimovun ölümü, şəhidliyi şüurlu şəkildə qəbul etmiş müqəddəs bir ölümdür. Necə deyərlər, həyat qədər dəyərli bir ölümdür. Tərəddüd etmədən demək olar ki, Mübariz İbrahimov zəmanəmizin əsl qəhrəmanlıq, igidlik və cəsurluq simvoludur. Mübariz vətənimizin işıqlı sabahları, aydın səmaları üçün döyüşdü, bu yolda canını əsirgəmədi. Rəşadəti, hünəri ilə düşmənlərə meydan oxudu, canlarına qorxu saldı. Azərbaycan əsgərinin necə də qəhrəman, igid olduğunu erməni qəsbkarlarına göstərdi.

Demək olar ki, Mübariz İbrahimov Qarabağ müharibəsi ilə həmyaşıd idi. Dünyanı sarsıdan Xocalı faciəsi baş verəndə Mübariz 4 yaşın içindəydi. Məktəbdə Xocalı faciəsindən inşa yazar, vətənpərvərlik mövzusunda keçirilən tədbirlərdə iştirak edər, televiziyada erməni vəhşiliklərini əks etdirən kadrlara baxardı. Bütün bunlar onun körpə qəlbində erməni işğalçılarına qarşı nifrət və qisas hissi oyadardı.

Qəhrəmanlığı ilə dünyanı heyran qoyan Mübariz İbrahimov valideynlərinin ona qoyduğu adı doğrultdu. Zərrə-zərrə qanına hopan vətənpərvərlik ruhu onu qəhrəmanlığa, mübarizliyə səslədi. Onun üçün Vətən hər şeydən üstün, hər şeydən dəyərli və uca idi. Yaxınlarının danışdıqlarına görə, hər dəfə sevgidən söz düşəndə deyərmiş ki, mənim vurğunu olduğum Vətəndir! Vətən torpağı düşmən tapdağındadır, onu erməni işğalçılarından azad etməliyik, qəsbə son qoymalıyıq. "Mən yolumu seçmişəm. Düşməndən ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz. Vətənin azadlığı üçün qurban lazımdırsa, biri mən..."

18 iyun 2010-cu ildə gecənin qaranlığında Tərtər rayonunun Çaylı kəndi yaxınlığında ön xətdə xidmət edən, yurdunun torpağını göz bəbəyi kimi qoruyan gizir Mübariz İbrahimov həmişə arzusunda olduğu, xəyalını qurduğu qəhrəmanlıq yoluna çıxdı. İllərdən bəri torpaqlarımızı işğalda saxlamış Ermənistan ordusunun üstünə təkbaşına getdi. Yaxşı bilirdi ki, bu yol müqəddəsdir, bu yolun gedişi var, dönüşü yoxdu. Ürəyində erməni işğalçılarına qarşı qisas hissi dolub-daşırdı. Bu hiss ona güc verirdi, addım-addım qəhrəmanlığa, igidliyə doğru aparırdı. Düşmən qüvvələrinin yerləşdiyi məntəqəyə çatmaq üçün qarşıda xeyli yol var idi. Hələ minalanmış sahəni də keçməliydi. Nə qədər çətin və təhlükəli olsa da, Mübariz qarşısına qoyduğu missiyanı yerinə yetirdi. Elə birinci həmlədə Ermənistan silahlı qüvvələrinin xeyli sayda əsgər və zabitini məhv etdi. Qəsbkarların canına vəlvələ saldı. Beş saatdan çox işğalçılarla təkbaşına döyüşdü. Düşməni ağır itkilərə məruz qoydu, məqsədinə çatdı. Özü də qəhrəmancasına şəhid oldu.

Deyirlər ki, Mübariz qışda doğulsa da, baharı, yazı çox sevərmiş. Bu dünyada iyirmi iki bahar yaşadı. Bəlkə də taleyin qismətindən idi ki, şəhidlik zirvəsinə qovuşanda da bahar fəsli idi. Yayın gəlməsinə günlər qalırdı. Kim bilir, bəlkə də elə bunu özü seçmişdi. Çox illər ötəcək, çox zamanlar dəyişəcək. Amma Mübariz elə 22 yaşında da qalacaq. Gələcək və keçəcək zaman heç nəyi dəyişməyəcək. Çünki şəhidlər ölməzdir, əbədiyaşardır.

Qəhrəmanın ömür yoluna nəzər salanda öyrəndik ki, Mübariz İbrahimov 7 fevral 1988-ci ildə Biləsuvar rayonunun Əliabad kəndində dünyaya göz açıb. Körpənin adını Mübariz qoyublar. Deyilənə görə, daşıdığı adın insan taleyində təsiri, rolu az olmur. Mübariz uşaqlıqdan çalışqan, mübariz idi. O, şəhid M. Piriyev adına orta məktəbdə təhsil alıb. Oxuya-oxuya idmana da maraq göstərib, boksla məşğul olub. 2005-ci ildə isə hərbi xidmətə çağırılıb. Mübariz bu çağırışı toy-bayram kimi qəbul edib, ordu sıralarına böyük fərəhlə yollanıb. Daxili Qoşunların hərbi hissələrinin birində, xüsusi təyinatlı bölükdə xidmət edib. Çavuş rütbəsi ilə əsgəri xidmətini başa vurub. 2009-cu ildə ordu sıralarında xidmətə başlayıb. Sınaqlardan uğurla keçərək gizir rütbəsi alıb. Beləcə, onun qəhrəmanlığa gedən yollarına ilk kərpiclər döşənib.

Şəhid olduqdan bir müddət sonra Mübarizin ölümündən əvvəl doğmalarına yazdığı məktub üzə çıxıb. Onun valideynlərinə yazdığı məktubda oxuyuruq: "Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim... Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Prezident İlham Əliyev qəhrəmanla vida mərasimindəki nitqində onun əbədiyyət yolçuluğunu yüksək qiymətləndirərək demişdir: "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir... Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar vardır... Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur və şəhidlərimizin qəhrəmanlığı bunu bir daha sübut edir".

Prezident İlham Əliyevin 22 iyul 2010-cu il tarixli sərəncamı ilə gizir Mübariz Ağakərim oğlu İbrahimova göstərdiyi şücaətə və cəsarətə görə, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu ilin iyununda cəbhə xəttində təkbaşına göstərdiyi qeyri-adi qəhrəmanlığın üstündən illər keçsə də, onun igidliyi xarici medianın, xüsusilə də Rusiyanın rəqəmsal platformalarının diqqət mərkəzindədir. Məşhur "Doktor Nova" layihəsinin hazırladığı sənədli materialda rusiyalı aparıcı 18 iyun 2010-cu ilin gecəsində baş verənləri diqqət və heyranlıqla tamaşaçılarına çatdırır. Həmin videoda Mübariz İbrahimovun addımlarını ardıcıllıqla təhlil edir. O, 22 yaşlı gənc bir əsgərin kimsədən dəstək almadan, gecənin qaranlığında bir kilometrlik minalanmış sahəni və müşahidə postlarını necə böyük ustalıqla keçdiyini vurğulayır. Onun qəhrəmanımız haqqında işlətdiyi iftixar dolu ifadələr diqqətimizi özünə çəkir: "O, düşmən səngərində təkbaşına elə bir döyüş aparırdı ki, sanki "Rembo" filminin kadrları canlanırdı. Amma bir fərqlə - bu gecə hər şey tamamilə gerçək idi. Düşmən qarşısında neçə nəfərin olduğunu anlaya bilmirdi, bütün ordu xaosa düşmüşdü. Halbuki onların hamısına qarşı vuruşan cəmi bir nəfər idi". Müəllif materialda döyüşün gedişatı ilə yanaşı, Mübarizin düşmən üzərində yaratdığı psixoloji üstünlüyü və qorxunu da önə çəkir. Rəsmi məlumatlara istinad edilərək, Mübarizin təkbaşına 45 düşmən hərbçisini zərərsizləşdirdiyi, silahı və patronu bitdikdə isə qarşı tərəfin silahlarını ələ keçirərək döyüşü səhərə qədər davam etdirdiyi vurğulanır. Şərhçinin düşmənin Mübarizin cansız bədənindən belə qorxması faktını qabarıq şəkildə ifadə edir: "Qarşı tərəf bu gənc əsgərdən elə qorxurdu ki, o, şəhid olduqdan sonra belə əllərini bağlamışdılar. Sanki onun hər an yenidən ayağa qalxa biləcəyindən vahimələnirdilər".

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adının əbədiləşdirilməsi üçün həm ölkəmizdə, həm də onun hüdudlarında bir sıra önəmli işlər görülüb. Biləsuvar şəhərində lisey-məktəb kompleksinə və küçəyə M.İbrahimovun adı verilib. 2010-cu ildə Eldar Məmmədovun rejissorluğu ilə M.İbrahimova həsr edilən "Müqəddəs zirvə" adlı film çəkilib. 2011-ci ildə "Palmali" şirkətinin Türkiyədə hazırladığı yük gəmisi onun şərəfinə "Mübariz İbrahimov" adlandırılıb. Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfənglərindən biri qəhrəmanın şərəfinə "Mübariz" adlandırılıb. 2016-cı ildə Sumqayıtdakı küçələrdən birinə onun adı verilib. Həmin il Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Mübariz İbrahimovun heykəli ucaldılıb.

Türkiyənin TRT 1 kanalında nümayiş etdirilən "Sakarya Fırat" və 2014-cü ildə yayımlanan "Qızıl alma" adlı seriallarda M.İbrahimovun qəhrəmanlığına geniş yer ayrılıb. 2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə M.İbrahimovun adına xatirə lövhəsi vurulub. Təbiidir ki, bu hələ son deyil. İnanırıq ki, bundan sonra da ölkəmizin ərazisindəki küçələrə, məktəblərə qəhrəmanın adı veriləcək, abidəsi ucaldılacaq. Mübarizin adı ürəklərdə və qəlblərdə əbədi olaraq yaşayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



# Azərbaycan-Vatikan münasibətləri mənəvi dəyərlər və qarşılıqlı etimad üzərində qurulub

**Azərbaycan Prezidenti İlham Əliyevin iyunun 16-da Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Kardinal Corc Ceykob Kuvakadı qəbul etməsi ölkəmizlə Vatikan arasında inkişaf edən münasibətlərin növbəti mühüm təzahürü kimi diqqət çəkir.**

Görüş zamanı iki tərəf arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri, dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi, həmçinin qlobal çağırışlar fonunda birgə fəaliyyət imkanları müzakirə edildi.

Əslində, Azərbaycan-Vatikan münasibətləri adi diplomatik əlaqələrdən daha genişdir. Bu münasibətlər müxtəlif dinlərə, mədəniyyətlərə və sivilizasiyalara mənsub xalqlar arasında qarşılıqlı hörmətin, etimadın və humanist dəyərlərin təcəssümüdür. Məhz buna görə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında formalaşan əməkdaşlıq modeli bu gün beynəlxalq aləmdə dinlərarası dialoqun uğurlu nümunələrindən biri kimi qiymətləndirilir.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra dövlət-din münasibətlərinin sağlam əsaslar üzərində qurulması və ölkəmizin tolerantlıq ənənələrinin beynəlxalq miqyasda tanıdılması Ümummilli Lider Heydər Əliyev siyasətinin mühüm istiqamətlərindən biri idi. Ulu Öndər bilirdi ki, müxtəlif xalqların və dinlərin nümayəndələrinin əsrlər boyu mehriban yaşadığı Azərbaycan dünyaya məhz bu model vasitəsilə nümunə ola bilər. Odur ki, Ümummilli Liderin rəhbərliyi dövründə dini etiqad azadlığının təmin olunması, dini icmaların fəaliyyətinə şərait yaradılması və milli-mənəvi dəyərlərin qorunması istiqamətində mühüm addımlar atıldı. Azərbaycan ilə Vatikan arasında münasibətlərin inkişafı da məhz həmin dövrdə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin siyasi uzaqgörənliyi sayəsində iki tərəf arasında etimad mühiti formalaşdı və sonrakı illər bu münasibətlər daha da dərinləşdi.

Azərbaycan-Vatikan münasibətlərinin tarixində ən mühüm hadisələrdən biri 2002-ci ilin mayında Roma Papası II İoann Pavelin Bakıya səfəri oldu. Bu səfər təkcə iki dövlət arasındakı münasibətlər baxımından deyil, həm də Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi kimi böyük əhəmiyyət daşıyırdı. Dünyanın nüfuzlu dini liderlərindən biri hesab olunan Roma Papasının Azərbaycana gəlməsi ölkəmizdə mövcud olan tolerantlıq mühitinə verilən yüksək qiymət idi.

Səfər çərçivəsində Papa II İoann Pavel ilə Prezident Heydər Əliyev arasında keçirilən görüşlərdə dinlərarası dialoq, beynəlxalq sülh, mədəniyyətlərarası əməkdaşlıq və humanitar məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Papa çıxışlarında Azərbaycanın müxtəlif dinlərin nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yaşadığı ölkə olduğunu vurğulayaraq ölkəmizin bu sahədəki təcrübəsini yüksək qiymətləndirirdi. Bu səfərdən sonra Azərbaycan-Vatikan münasibətləri daha da intensiv xarakter aldı və əməkdaşlıq yeni istiqamətlər üzrə genişləndi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan-Vatikan münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlib. Bakıda keçirilən Beynəlxalq Humanitar forumları, Dünya Dini Liderlərinin Zirvə görüşləri, Mədəniyyətlərarası Dialoq forumları və digər beynəlxalq tədbirlər ölkəmizin bu istiqamətdəki rolunu daha da gücləndirib. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır: "Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük sərvətimizdir".

Bu fikir Azərbaycan reallığının ifadəsidir. Ölkəmizdə müsəlmanlarla yanaşı, xristianlar, iudistlər və digər dini icmalar sərbəst fəaliyyət göstərir, onların ibadət yerləri dövlət tərəfindən qorunur və bərpa edilir. Dövlətimizin başçısının digər bir fikri isə Azərbaycanın bu sahədəki fəlsəfəsini aydın şəkildə ortaya qoyur: "Multikulturalizm Azərbaycanda dövlət siyasəti olmaqla yanaşı, həyat tərzidir". Bu siyasət nəticəsində ölkəmiz bu gün dünyada dini tolerantlığın uğurlu modellərindən biri hesab edilir.

Azərbaycan-Vatikan münasibətlərindən danışarkən Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fond uzun illərdir Vatikanla uğurlu əməkdaşlıq edir. Vatikan Muzeyində saxlanılan bir sıra tarixi eksponatların bərpası, Müqəddəs Pyotr Bazilikasının katakombalarının restavrasiyası, Romada müxtəlif tarixi-mədəni irs nümunələrinin qorunmasına verilən dəstək beynəlxalq aləmdə böyük rəğbətlə qarşılanıb. Bu layihələrin mühüm xüsusiyyəti ondan ibarətdir ki, Azərbaycan müsəlman ölkəsi kimi başqa dinə aid müqəddəs abidələrin qorunmasına töhfə verir. Bu isə ölkəmizin sivilizasiyalararası dialoqa verdiyi real töhfənin göstəricisidir. Təsadüfi deyil ki, Vatikan rəsmiləri dəfələrlə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirərək həmin qurumu mədəniyyətlər və dinlər arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edən nümunəvi fəaliyyət adlandırıblar.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan haqq işini beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həll etdiyi zaman da Müqəddəs Taxt-Tac regionda sülhün və sabitliyin bərqərar olmasının vacibliyini vurğulayaraq münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinin tərəfdarı olduğunu bildirdi. Müharibədən sonra Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi genişmiqyaslı bərpa-quruculuq işləri, o cümlədən dini-mədəni irsin bərpası Vatikan tərəfindən də maraqla izlənildi. Bu gün Qarabağda təkcə məscidlər deyil, xristian dini abidələri də bərpa olunur. Azərbaycan bununla bütün dini irsə bərabər münasibət nümayiş etdirir və dünyaya tolerantlığın praktik modelini təqdim edir. İşğal dövründə dağıdılmış məscidlərin, qəbiristanlıqların və tarixi abidələrin bərpası ilə yanaşı, xristian irsinin qorunmasına da xüsusi diqqət yetirilməsi Azərbaycanın humanist yanaşmasının göstəricisidir.

Kardinal Corc Ceykob Kuvakadın Bakıya səfəri və Prezident İlham Əliyev tərəfindən Roma Papası XIV Leona ünvanlanmış dəvət məktubunun təqdim edilməsi göstərir ki, Azərbaycan-Vatikan münasibətləri yeni inkişaf mərhələsinə daxil olur. Bu münasibətlər artıq yalnız ikitərəfli əlaqələr çərçivəsində deyil, qlobal miqyasda sülhün, qarşılıqlı anlaşmanın və humanitar əməkdaşlığın təşviqi baxımından da mühüm əhəmiyyət kəsb edir. Müasir dünyanın üzləşdiyi dini ekstremizm, dözümsüzlük, separatizm və sivilizasiyalararası qarşıdurma kimi təhlükələr fonunda Azərbaycan ilə Vatikanın ortaq mövqeyi xüsusi əhəmiyyət daşıyır. Hər iki tərəf dialoqun, qarşılıqlı hörmətin və humanizmin alternativsiz yol olduğunu müdafiə edir.

Bu gün Azərbaycan-Vatikan münasibətləri qarşılıqlı etimada, hörmətə və ortaq mənəvi dəyərlərə əsaslanan tərəfdaşlıq nümunəsidir. Həmin münasibətlərin təməlində Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət siyasəti və Heydər Əliyev Fondunun həyata keçirdiyi mühüm humanitar layihələr dayanır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın "yaşıl" hədəfi

## Bu sahədə görülən işlərin dinamikası tezliklə ona çatacağımızı göstərir

**Ölkəmizin "yaşıl enerji" mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavat təşkil edir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Çünki bu regionlar da bərpaolunan enerji mənbələri ilə zəngindir. Qarabağ və Şərqi Zəngəzurda həmin resursların texniki potensialı 10 qiqavat, Naxçıvanda isə 5 qiqavat həcmində qiymətləndirilir.**



Təbiətin yurdumuza günəş işığından verdiyi bol payı indi insan zəkası elektrik enerjisinə çevirir. Xəzər dənizinin külək enerjisi işığımızı daha da artırır. Dağlıq bölgələrimizin küləyi də elektrik enerjisi mənbəyidir. Azərbaycan bu enerji mənbələrinə xüsusi önəm verir və həmin istiqamətdə genişmiqyaslı işlər aparır. Bu isə deməyə əsas verir ki, ölkəmizin gələcək inkişaf modelində bərpaolunan enerji mənbələrinin rolu böyük olacaq. Ona görə də indi əsas məqsəd həmin təbii imkanlarımızdan maksimum istifadə etməkdir.

Məlum olduğu kimi, 2030-cu ilədək Azərbaycanın enerji balansında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması nəzərdə tutulmuşdu. Lakin hazırkı inkişaf dinamikası göstərir ki, bu rəqəm 34-38 faizə qədər yüksələ bilər. Bu barədə SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) vitse-prezidenti Əfqan İsayev İslam İnkişaf Bankı (İİB) Qrupunun 51-ci İllik Toplantıları çərçivəsində keçirilən "Azərbaycanın "yaşıl keçid"inin sürətləndirilməsi: Bərpaolunan enerji investisiya üçün cəlbedici imkan kimi" adlı sessiyada çıxış edərkən bildirib.

Qeyd edildiyi kimi, sözügedən istiqamətdə aparılan işlər və qazanılan uğurlar belə proqnoz səsləndirməyə əsas verir. Həmin işlərə bir daha nəzər salaq.

2023-cü il oktyabrın 26-da Bakıda 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası işə salınıb. Bu, ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal olunmaqla 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

Birləşmiş Ərəb Əmirliklərinin "Qaradağ"ı tikən "Masdar" şirkəti ilə sıx əməkdaşlıq əlaqələrimiz yaranıb. Hazırda bir sıra yeni layihələr də gerçəkləşməkdədir. Məsələn, 2024-cü il iyunun 4-də "Bakı Enerji Həftəsi" çərçivəsində Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd əl-Cabir Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və "Abşeron-Qaradağ" Külək-Elektrik Stansiyasının təməlini qoymuşlar. İndi bu layihələr öz icrasının müxtəlif mərhələlərindədir.

Bu il yanvarın 8-də isə Prezident İlham Əliyevin iştirakı ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirildi.

Bu stansiyanın tikintisi üçün Abşeron rayonunda 14,2, Xızı rayonunda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi müəyyən edilib. Layihə üzrə burada hər biri 6,5 MVt olan ümumilikdə 37, o cümlədən Abşeronda 12, Xızıda 25 turbin, həmçinin ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri quraşdırılıb. Layihənin icrasına təxminən 340 milyon dollar xarici investisiya yönəldilib. Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Layihənin baş podratçısı Çinin "Power China Group"un törəmə şirkəti olan "Power China Huadong Engineering Co., Ltd."dir.

Beləliklə, artıq Çin şirkətləri də Azərbaycanın bərpaolunan enerji layihələrinə qoşulublar. Prezident İlham Əliyevin keçən ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığı əhatə edən çoxsaylı sənədlər imzalanıb. Təkcə "yaşıl enerji"yə aid imzalanan sənədlərin sayı 6 idi. O cümlədən Energetika Nazirliyi, "Power China Resources Limited" və "SOCAR Green" arasında 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış icra müqaviləsi mübadilə edilib. Stansiyanın 2028-ci ildə istismara verilməsi planlaşdırılır və obyektdə illik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu, ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir.

Ölkəmizdə ən böyük günəş-elektrik stansiyasını isə 30 ildən çoxdur qlobal neft, qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkəti tikir. Bu, 240 meqavat gücündə olan "Şəfəq" Günəş-Elektrik Stansiyasıdır. Şəfəq" layihəsi Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, Səngəçal terminalı "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək. "Şəfəq"in bir özəlliyi də ondadır ki, o, işğaldan azad edilmiş Cəbrayıl rayonunda tikilir.

İşğaldan azad edilmiş ərazilərdən söz düşmüşkən qeyd edək ki, Prezident İlham Əliyev cari il yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində "Qozlukörpü" Su-Elektrik Stansiyasının açılışını etdi və beləliklə, Qarabağ və Şərqi Zəngəzurda bu cür enerji obyektlərinin sayı ümumilikdə 40-a çatdı.

Məhz bütün bunlara əsaslanaraq SOCAR 2030-cu ilədək ölkənin enerji balansında bərpaolunan enerjinin payının 38 faizə çata biləcəyini bəyan edir. Bildirilir ki, Azərbaycanın enerji gələcəyini xarakterizə edən əsas anlayış diversifikasiyadır. Biz neft və qaz ixracını davam etdirməklə yanaşı, enerji portfelimizi bərpaolunan enerji mənbələri hesabına genişləndiririk.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# İslam maliyyəsinin mahiyyəti dəyişmir

## İslam İnkişaf Bankının Bakıda keçirilən 51-ci İllik Toplantılarında da əsas müzakirə mövzusu halal iqtisadiyyatdır

**Halal iqtisadiyyat son illər qlobal maliyyə və ticarət sistemində sürətlə inkişaf edən mühüm istiqamətlərdən birinə çevrilib. İslam prinsiplərinə əsaslanan bu iqtisadi model yalnız dini qaydalarla məhdudlaşmır, həm də etik, şəffaf və sosial ədalətə söykənən bir yanaşma təqdim edir. "Halal iqtisadiyyat" anlayışı istehsaldan tutmuş maliyyə xidmətlərinə, ticarətdən turizmə qədər geniş bir sahəni əhatə edir və müsəlman ölkələri ilə yanaşı, müsəlman olmayan digərlərində də maraqla qarşılanır. Bu gün qlobal halal bazarın genişlənməsi bu sektorun iqtisadi əhəmiyyətini daha da artırır və onu iqtisadi sistemin vacib tərkib hissəsinə çevirir.**

Halal iqtisadiyyat bir sıra əsas prinsiplərə söykənir. Bunlardan ən mühümü faiz qadağasıdır. İslam iqtisadi sistemində pulun öz-özünə artması deyil, real fəaliyyət nəticəsində qazanc əldə edilməsi qəbul edilir. Mənbəyi məlum olmayan və qumar xarakterli əməliyyatlar qadağandır. Bu sistemdə ədalət və şəffaflıq mühüm rol oynayır. Tərəflər arasında ədalətli bölgü və müqavilələrin açıq şəkildə bağlanması iqtisadi münasibətlərin əsasını təşkil edir.

Halal iqtisadiyyat yalnız bank və maliyyə sektorunu deyil, bir çox sahələri əhatə edir. Halal qida sənayesi bu sistemin ən geniş yayılmış hissəsidir və məhsulların istehsalından satışına qədər bütün mərhələləri əhatə edir. Bundan əlavə, halal turizm sektoru da sürətlə inkişaf edir. Bu sahədə müsəlman turistlərin dini dəyərlərinə uyğun xidmətlər göstərilir. Halal maliyyə və bankçılıq isə faizsiz əməliyyatlara əsaslanaraq investisiya və kredit xidmətləri təqdim edir. İslam sığortası sistemi də bu iqtisadi modelin mühüm hissəsidir.

Halal iqtisadiyyatın inkişafında halal investisiyalar mühüm rol oynayır. Bu investisiyalar islam prinsiplərinə uyğun olaraq haram hesab edilən sahələrdən, məsələn, donuz məhsulları, spirtli içkilər və digər dini baxımdan qadağan olunmuş fəaliyyətlərdən uzaq olmalıdır. Həmin investisiya yanaşması yalnız sahə seçimi ilə məhdudlaşmır, həm də maliyyə əməliyyatlarının mahiyyətini müəyyən edir və beləliklə də halal iqtisadiyyatın əsasını təşkil edən maliyyə prinsiplərinə keçid yaradır. Ona görə də halal maliyyə sistemi ənənəvi bank sistemindən fərqli olaraq faizsiz işləyir və qazanc real ticarət, investisiya və ya layihələr üzərindən formalaşır. Bu prinsiplərin praktik şəkildə həyata keçirilməsi və qlobal miqyasda yayılması isə müxtəlif beynəlxalq maliyyə institutlarının fəaliyyəti ilə daha da güclənir. İslam İnkişaf Bankı Qrupu (İİB) bu sahədə mühüm rol oynayan əsas qurumlardandır. Bu bank islam maliyyə prinsiplərinə uyğun layihələri dəstəkləməklə yanaşı, halal iqtisadiyyatın genişlənməsinə və müxtəlif ölkələrdə dayanıqlı inkişafın təmin olunmasına töhfə verir. Halal investisiya təkcə dini uyğunluq deyil, həm də qlobal miqyasda etibarlı iqtisadi əməkdaşlığın vacib dayaqlarından birinə çevrilir.

Bu kontekstdə İİB Qrupunun illik toplantıları xüsusi əhəmiyyət daşıyır. Həmin toplantılar üzv ölkələr arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi, yeni investisiya imkanlarının müzakirəsi və halal maliyyə sisteminin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm platforma rolunu oynayır. Qeyd edək ki, bu il İİB Qrupunun 51-ci İllik Toplantısı Bakı şəhərində keçirilir. İyunun 16-dan işə başlayan Toplantıların ilk günü yüksəksəviyyəli müzakirələrlə yadda qalıb. Tədbir çərçivəsində keçirilən 14-cü Özəl Sektor Forumu xüsusilə halal iqtisadiyyatın inkişafı, etik və dayanıqlı maliyyələşdirmə, kiçik və orta bizneslərin (KOB) "yaşıl keçid"i, regional inteqrasiya və investisiya imkanları kimi mühüm mövzular ətrafında geniş fikir mübadiləsinə platforma yaradıb. Eyni zamanda İİB Qrupuna daxil olan bir sıra təşkilatların idarəetmə orqanlarının iclasları da keçirilib.

"Dayanıqlı rifah naminə regional inteqrasiya" mövzusuna həsr olunan bu mötəbər tədbir İİB Qrupa üzv ölkələrin yüksəkvəzifəli nümayəndələrini, dövlət və özəl sektor təmsilçilərini, eləcə də beynəlxalq maliyyə institutlarının təmsilçilərini bir araya gətirib. Müzakirələrdə regional əməkdaşlığın gücləndirilməsi və ortaq inkişaf hədəflərinə nail olunması əsas istiqamətlərdən biri kimi ön plana çıxıb. 51-ci İllik Toplantıları çərçivəsində İİB-nin Halal İqtisadiyyat Liderlik Forumu (HELF) və Azərbaycan Halal Biznes Forumu 2026 (AZHAB Forum) birgə təşkil olunub. "Davamlı regional inteqrasiya üçün halal iqtisadiyyat" mövzusuna həsr olunmuş HELF/AZHAB Forumu İİB Qrupunun İllik Toplantılarının tərkib hissəsi olan 14-cü Özəl Sektor Forumu (PSF 2026) çərçivəsində təşkil edilib. Tədbir çərçivəsində 8-ci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqu - "Dayanıqlı İnkişaf üçün İnnovativ Maliyyələşdirmə" və regional inteqrasiyaya həsr olunmuş sessiyalar da bu qəbildəndir.

Qeyd olunan mövzular ətrafında aparılan müzakirələr halal iqtisadiyyatın regional əməkdaşlıq və dayanıqlı inkişaf proseslərində artan rolunu bir daha nümayiş etdirir. Bu çərçivədə İİB Qrupunun 51-ci İllik Toplantıları zamanı keçirilən digər mühüm sessiyalar da çox əhəmiyyətlidir. Sessiyalar yalnız müzakirələrlə məhdudlaşmayıb, həm də tədbirin iqtisadi nəticələrinin miqyasını ön plana çıxarıb və konkret investisiya razılaşmalarının formalaşmasına zəmin yaradıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Özəl Sektor Forumunun (PSF 2026) açılışında çıxış edərək bildirib ki, bu tədbirlər böyük İllik Toplantının yaddaqalan və məhsuldar keçirilməsi məqsədilə yüksək peşəkarlıqla təşkil olunub. Gözlənilən investisiya razılaşmaları fonunda tədbirin praktiki nəticələri və ölkənin investisiya mühitinə dair səslənən fikirlər də xüsusi diqqət çəkib. O, Azərbaycanın investisiya baxımından cəlbedici ölkə olduğunu xüsusi vurğulayıb. Azərbaycan ilə İİB Qrupu arasındakı uzunmüddətli əməkdaşlığa toxunan nazir 1992-ci ildən bəri formalaşan tərəfdaşlığın qarşılıqlı etimad və ortaq prioritetlər üzərində qurulduğunu qeyd edib: "Bu əməkdaşlıq xüsusilə özəl sektorun inkişafı, ticarət maliyyələşdirilməsi, infrastruktur layihələri, kiçik və orta sahibkarlığın dəstəklənməsi, "yaşıl keçid" və rəqəmsal transformasiya kimi sahələri əhatə edir. Bu istiqamətlər həm də Azərbaycanın milli iqtisadi inkişaf strategiyasının əsas prioritetləri ilə üst-üstə düşür".

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov isə İİB Qrupunun 51-ci İllik Toplantıları çərçivəsində təşkil olunan Azərbaycan Halal Biznes Forumunun (AZHAB Forum) xüsusi sessiyasında çıxışı zamanı deyib ki, Azərbaycan halal iqtisadiyyatın inkişafını mühüm iqtisadi imkan kimi qiymətləndirir, bu istiqamətdə biznes və investisiyalar üçün əlverişli mühit formalaşdırır. Halal iqtisadiyyatın gələcəyi yalnız bazarların böyüməsi ilə deyil, həm də tərəfdaşlıqların möhkəmliyi ilə müəyyən olunur. Birgə səylər nəticəsində halal dəyər zəncirlərini gücləndirmək, investisiyaları artırmaq, ticarəti genişləndirmək və üzv ölkələrdə rifahın yüksəlməsinə töhfə vermək mümkündür.

Əslində, bu cür yüksəksəviyyəli beynəlxalq müzakirələr və irihəcmli investisiya razılaşmaları Azərbaycanın iqtisadi inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Xüsusilə halal iqtisadiyyatın təşviqi, dayanıqlı maliyyə modellərinin genişləndirilməsi və özəl sektorun gücləndirilməsi ölkənin qlobal iqtisadi sistemdə mövqeyini daha da möhkəmləndirir. Bu baxımdan Azərbaycan, həm regional inteqrasiya proseslərində fəal iştirak edən, həm də halal maliyyə və investisiya platformalarının inkişafına töhfə verən mühüm mərkəzlərdən birinə çevrilməkdədir.

Təəssüf ki, halal iqtisadiyyatın inkişafına baxmayaraq, hazırda bəzi çətinliklər də mövcuddur. Müxtəlif ölkələrdə qanunvericilik fərqləri bu sistemin tam inteqrasiyasını çətinləşdirir. Üstəlik, halal maliyyə haqqında maarifləndirmənin az olması və standartların tam vahid olmaması da inkişafı yavaşladan amillərdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dünya Çempionatı - 2026

## Almaniya millisi dəhşət yaşadı

**Dünya çempionatında çıxış edən Almaniya yığmasının məşqi zamanı hər kəsi qorxuya salan gözlənilməz hadisə baş verib.**

Şimali Karolinada keçirilən məşq prosesində yaşıl meydana zəhərli "misbaş" (copperhead) ilanının peyda olması səbəbindən almanların hazırlığı qısa müddətə dayandırılıb.



Komanda kapitanı Coşua Kimmix məşhur BILD nəşrinə verdiyi açıqlamada hadisəni təsdiqləyərək komandadakı gərgin anlardan danışıb. Təcrübəli yarımmüdafiəçi ilanın zəhərli olduğunu bildirib. Almaniyada bu dərəcədə təhlükəli heyvanlarla rastlaşmadıqlarını vurğulayan Kimmix düşərgədə artıq hamının daha diqqətli və ehtiyatlı davranmağa çalışdığını deyib.

## İspaniya və Kabo-Verde oyununda bukmeker şübhələri

**Dünya çempionatının H qrupunda İspaniyanın Kabo-Verde ilə qolsuz heç-heçə etməsi futbol dünyasını sarsıdıb. Bu nəticə turnirin ən böyük sensasiyası olmaqla yanaşı, həm də sosial şəbəkələrdə çox ciddi mübahisələrə və şübhələrə yol açıb.**

Sosial şəbəkələrdə azarkeşlər və idman ekspertləri bu hesabın arxasında bukmeker şirkətlərinin dayandığı barədə iddialar irəli sürürlər.

Oyundan əvvəl İspaniyanın qələbəsinə astronomik məbləğdə pullar qoyulmuşdu, "böyük üçlük" hesab edilən "Buğalar"ın xal itirməsi isə inanılmaz dərəcədə yüksək əmsalla qiymətləndirilirdi. İspaniyanın meydana aşkar favorit kimi çıxıb qol vura bilməməsi oyunun "satılması" barədə şübhələri alovlandırıb.

Şübhələri gücləndirən digər əsas amil DÇ-2026-nın yeni formatıdır. İlk dəfə 48 komandanın iştirak etdiyi bu çempionatda qruplardan çıxmaq xeyli asanlaşıb. Belə ki, hər qrupdan ilk iki yeri tutan yığmalarla yanaşı, ən yaxşı nəticə göstərən səkkiz üçüncü yerin sahibi də növbəti mərhələyə vəsiqə qazanacaq. İspaniya kimi güclü bir



komandanın bu rahat formatda qəsdən xal itirdiyi, turnir taleyini təhlükəyə atmadan bukmeker oyunlarına alət olduğu iddia edilir.

## Mərakeşli sabiq futbolçudan iddialı açıqlamalar

**"Ölkəm Mərakeşin dünya çempionatındakı çıxışına görə qürur duyuram". Bu sözləri AZƏRTAC-a açıqlamasında Mərakeş millisinin və "Sabah"ın sabiq futbolçusu Sofian Çakla deyib.**



O bildirib ki, komandanın heyətində yüksəksəviyyəli futbolçular toplanıb və kollektiv son illərdə böyük inkişaf yolu keçib: "Komandamıza inanırıq və düşünürəm ki, bu turnirdə uğurlu çıxış edərək mümkün qədər irəli getmək üçün çoxlu şansımız var. Hər oyuna maksimum məsuliyyətlə yanaşacağıq. Ölkəm üçün ən yaxşısını arzulayıram və ümid edirəm ki, biz bu dünya çempionatını qazanacağıq. Azarkeşlərimizin dəstəyi futbolçular üçün çox vacibdir və onları sevindirmək üçün əllərindən gələni edəcəklər".

Xatırladaq ki, C qrupunda yer alan Mərakeş millisi ilk oyunda Braziliya ilə qolu heç-heçə edib - 1:1.

## Dünya çempionatları tarixinin yeni kralı olmağına bir qol qaldı

**Argentina millisinin kapitanı Lionel Messi dünya çempionatları tarixinin rekorduna şərik çıxıb. 38 yaşlı hücumçu DÇ-2026-nın J qrupunda Əlcəzairlə oyunda (3:0) het-trik edərək mundiallardakı qollarının sayını 16-ya çatdırıb.**



Bununla da Messi Almaniya millisinin sabiq hücumçusu Miroslav Klozenin rekordunu təkrarlayıb. Kloze də dünya çempionatlarının final mərhələlərində 16 qol vurub.

Dünya çempionatları tarixində ən çox qol vuran futbolçular siyahısında növbəti pillələrdə Ronaldo (15 qol), Gerd Müller (14 qol) və Kilian Mbappe (14 qol) qərarlaşıblar.

Qeyd edək ki, Messi DÇ-2026-da daha bir qol vuracağı təqdirdə dünya çempionatları tarixinin ən məhsuldar futbolçusu olacaq.

## Trampa millinin forması verildi

Almaniya kansleri Fredrix Merz G7 ("Böyük yeddilik") Sammiti zamanı ABŞ Prezidenti Donald Trampa Almaniya millisinin formasını hədiyyə edib.

Formanın üzərində Trampın soyadı və 47 nömrəsi yer alıb. Bu nömrə onun ABŞ-nin 47-ci prezidenti olmasına işarə edir.




## Martines postunu tərk etməyə hazırlaşır

**Portuqaliya millisinin baş məşqçisi Roberto Martines 2026-cı il dünya çempionatından sonra vəzifəsindən gedə bilər. Bu barədə "TalkSPORT" nəşri məlumat yayıb.**

52 yaşlı ispaniyalı mütəxəssis 2026-cı ilin iyulunda başa çatacaq müqaviləsini yeniləməmək qərarına gəlib. Bildirilir ki, Martines yığmanın DÇ-2026-dakı nəticəsindən asılı olmayaraq, Portuqaliya millisindən ayrılacaq. O, gələcəkdə İngiltərəyə qayıtmaq və ya başqa bir milli komandaya rəhbərlik etmək variantlarını da nəzərdən keçirir.

Qeyd edək ki, Roberto Martines 2023-cü ildən Portuqaliya millisini çalışdırır. O, bundan əvvəl - 2016-2022-ci illərdə Belçika yığmasına rəhbərlik edib.





## Cənubi Koreya millisi mətbuatla əlaqəni kəsdi

**Cənubi Koreyanın futbol üzrə milli komandası mətbuat nümayəndələri ilə əlaqələri dayandırıb. Bu barədə ESPN məlumat yayıb.**

Buna səbəb açıq məşq zamanı baş vermiş arzuolunmaz insident olub: təsadüfən açıq qalan mikrofon komandanın kapitanı Son Hın Min barədə jurnalistlərin dediyi replikaları qeydə alıb. Konkret olaraq, media nümayəndələri futbolçu qrupdan ayrı məşq edərkən onun məcburi hərbi xidmətdən azad edilməsini müzakirə ediblər.

Səs yazısı yayıldıqdan sonra Son Hın Min medianın suallarını cavablandırmaqdan imtina edib, federasiya isə nəzərdə tutulan bütün müsahibələri ləğv edib. Nümayəndə heyətinin Mətbuat xidmətinin rəhbəri tabeliyində olan şəxslərə görə məsuliyyəti öz üzərinə götürərək istefa verib.

Qeyd edək ki, DÇ-2026-da qrup mərhələsinin ilk turunda Cənubi Koreya millisi Çexiyaya 2:1 hesabı ilə qalib gəlib. Qrup mərhələsinin digər oyunlarında Koreya komandası Meksika və Cənubi Afrika Respublikası (CAR) yığmaları ilə qarşılaşacaq.

## Kürasao yığması Ginnesin Rekordlar Kitabına düşdü

**Kürasao millisi 2026-cı il futbol üzrə dünya çempionatına vəsiqə qazanan ən az əhaliyə malik ölkə kimi Ginnesin Rekordlar Kitabına düşüb. Bu barədə Ginnesin Rekordlar Kitabı "X" sosial şəbəkəsində paylaşım edib.**

Təşkilatın nümayəndələri müvafiq sertifikatı Kürasao Futbol Federasiyasının prezidenti Gilbert Martinaya təqdim ediblər. Karib dənizində yerləşən bu ölkənin əhalisi 156 min 115 nəfərdir ki, bu da futbol üzrə dünya çempionatının final mərhələsinə vəsiqə qazanan bütün dövlətlər arasında ən aşağı göstəricidir.




Xatırladaq ki, Kürasao millisi tarixində ilk dəfə futbol üzrə dünya çempionatının final mərhələsinə yüksəlib. Komanda Almaniya, Ekvador və Kot-d'İvuar yığmaları ilə birlikdə E qrupunda yer alıb. İlk turda Kürasao millisi Almaniyaya 1:7 hesabı ilə məğlub olub. Komanda növbəti oyununu iyunun 21-də Ekvador yığmasına qarşı keçirəcək.

## Futbol fanatları əlbəyaxa oldular

**Futbol üzrə dünya çempionatında Argentina və Əlcəzair millilərі arasında keçirilən oyun ərəfəsində tərəflərin azarkeşləri arasında dava düşüb.**



ABŞ mətbuatının yaydığı xəbərə görə, hadisə Nyu Yorkdakı Tayms meydanında baş verib. Polis münaqişəyə müdaxilə edib və bir neçə fanat saxlanılıb.

Xatırladaq ki, Argentina - Əlcəzair oyunu birincilərin inamlı qələbəsi (3:0) ilə yekunlaşıb.

## Mehdi Torabi viza problemi ilə üzləşib

**İran millisinin hücumçusu Mehdi Torabi DÇ-2026-da viza problemi ilə üzləşib.**



Bu barədə "RMC Sport" nəşri məlumat yayıb. 31 yaşlı futbolçunun ABŞ vizasının müddəti Yeni Zelandiya ilə qrup mərhələsinin ilk tur oyunundan (2:2) sonra başa çatıb.

Torabi həmin görüşün iştirak ərizəsinə daxil edilsə də, meydanda şans qazanmayıb. İran Futbol Federasiyası isə futbolçunun vizasının ABŞ-yə yalnız bir dəfə giriş üçün nəzərdə tutulduğunu açıqlayıb. Bildirilir ki, qurum hazırda hücumçunun turnirin növbəti matçlarında da iştirak edə bilməsi üçün vizanın uzadılması istiqamətində iş aparır.

Qeyd edək ki, İran millisinin təlim-məşq bazası ABŞ ilə sərhədə yaxın Meksika ərazisində yerləşir. Komanda növbəti oyununu iyunun 21-də Los-Ancelesdə Belçika yığmasına qarşı keçirəcək.

## Özbəkistan yığmasının şərəfinə xatirə sikkələri

**Özbəkistanda milli komandanın 2026-cı il dünya çempionatındakı iştirakı şərəfinə xatirə sikkələri dövriyyəyə buraxılacaq.**



Məhdud tirajla hazırlanmış sikkələr yığmanın dünya çempionatının qrup mərhələsində Kolumbiya ilə keçirən ilk oyun günü satışa çıxarılacaq.

Sikkənin ön tərəfində "Tarixi qələbə. Özbəkistan futbolu dünya çempionatında - 2026" yazısı həkk olunub. Arxa tərəfində isə komandanın talismanı olan "Ağ canavar" təsvir edilib. Talismanın silueti yığmanın dünya çempionatına aparılan 26 futbolçusunu birləşdirir.

## DÇ-2026-nın ilk günlərində qeydə alınan avtoqollar



**ABŞ, Kanada və Meksikanın birgə evsahibliyi etdiyi futbol üzrə dünya çempionatında avtoqolların sayı diqqət çəkib. Bu barədə "Squawka" statistik platforması məlumat yayıb.**

Bildirilib ki, mundialın ilk 6 günündə artıq 3 avtoqol qeydə alınıb. Paraqvay millisinin futbolçusu Damian Bobadilya, Qətər yığmasının üzvü Miro Muxaym və Misir millisinin oyunçusu Məhəmməd Hani topu öz qapılarından keçiriblər. Beləliklə, DÇ-2026-da cəmi 6 gün ərzində vurulan avtoqolların sayı 2022-ci ildə Qətərdə keçirilmiş dünya çempionatının ümumi göstəricisini üstələyib. Həmin turnirdə 2 avtoqol qeydə alınmışdı.

Məlumat üçün bildirək ki, dünya çempionatları tarixində ən çox avtoqol 2018-ci ildə Rusiyada təşkil olunan mundialda vurulub. Həmin turnirdə futbolçular 12 dəfə topu öz qapılarından keçiriblər.

*Hazırladı:*
*Dönməz ABBASOV*

# "20 Yanvar gecəsi gördüklərim gözlərimə yazılıb"

**Cəmiyyətinin varlığını və mənəvi gücünü yaşadan elə peşələr var ki, onların əhəmiyyəti yalnız görülən işlə deyil, insan talelərində buraxdığı izlə ölçülür. Bu peşələrin sahibləri yalnız öz vəzifələrini yerinə yetirmirlər, həm də insanların taleyinə toxunur, onların sevincinə, kədərinə və ümidlərinə şərik olurlar.**



Həkimlik belə müqəddəs missiyalardan biridir. Həkim olmaq təkcə ali təhsil almaq, peşəyə yiyələnmək deyil, həm də insan dərdinə şərik olmaq, gecəsini gündüzünə qatmaq, ən çətin anlarda belə təmkinini qoruyub saxlamaqdır. Bu peşənin əsasında mərhəmət, humanizm, vicdan və sonsuz fədakarlıq dayanır. Məhz buna görə də cəmiyyət hər zaman həkimlərə xüsusi hörmət və ehtiramla yanaşıb.

Belə fədakar ömür sahiblərindən biri də uzun illərdir insanların sağlamlığının keşiyində dayanan, minlərlə pasiyentin sevgisini qazanan həkim-terapevt Gülnarə Əliyevadır. Gülnarə Maqsud qızı Əliyeva Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Atası Maqsud Əliyev uzun illər "Azərbaycanfilm" kinostudiyasında çalışıb, anası isə televiziya və radio sahəsində fəaliyyət göstərib. Elmə, mədəniyyətə və zəhmətə hörmət ruhunda böyüyən Gülnarə Əliyeva orta təhsilini Bakıdakı 1 nömrəli məktəbdə alıb. Məktəbi bitirdikdən sonra o, həyat yolunu insanların sağlamlığına xidmətə həsr etmək qərarına gəlib və Azərbaycan Tibb Universitetinə daxil olub. 1984-cü ildə ali təhsilini başa vurduqdan sonra əmək fəaliyyətinə başlayıb. Bir il 2 nömrəli xəstəxanada interna həkim kimi çalışdıqdan sonra Pirallahı adasında yerləşən 3 nömrəli birləşmiş poliklinikada fəaliyyət göstərib. Sonradan köçürülmə yolu ilə Yasamal rayonundakı 19 nömrəli poliklinikaya təyinat alıb.

Artıq 39 ildən çoxdur ki, Gülnarə Əliyeva eyni məsuliyyət və peşəkarlıqla insanların sağlamlığı naminə çalışır. Bu illər ərzində onun qəbulundan keçən minlərlə insan yalnız tibbi yardım deyil, həm də mənəvi güc alıblar. Gülnarə xanım həkimlik peşəsinə münasibətini belə ifadə edir: "Həkimlik mənim üçün peşədən daha çox humanizm məktəbidir. İnsanlara kömək etmək, onlara sağlamlıq bəxş etmək, cəmiyyətə xidmət göstərmək üçün ən böyük vasitədir".

Gülnarə Əliyevanı fərqləndirən əsas xüsusiyyəti Vətənə sevgisi, insanlara qayğısıdır. Keçdiyi həyat yolundan bəhs edən həkim Azərbaycan xalqının qan yaddaşına çevrilmiş 20 Yanvar gecəsini bu gün də böyük ağrı və kədərlə xatırlayır. 1990-cı ilin yanvarında növbədə olan gənc həkim gecə saatlarında dəhşətli xəbər alır. Eşidir ki, indiki 20 Yanvar dairəsi ətrafında, kinostudiya istiqamətində insanlara atəş açılıb, çoxlu sayda yaralı var. O, tərəddüd etmədən zəruri tibbi ləvazimatları götürərək hadisə yerinə yollanır.

Qarşılaşdığı mənzərə isə sözlə ifadə olunacaq kimi deyildi. Hər tərəfdə yaralı insanlar, fəryad səsləri, qan içində qalan günahsız vətəndaşlar... Üstəlik, atəş səsləri hələ də kəsilməmişdi. Güllələr insanların başı üzərindən uçuşur, yaralıların təxliyesi belə təhlükə altında idi. Lakin həmin anlarda həkimlik borcu qorxuya üstün gəlir. Gülnarə həkim o gecəni belə xatırlayır: "İnsanları o vəziyyətdə qoyub geri dönmək mümkün deyildi. Həyatımız təhlükədə olsa da, yaralılara yardım göstərməyə çalışırdıq. Yaralarını sarıyır, qanaxmaların qarşısını alır, onları xilas etmək üçün əlimizdən gələni edirdik. O gecənin ağrısı və dəhşəti ömrüm boyu yaddaşımdan silinməyəcək. Mənə elə gəlir ki, o gecə gördüklərim gözlərimə yazılıb".

Bu sözlər təkcə bir həkimin xatirələri deyil, həm də xalqına xidmət edən Azərbaycan həkiminin mənəvi portretidir. Gülnarə Əliyeva bu gün həmin günlərə baxarkən qürur hissi keçirdiyini söyləyir: "Mən fəxr edirəm ki, azərbaycanlıyam və həkiməm ".

Onun həyat yolu yalnız peşə uğurları ilə deyil, həm də ailə dəyərlərinə bağlılığı ilə zəngindir. Gülnarə xanım iki oğul və bir qız övladı böyüdüb.

Dünən həkimlərin peşə bayramı idi - Gülnarə Əliyeva kimi ömrünü insan sağlamlığına, xalqına və Vətəninə xidmətə həsr edən fədakar tibb işçilərinin bayramı. Cəmiyyətin sağlamlığı onların zəhməti, yuxusuz gecələri, sonsuz səbir və mərhəməti hesabına qorunur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Bakıda "Milli Xalq Oyunları" Festivalı keçirilib

**"Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə paytaxtda "Milli Xalq Oyunları" Festivalı keçirilib.**










Paytaxtımızın gözəl məkanlarından olan Rixard Zorge adına parkda təşkil edilən və milli irsin təbliği, xalq oyunlarının yaşadılması və gələcək nəsillərə ötürülməsi məqsədi daşıyan "Milli Xalq Oyunları" Festivalında iştirakçı müəllim və şagirdlər, həmçinin onun həyata keçirilməsinə dəstək və köməklik göstərən Bakı Şəhər İcra Hakimiyyəti, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Regional İnkişaf" İctimai Birliyinin məsul şəxsləri, Azərbaycan Rəssamlıq Akademiyası, YARAT Müasir İncəsənət Məkanı, Azərbaycan Milli İdman Növləri Assosiasiyası, İMEK - Beynəlxalq Musiqi Tədris Mərkəzi, Azərsun Holdinq iştirak ediblər.

Festival çərçivəsində layihə üzrə əldə olunan nəticələr təqdim edilib, iştirakçılar üçün müxtəlif milli oyunlar və interaktiv fəaliyyətlər təşkil olunub. Belə ki, festivalda qədim xalq oyunları nümunələrindən olan çiləmə, dəyirman, fincan-fincan, iç-çöl, həmçinin bənövşə, gözbağlıcı, qodu-qodu, əl üstə kimi oyunları, milli rəqs master-klassı və digər idman oyunları keçirilib. Gənc rəssamlar 3 fərqli rəsm guşəsində öz rəsmlərini nümayiş etdiriblər. Festival boyunca Dj iştirakçıları əyləndirib, Fase art, köpük şou, animatorların çıxışları, gənc müğənnilər Aysu Sadıqzadə, Aylin Səlimova, Dəniz Hüseynzadə və Safiya Allahverdiyeva ifaları ilə iştirakçıları şənləndiriblər.

Sonda layihədə aktiv iştirak edən 6 müəllim mükafatlandırılıb, layihəyə cəlb olunan 120 şagirdə sertifikatlar verilib.

*"Azərbaycan"*

# G7 Ukraynaya silah təchizatını və Rusiya iqtisadiyyatına təzyiqi artıracaq

**G7 liderləri Ukraynanı hava hücumundan müdafiə sistemləri və uzaqmənzilli silahlar da daxil olmaqla daha çox silahla təchiz etməyə söz veriblər və Rusiyanın neft və qaz sektoruna qarşı sanksiyaları sərtləşdirməyə hazır olduqlarını bildiriblər.**




Fransanın Evian şəhərində 2 gün davam edən görüşlərin yekununda G7 liderləri Ukraynaya hava hücumundan müdafiə sistemləri və uzaqmənzilli silahlar da daxil olmaqla silah təchizatını artırmağa söz verən birgə bəyanat yayıblar və həmçinin Rusiyanın enerji sektoruna təzyiqi daha da artırmaq üçün "vaxtın əlverişli olduğuna" işarə ediblər. Onlar "Ukraynanın azadlığını, suverenliyini və ərazi bütövlüyünü müdafiə etməsində sarsılmaz dəstəyi" ifadə edən bəyanatı təsdiqləyiblər.

Avropa Ukraynaya maliyyə və hərbi dəstəyin əsas hissəsini təmin etməyə davam edir. Son hesablamalara görə, RF-nin 2022-ci ildə tammiqyaslı işğala başlamasından bəri Ukraynaya təxminən 200 milyard avro ayrılıb. Əlavə 90 milyard avro kredit planlaşdırılır və bu kreditin cari aydan etibarən verilməsinə başlanacaq. Ümumi yardımın təxminən 115 milyard avrosu ABŞ-nin payına düşür.

Eyni zamanda G7 liderləri təcili olaraq Amerikanın "Patriot" hava hücumundan müdafiə sistemlərinə ehtiyacı olan Ukrayna üçün hərbi istehsalın lisenziyalaşdırılmasını genişləndirməyi nəzərdən keçirməyə hazır olduqlarını bildiriblər. Birgə Bəyanatda deyilir: "Biz Rusiya hərbi iqtisadiyyatına təzyiqi artırmağa sadiqik. Bu kontekstdə neft və qaz sektoruna qarşı da daxil olmaqla sanksiyaları gücləndirəcəyik".

Bu arada ABŞ Prezidenti Donald Tramp bildirib ki, Vaşinqton əvvəllər müvəqqəti olaraq dayandırılmış Rusiya enerji ixracına qarşı sanksiyaları tezliklə yenidən tətbiq edə bilər. O vurğulayıb ki, ABŞ və İran arasında bu yaxınlarda bağlanmış çərçivə sazişi Hörmüz boğazından gəmiçiliyin bərpasına və qlobal enerji bazarındakı gərginliyin azalmasına kömək edə bilər.

Avropa İttifaqı artıq Rusiyaya qarşı 21-ci sanksiya paketini təsdiqləyib. Bu ayın əvvəlində qəbul edilmiş sonuncu sənəd Rusiya neft tədarükünü və "kölgə donanmasını" hədəfləyir.

G7 bəyanatında həmçinin enerji dayanıqlığının vacibliyi vurğulanır və Rusiyanın ənənəvi olaraq soyuq mövsümdə enerji infrastrukturuna hücum etdiyi nəzərə alınmaqla növbəti qışda Ukraynaya kömək etmək vəd olunur.

Rusiya isə Ukraynaya edilən hər hansı bir hərbi yardımı pisləyir. Moskva vurğulayır ki, bu cür hərəkətlər hərbi əməliyyatın gedişini dəyişdirməyəcək və yalnız münaqişəni uzadacaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Şükürbəyli camaatı şükür içində

## Kənd növbəti sakinlərinə qovuşdu

**İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "Böyük qayıdış" proqramı çərçivəsində yenidən qurulan yaşayış məntəqələrindən biri də Cəbrayılın Şükürbəyli kəndidir. Uzun illər işğal altında qalan, dağıdılaraq viranəyə çevrilən kənd bu gün müasir infrastrukturu, yeni yaşayış evləri və doğma yurda qayıdan sakinləri ilə Qarabağ və Şərqi Zəngəzurun dirçəlişini simvolizə edir.**









2020-ci ildə Cəbrayılın işğaldan azad edilməsindən sonra Şükürbəyli kəndində genişmiqyaslı tikinti və bərpa işlərinə başlanıldı. Dövlət tərəfindən həyata keçirilən layihələr nəticəsində kənd tamamilə yenidən quruldu, müasir şəhərsalma və kəndsalma prinsiplərinə uyğun yaşayış məkanı yaradıldı. Kənd sakinlərin rahat yaşaması üçün bütün zəruri sosial və mühəndis infrastrukturu ilə təmin edildi.

Şükürbəyli bu gün yalnız yenidən qurulan kənd deyil, həm də qayıdış karvanlarını qarşılayan doğma ocaqdır. Uzun illər yurd həsrəti çəkən keçmiş məcburi köçkünlərin kəndə dönüşü mərhələli olaraq həyata keçirilir. Dünən Şükürbəyli kəndi daha 196 sakininə (45 ailə) qovuşub. Bununla da kənd sakinlərinin sayı 435 ailəyə - 1888 nəfərə çatıb. Hazırda Şükürbəylidə ilkin mərhələdə tikilmiş 635 fərdi yaşayış evi istifadəyə verilib. Evlərin böyük hissəsində ailələr artıq məskunlaşıb, müəyyən hissəsi isə xidməti istifadə üçün nəzərdə tutulub. Müasir tələblərə uyğun inşa edilən yaşayış evlərində bütün zəruri kommunal şərait yaradılıb, ətraf ərazilərdə abadlıq işləri aparılıb.

Köç prosesinin hər mərhələsi kəndin sosial həyatının canlanmasına və bölgənin inkişafına yeni təkan verib. Cəbrayıl şəhərindən təxminən 18 kilometr məsafədə yerləşən kənddə sakinlərin rahatlığı üçün zəruri infrastruktur yaradılıb, yaşayış evləri və sosial obyektlər istifadəyə verilib. Təhsil sahəsinə göstərilən diqqət kəndin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Şükürbəylidə 360 şagirdlik məktəb binası istifadəyə verilib. Müasir avadanlıqlarla təchiz olunan təhsil müəssisəsində sinif otaqları, laboratoriyalar və digər zəruri infrastruktur yaradılıb. Bu da uşaqların keyfiyyətli təhsil almasına və gələcəkdə rəqabətqabiliyyətli kadrlar kimi formalaşmasına şərait yaradır.

Sosial xidmətlərin əlçatanlığının təmin olunması məqsədilə kənddə iki uşaq bağçası, həkim məntəqəsi, musiqi məktəbi, icma mərkəzi və inzibati bina tikilib. Həmin obyektlər sakinlərin gündəlik ehtiyaclarının qarşılanmasına xidmət etməklə yanaşı, kənddə sosial həyatın canlanmasına da töhfə verir. Xüsusilə icma mərkəzləri müxtəlif tədbirlərin təşkili, sakinlər arasında əməkdaşlığın gücləndirilməsi və ictimai fəallığın artırılması baxımından mühüm rol oynayacaq.

Kommunal infrastrukturun qurulması da diqqət mərkəzindədir. İstifadəyə verilən elektrik yarımstansiyası kəndin enerji təminatını tam şəkildə həll edib. Bununla yanaşı, qaz, içməli su, rabitə və internet xidmətləri sakinlərin istifadəsinə təqdim olunub. Kənddaxili yolların asfaltlaşdırılması isə nəqliyyat əlaqələrinin yaxşılaşdırılmasına imkan verib.

Növbəti mərhələdə kəndə əlavə sakinlərin köçürülməsi planlaşdırılır. Bu prosesə yalnız Şükürbəyli sakinləri deyil, həmçinin Şıxalıağalı, Dəjəl və Mahmudlu kəndlərinin sakinləri də cəlb olunacaq. Ümumilikdə 615 ailənin, yəni 2522 nəfərin burada məskunlaşdırılması nəzərdə tutulur. Bu isə Şükürbəylinin yaxın gələcəkdə regionun ən böyük yaşayış məntəqələrindən birinə çevriləcəyini göstərir.

Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni infrastruktur bölgənin iqtisadi inkişafı üçün də geniş imkanlar açır. Cəbrayılın gələcəkdə kənd təsərrüfatı, logistika və enerji sahələrində mühüm potensiala malik olacağı gözlənilir. Xüsusilə "yaşıl enerji" layihələri rayonun inkişaf perspektivlərini daha da genişləndirir.

Hazırda rayonda ümumi gücü 340 meqavat olan 3 günəş-elektrik stansiyasının tikintisi davam edir. Bu layihələr regionun enerji təhlükəsizliyinin möhkəmlənməsinə xidmət etməklə yanaşı, yeni iş yerlərinin açılmasına, investisiyaların cəlbinə və iqtisadi fəallığın artmasına şərait yaradacaq. Mütəxəssislərin hesablamalarına görə, 340 meqavat gücündə enerji istehsalı bütün Qarabağın elektrik enerjisi ilə təmin olunmasına imkan verə bilər.

Şükürbəylidə görülən işlər işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən dövlət siyasətinin real nəticələrini nümayiş etdirir. Məqsəd yalnız keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışını təmin etmək deyil, eyni zamanda onların uzunmüddətli, təhlükəsiz və rahat yaşayışı üçün dayanıqlı şərait yaratmaqdır. Bu baxımdan "Böyük qayıdış" proqramı həm bugünkü, həm də gələcək nəsillərin rifahına hesablanmış strateji inkişaf konsepsiyası kimi çıxış edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**2012-ci ildə Ağcabədi Pedaqoji Kolleci tərəfindən Şahverdi Etibar oğlu Hüseynzadəyə verilmiş qeydiyyat nömrəsi 167, AA seriyalı 044321 saylı adi diplom və diploma əlavə blankı itdiyi üçün etibarsız sayılır.**

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, publisist, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatları Ağalar Vəliyev və Heydər Əsədov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, publisist, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, publisist, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyyətinin başçısı Zakir Fərəcov görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3785
Sifariş 782
Qiyməti 60 qəpik